Xalqın qəzeti!

# Xalq qəzeti

№ 230 (30924) 28 oktyabr 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi



## Zəfər yürüşünün 32-ci günü:

# Bütün yollar Şuşaya aparırdı...

*Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham ƏLİYEV:*

**Biz 44 gün ərzində yalnız irəli gedirdik. Şuşaya qədər bir çox şəhər və kəndlərimiz, o cümlədən Cəbrayıl, Hadrut, Füzuli, Zəngilan, Qubadlı, Suqovuşan, 300-ə yaxın kənd, Laçının və Kəlbəcərin bir hissəsi döyüş meydanında azad edilmişdir.**

**Müharibə dövründə çoxsaylı müsahibələrdə mən müharibənin gedişatı ilə bağlı bəzi məqamları açıqlayırdım. Təbii ki, hər şeyi deyə bilmirdim. Xüsusilə gələcək planlar haqqında bir çox şeyləri deyə bilmirdim. Verilən suala cavab olaraq cəmi bir dəfə demişdim ki, Şuşasız bizim qələbəmiz yarımçıq olacaq. Əminəm, Azərbaycan xalqı yaxşı anladı ki, bizim son məqsədimiz, müharibənin son məqsədi Şuşanı işğaldan azad etməkdir.**

**Şuşaya gedən yol 27 sentyabr tarixində başlamışdır. Müharibənin ilk günündən son gününə qədər Azərbaycan Silahlı Qüvvələri yalnız irəli gedirdi, 44 gün ərzində bir gün də geri addım atmamışdı.**

**Şuşanın azad edilməsi Ermənistan ordusunun belini qırdı. Faktiki olaraq, müharibənin ilk günlərindən Ermənistan təşviş içində idi, bəzi hallarda panikaya qapılırdı, isterikaya qapılırdı. Məhz buna görə də Ermənistan ordusunda 10 mindən çox fərari olmuşdur, onların özlərinin etirafıdır. Hərbçilərimiz ölümə gedirdilər, "öldü var, döndü yoxdur" şüarı ilə döyüşlərə gedirdilər, bir nəfər də olsun fərari olmamışdır. Bu, xalqımızın qəhrəmanlığıdır!**

## Türk dünyasının elmi-mədəni birliyinin özülü 1 əsr əvvəl Bakıda qoyulmuşdu



Səhifə ⇨ 11

## Dini dəyərlərin azad ölkəsi



Səhifə ⇨ 14

## İrəvanda parlament terroru və Koçaryanın izləri

*1999-cu il qətliamı ölkədə dövlət suverenliyinin itirilməsinin başlanğıcı kimi qiymətləndirilir*

**1999-cu il oktyabrın 27-də Ermənistan parlamentində törədilən terror aktının 26-cı ildönümü tamam oldu. Hər il olduğu kimi, bu il də ölkənin baş naziri Nikol Paşinyan həlak olanların xatirəsinə parlamentin parkında ucaldılmış abidəni ziyarət edib, önünə gül dəstəsi qoyub. Paşinyanı Milli Assambleyanın sədri Alen Simonyan və prezident Vaaqn Xaçaturyan müşayiət edib.**



27 oktyabr terroru ölkə tarixinin ən qaranlıq səhifələrindən biridir. Eyni zamanda, həmin hadisə Ermənistanın siyasi sistemində dərin iz buraxmış faciə kimi yadda qalıb. Terror aktı ölkədə uzunmüddətli siyasi qeyri-sabitliyin əsasını qoyub və hakimiyyət strukturunda ciddi dəyişikliklərə səbəb olub.

*(ardı 5-ci səhifədə)*

## "Sülh şəraitində yaşamağı öyrənməliyik"



Səhifə ⇨ 4

## Erməni hərbçilər əsirləri öldürür, girovlara işgəncə verirdilər



Səhifə ⇨ 15

# TRIPP layihəsi bölgədə geosiyasi durumu dəyişir

*Cənubi Qafqazı sülh və tərəqqiyə aparan strateji yol və kəsişən maraqlar*

**Prezident İlham Əliyevin təşəbbüskarlığı Azərbaycanın ərazi bütövlüyünü bərpa etməklə kifayətlənmədiyini, eyni zamanda, Cənubi Qafqazın inteqrasiyasını və sülh prosesini təmin edən platformalar yaratdığını göstərir. Zəngəzur dəhlizi (TRIPP) bu baxımdan geosiyasi və diplomatik alət rolunu oynayır.**

Dəhliz Azərbaycanın şərq və qərb hissələrini birləşdirərək ölkənin inzibati və iqtisadi vahidliyini gücləndirir, həmçinin regionun qlobal ticarət və enerji şəbəkələrinə inteqrasiyasına açar rolunu oynayır.

*(ardı 4-cü səhifədə)*




## İrəvan nəyə və necə xəyanət edir?



Səhifə ⇨ 5

## Adam Şiff oğrudur!



Səhifə ⇨ 6

## Sağlıq durumu məhdud insanların sosial xidmətlərə çıxışı genişdir

Səhifə ⇨ 13



# Azərbaycan elmi milli və bəşəri yüksəlişin xidmətində

**Elm cəmiyyətin sosial-iqtisadi və mədəni inkişafını təmin edən önəmli mənəvi-intellektual güc mənbəyi, çağdaş dünyada qəbul edildiyi kimi, yüksək səmərə verən məhsuldar qüvvədir. Müasir cəmiyyətlərin dayanıqlı inkişafında elmi-texniki tərəqqinin rolu və təsiri misilsizdir.**

*(ardı 12-ci səhifədə)*



# Qazaxıstan Respublikasının Prezidenti Zati-aliləri cənab Kasım-Jomart Tokayevə

**Hörmətli Kasım-Jomart Kemeleviç!**

Qazaxıstan Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizə və Sizin simanızda qardaş xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Qazaxıstanın hər bir sahədə əldə etdiyi sanballı uğurları, iqtisadi inkişafı, əhalinin rifahının artması və beynəlxalq aləmdə yüksək nüfuz qazanması Sizin rəhbərliyiniz altında ölkədə aparılan əhəmiyyətli islahatların və yorulmaz fəaliyyətinizin nəticəsidir.

Xalqlarımızın ortaq tarixi-mədəni kökləri dövlətlərarası əməkdaşlığımızı şərtləndirən başlıca amillərdəndir. Qardaş ölkələrimiz arasında əlaqələr qarşılıqlı etimad və yüksək hörmət ruhunda inkişaf edir. Bu il imzalanmasının 20 illiyini qeyd etdiyimiz “Azərbaycan Respublikası və Qazaxıstan Respublikası arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətləri haqqında Müqavilə” dövlətlərarası əlaqələrimizin strateji mahiyyətini əyani şəkildə əks etdirir.

Siyasi təmaslarımızın intensivliyi, ali səviyyədə qarşılıqlı anlaşmanın və fəal dialoqun mövcudluğu müxtəlif sahələrdə, xüsusilə də ticari-iqtisadi, energetika, o cümlədən yaşıl enerji, nəqliyyat, investisiya, informasiya texnologiyaları, mədəni-humanitar və digər sahələrdə əməkdaşlığımızın dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır.

Bu yaxınlarda qardaş ölkənizə həyata keçirdiyim dövlət səfərim zamanı əldə etdiyimiz nəticələr, razılaşmalar və imzaladığımız sənədlər münasibətlərimizin daha da dərinləşdirilməsi istiqamətində sarsılmaz iradəmizin və əzmimizin bariz nümunəsidir.

Əminəm ki, Azərbaycan–Qazaxıstan qardaşlığının, etibarlı strateji tərəfdaşlığının və müttəfiqliyinin möhkəmləndirilməsi, əməkdaşlığımızın hərtərəfli genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da müvəffəqiyyətlə davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, ali dövləti fəaliyyətinizdə uğurlar, qardaş Qazaxıstan xalqına daim əmin-amanlıq, rifah və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 oktyabr 2025-ci il**

# Avstriya Respublikasının Federal Prezidenti Zati-aliləri cənab Aleksander Van der Bellenə

**Hörmətli cənab Federal Prezident!**

Avstriya Respublikasının milli bayramı münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Avstriya arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, Avstriya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 oktyabr 2025-ci il**

## S.H.Fətəliyevin Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Seymur Həbib oğlu Fətəliyev Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

## T.B.Zöhrabovun İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Taleh Balaşirin oğlu Zöhrabov İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulu təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

## E.N.Səlimovun Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Eldar Nadir oğlu Səlimov Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

## Ş.Ş.Abdullayevin Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığında, eyni zamanda Bəhreyn Krallığında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığında, eyni zamanda Bəhreyn Krallığında fövqəladə və səlahiyyətli səfiri və Azərbaycan Respublikasının İslam Əməkdaşlıq Təşkilatı yanında daimi nümayəndəsi vəzifələrindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

## Ş.Ş.Abdullayevin Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının İordaniya Haşimilər Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

## G.Q.İsmayılzadənin Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Gürsel Qüdrət oğlu İsmayılzadə Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

## Ə.M.Hüseynovun İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əliyənnağı Mehti oğlu Hüseynov İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

## M.A.Talıbovun Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında, eyni zamanda Honduras Respublikasında, Kolumbiya Respublikasında, Kosta Rika Respublikasında, Qvatemala Respublikasında, Panama Respublikasında və Peru Respublikasında səfiri vəzifəsindən geri çağırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Afiq oğlu Talıbov Azərbaycan Respublikasının Meksika Birləşmiş Ştatlarında, eyni zamanda Honduras Respublikasında, Kolumbiya Respublikasında, Kosta Rika Respublikasında, Qvatemala Respublikasında, Panama Respublikasında və Peru Respublikasında səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

## E.N.Səlimovun Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Eldar Nadir oğlu Səlimov Azərbaycan Respublikasının İraq Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

## F.Y.Talıbovun Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Fərid Yunis oğlu Talıbov Azərbaycan Respublikasının Yaponiyada fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

## M.S.Mirzəyevin Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Mütəllim Sabir oğlu Mirzəyev Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 oktyabr 2025-ci il**

## Mərkəzi icra hakimiyyəti orqanları və digər idarəetmə qurumları rəhbərlərinin 2025-ci ilin noyabr ayında şəhər və rayonlarda keçirəcəkləri vətəndaş qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Daxili işlər naziri** Vilayət Eyvazov | Kürdəmir | Kürdəmir, Ucar, Göyçay, Ağsu, Ağdaş, Hacıqabul, Şirvan | 01 |
| 2. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 03 |
| 3. | **Baş prokuror** Kamran Əliyev | Abşeron | Abşeron, Zəngilan | 04 |
| 4. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | Quba | Quba, Qusar, Xaçmaz, Şabran | 06 |
| 5. | **Ədliyyə naziri** Fərid Əhmədov | Masallı | Masallı, Lənkəran, Astara, Lerik, Cəlilabad, Yardımlı | 07 |
| 6. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | Beyləqan | Beyləqan, İmişli, Saatlı, Sabirabad, Xocavənd | 13 |
| 7. | **Gənclər və idman naziri** Fərid Qayıbov | Gəncə | Gəncə, Samux, Kəlbəcər | 14 |
| 8. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | Zərdab | Zərdab, Ucar, Kürdəmir | 14 |
| 9. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | Sumqayıt | Sumqayıt | 14 |
| 10. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | Biləsuvar | Biləsuvar, Salyan, Neftçala, Şirvan, Hacıqabul | 14 |
| 11. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | Naftalan | Naftalan, Goranboy, Xocalı | 14 |
| 12. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | Mingəçevir | Mingəçevir, Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab, Kürdəmir | 14 |
| 13. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | Göygöl | Göygöl, Daşkəsən, Goranboy, Naftalan, Xocalı | 14 |
| 14. | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | Bərdə | Bərdə, Tərtər | 14 |
| 15. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | Şəmkir | Şəmkir, Gədəbəy, Ağstafa, Qazax, Tovuz | 19 |
| 16. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | Yevlax | Yevlax, Mingəçevir | 21 |
| 17. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | Zərdab | Zərdab, Ucar, Yevlax, Mingəçevir, Ağdaş, Göyçay, Kürdəmir | 21 |
| 18. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | Biləsuvar | Biləsuvar, Cəbrayıl | 24 |
| 19. | **Elm və təhsil naziri** Emin Əmrullayev | Naxçıvan | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | 28 |
| 20. | **Energetika naziri** Pərviz Şahbazov | Xızı | Xızı, Siyəzən, Şabran, Sumqayıt, Abşeron | 28 |
| 21. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | İmişli | İmişli, Beyləqan | 28 |
| 22. | **Mədəniyyət naziri** Adil Kərimli | **Ağdam** (Quzanlı qəsəbəsi) | Ağdam, Ağcabədi, Bərdə, Tərtər, Füzuli, Laçın | 28 |
| 23. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | Astara | Astara, Lənkəran, Lerik | 28 |
| 24. | **“Azəristiliktəchizat” ASC-nin sədri** İlham Mirzəliyev | Bərdə | Bərdə, Tərtər | 28 |
| 25. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | Zaqatala | Zaqatala, Balakən | 28 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Türkiyə xarici işlər nazirinin müavini Azərbaycan XİN-də



**Oktyabrın 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyə xarici işlər nazirinin müavini Ayşe Berris Ekinci ilə görüşüb.**

Görüşdə Azərbaycan-Türkiyə müttəfiqliyindən irəli gələn mövzular, habelə regional və beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunub.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətlərini təsbit edən tarixi Şuşa Bəyannaməsinin mövcud qardaşlıq və dostluq əlaqələrimizin təcəssümü olduğu bildirilib. Liderlərimizin təlimatı ilə çoxölçülü müttəfiqlik münasibətlərimizin siyasi, təhlükəsizlik, iqtisadi, ticarət, enerji, nəqliyyat, kommunikasiyalar, mədəni-humanitar və digər aspektləri üzrə əməkdaşlığın daha da gücləndirilməsi istiqamətində fəaliyyətin vacibliyi vurğulanıb.

Azərbaycan və Türkiyənin bütün beynəlxalq təşkilatlarda, xüsusilə də ailəmiz hesab olunan Türk Dövlətləri Təşkilatında birgə səylərimizin təqdirəlayiq olduğu vurğulanıb, bu il Qəbələdə keçirilmiş Sammitin təşkilatın daha da gücləndirilməsinə xidmət edəcəyinə əminlik ifadə olunub.

Həmin gün, həmçinin Azərbaycan və Türkiyə Xarici İşlər Nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib. Siyasi məsləhətləşmələrdə Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Samir Şərifov, Türkiyə nümayəndə heyətinə isə xarici işlər nazirinin müavini Ayşe Berris Ekinci rəhbərlik ediblər.

*XQ*

# Daxili işlər nazirinin növbəti sıra baxışı



**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov oktyabrın 27-də respublikanın şəhər, rayon polis orqanları və daxili qoşunlarda xidmət etmək arzusunda olan gənclərin növbəti sıra baxışını keçirib.**

Bakı şəhərində keçirilən sıra baxışında Daxili İşlər Nazirliyinə onlayn qaydada müraciət etmiş gənclərdən daha hazırlıqlı olan 189 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 14 nəfəri Vətən müharibəsi iştirakçısıdır.



Gənclər qarşısında çıxış edən nazir V.Eyvazov seçim turunun digər mərhələlərindən də uğurla keçərək daxili işlər orqanlarında xidmətə qəbul ediləcək gənclərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb, tapşırıq və tövsiyələrini verib.

*XQ*

# Vyanada neytral dövlətlərin konfransı






**Vyana Diplomatiya Akademiyasında "Beynəlxalq sülh və təhlükəsizlikdə neytral və bloklara qoşulmayan dövlətlərin rolu" mövzusunda beynəlxalq konfrans keçirilib.**

Azərbaycanın Avstriyadakı səfirliyinin dəstəyi ilə Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (AIR Center), Müharibə nəticələrinin araşdırılması üzrə Lüdviq Boltsmann İnstitutu və Vyana Diplomatiya Akademiyasının birgə təşkil etdiyi konfransda neytral və bloklara qoşulmayan dövlətlərin, xüsusilə də Azərbaycan və Avstriyanın siyasəti, onların təhlükəsizlik təminatçısı kimi rolu və sülhə, sabitliyə, həmçinin mövcud və yeni yaranan transmilli çağırışların həllinə verdikləri töhfələri müzakirə olunub.

Vyana Diplomatiya Akademiyasının direktor müavini Martina Şubert və Azərbaycanın Avstriyadakı səfiri Rövşən Sadıqbəyli konfransa açılış nitqi ilə çıxış ediblər.

Diqqətə çatdırılıb ki, bu il Azərbaycanın Konstitusiyasının qəbulunun 30 illiyi və Avstriyanın əbədi neytrallığının elan olunduğu Dövlət Müqaviləsinin 70 illiyi qeyd edilir. Avstriya 1955-ci ildə neytrallığını elan edərək, hərbi ittifaqlara qoşulmamaq qərarı verib. Azərbaycan isə 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra heç bir siyasi-hərbi bloka qoşulmadan bütün ölkələrlə dost münasibətlər qurmağa çalışan çoxşaxəli xarici siyasət yürüdüb. Azərbaycanın "Qoşulmayan" statusu beynəlxalq səviyyədə tanınıb və ölkə 2011-ci ilin may ayında Qoşulmama Hərəkatının tamhüquqlu üzvünə çevrilib.

Konfransın sessiyalarında BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev, Avropa və Təhlükəsizlik Siyasəti üzrə Avstriya İnstitutunun baş məsləhətçiləri Frants Tsede və Martin Saydik, hərbi tarixçi Ervin Şmidl, Ludviq Boltsmann İnstitutunun təmsilçisi Anna Qraf-Ştayner, Vyana Universitetinin müəllimi Ralf Yanik, Strateji Analizlər üzrə Mərkəzin prezidenti Valter Fayxtinqer və digər məruzəçilər çıxış ediblər.

BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev vurğulayıb ki, 2011-ci ildə Azərbaycan Qoşulmama Hərəkatına qoşulması ölkəmizin "Bandunq Prinsipləri"nə sadiqliyini nümayiş etdirib. Bu siyasi xətt hazırda da davam etdirilir və Azərbaycan regional əməkdaşlıqla yanaşı, ikitərəfli münasibətlərə, xüsusilə Türkiyə ilə müttəfiqlik əlaqələrinin dərinləşdirilməsinə xüsusi önəm verir. Onun sözlərinə görə, "soyuq müharibə"dən sonra Azərbaycan müxtəlif istiqamətlərdə - həm Müstəqil Dövlətlər Birliyi (MDB), həm də Avrointeqrasiya çərçivəsində əməkdaşlıq imkanlarını dəyərləndirsə də, mövcud geosiyasi vəziyyət ölkəmizi balanslaşdırılmış və praqmatik xarici siyasət xətti yürütməyə səbəb olub.

"2019-2023-cü illərdə Hərəkata sədrliyimiz dövründə Azərbaycan beynəlxalq həmrəyliyin gücləndirilməsi, pandemiya dövründə ədalətli vaksin bölgüsünün təşviqi, eləcə də Qoşulmama Hərəkatı Gənclər Təşkilatının və Parlament Şəbəkəsinin yaradılması kimi vacib təşəbbüslərlə çıxış edib.

Çıxışlardan sonra mövzular ətrafında sual-cavab və fikir mübadiləsi aparılıb.

*XQ*

# Konstitusiya Məhkəməsi Plenumunun iclası

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin II hissəsi və 71-ci maddəsi baxımından Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 211.2-ci və 218.3-cü maddələrinin əlaqəli şəkildə şərh olunmasına dair konstitusiya işinə baxılıb.



Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim H.Əfəndiyevanın məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmənin Cinayət Kollegiyası, Bakı Apellyasiya Məhkəməsinin Cinayət Kollegiyası, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi, Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi və Vəkillər Kollegiyası tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələri, ekspertlər Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının professoru, hüquq elmləri doktoru F.Abbasovanın və həmin kafedranın müəllimi, hüquq üzrə fəlsəfə doktoru L.Məmmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinin II hissəsi, 71-ci maddəsi və Cinayət-Prosessual Məcəlləsinin 218.3-cü maddəsinin müddəalarından irəli gələrək, həmin Məcəllənin 211.2.2–211.2.6-cı maddələrində müəyyən edilən əsaslarla cinayət işinin materiallarından başqa cinayət işi ayrıca icraata ayrıldıqda istintaq müddətinin axımı ilkin cinayət işinin başlandığı gündən hesablanır.

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 211.2.1-ci maddəsi ilə nəzərdə tutulmuş əsasla ayrılmış cinayət işi üzrə ibtidai istintaq müddəti ayrılma haqqında qərar qəbul edildiyi (yeni cinayət işi başlanıldığı) gündən hesablanır.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

*XQ*

# "Süni intellektin mediada tətbiqi"

**Medianın İnkişafı Agentliyi və ADA Universitetinin İxtisasartırma Proqramının birgə təşkilatçılığı ilə media nümayəndələri üçün "Süni intellektin mediada tətbiqi" mövzusunda iki gün davam edəcək seminarlara başlanılıb.**





Seminarın açılış hissəsində çıxış edən ADA Universitetinin Akademik işlər üzrə prorektorunun müşaviri, İxtisasartırma Proqramının rəhbəri Aygün Hacıyeva çıxışında bildirib ki, süni intellekt texnologiyaları artıq medianın gələcək inkişaf trayektoriyasını formalaşdıran əsas amillərdən birinə çevrilərək xəbər istehsalı və informasiya axınının idarə olunmasında yeni yanaşmalar tələb edir. Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli çıxışında vurğulayıb ki, süni intellekt sürətli inkişafı media sahəsində yeni imkanlar yaratmaqla yanaşı, bu sahənin nümayəndələrinin peşəkar məsuliyyətinin artmasını zəruri edir.

Təlimçi qismində çıxış edən Rəqəmsal marketinq və kütləvi kommunikasiyalar sahəsi üzrə dosent, Neyroelmlər Laboratoriyasının rəhbəri, tanınmış alim Nikolas Hamelin "Giriş və mediada süni intellekt inqilabı", "Məlumatların skreypinqi: İctimai məlumatlandırmada data analitikası", "Süni intellekt ilə idarə olunan brend və məhsul təqdimatı", "Big data" və generativ süni intellekt vasitəsilə cəlbedici media məzmununun yaradılması", "Strateji inteqrasiya və gələcəyə baxış" adlı modullar ətrafında iştirakçılarla fikir mübadiləsi aparıb.

*XQ*



# "COP29 Bakı Çağırışı" AP-də yüksək dəyər alıb

**Avropa Parlamenti ölkəmizin uğurla ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində qəbul olunmuş Sülh, Yardım və Bərpa üçün İqlim Fəaliyyətinə dair Bakı Çağırışını (Bakı Çağırışı) iqlim fəaliyyəti, sülh və təhlükəsizlik sahəsində qlobal gündəliyin irəliləməsində mühüm mərhələ olduğu qənaətindədir.**

Braziliyanın Belem şəhərində keçiriləcək COP30 konfransı ilə bağlı Parlamentin qəbul etdiyi xüsusi qətnamədə "iqlim, sülh və təhlükəsizlik gündəliyinə artan diqqət COP konfranslarında öz əksini tapmış, xüsusilə COP29 zamanı 'Sülh, Yardım və Bərpa üçün İqlim Fəaliyyətinə dair Bakı Çağırışı'nın qəbul olunması ilə aydın şəkildə nümayiş olunmuşdur" deyə qeyd edilir.

Avropa Parlamentinin bu dəyərləndirməsi Bakı Çağırışının iqlim dəyişikliyi, münaqişələrin qarşısının alınması, humanitar yardım, sülh və münaqişədən sonrakı bərpa prosesləri arasındakı qarşılıqlı əlaqələrin həlli istiqamətində qlobal səylələri birləşdirən mühüm beynəlxalq təşəbbüs kimi artan əhəmiyyətini bir daha təsdiq edir.

Eyni zamanda, bu qiymətləndirmə qlobal iqlim diplomatiyasında Azərbaycanın




lider mövqeyinin və beynəlxalq iqlim fəaliyyətində sülhə və dayanıqlı inkişafa verdiyi mühüm töhfənin bariz göstəricisidir.

*XQ*

# TRIPP layihəsi bölgədə geosiyasi durumu dəyişir

(əvvəli 1-ci səhifədə)

Layihə Azərbaycanın strateji mövqeyini möhkəmləndirən, diplomatik nüfuzunu artıran və regional aktorlarla qarşılıqlı asılılığı gücləndirən geosiyasi mexanizmdir. Ermənistanın baş nazir Nikol Paşinyanın xarici legitimləşməyə və beynəlxalq aktorlarla əlaqələrin qorunmasına prioritet verməsi layihənin icra tempinə birbaşa təsir göstərir. Ermənistan rəhbərliyinin daxili siyasətindəki qərarsızlıq və xarici faktorların təsiri marşrutun açılmasında gecikmələr yaradır. Paşinyanın xarici güclərlə əlaqələrə fokuslanması, eyni zamanda, daxili konsensusun formalaşmasını çətinləşdirir; nəticədə infrastruktur layihələrinin operativ icrası ləngiyir. Azərbaycan tərəfi regiondakı bu gecikmələri strateji fürsətə çevirir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Bakı həm beynəlxalq aktorlarla effektiv əlaqələr qurur, həm də Ermənistanın passivliyini tarazlayaraq layihəni davamlı və dayanıqlı edir. Eyni zamanda, Ermənistanın gecikmələri beynəlxalq aktorların layihəyə marağını artırır. Avropa İttifaqı və ABŞ



Azərbaycanın təşəbbüslərini dəstəkləyərək regional sülh və inteqrasiyanı təmin etmək imkanını dəyərləndirirlər. Bu amillər Bakının diplomatik mövqeyini gücləndirir, layihənin beynəlxalq legitimliyini artırır. Digər tərəfdən, Ermənistanın daxili siyasi çəkişmələri və xarici legitimləşməyə olan bağlılığı həm də layihənin təhlükəsizlik və iqtisadi risklərini formalaşdırır. Passivlik, iqtisadi imkanların gecikməsi və dəhlizin regional faydalarının hiss olunmaması daxili narazılıqların yaranmasına səbəb ola bilər. Nəticədə, Azərbaycan tərəfi layihəni həm iqtisadi, həm də geosiyasi baxımdan idarə edərək regional balansı qoruyur, uzunmüddətli strateji üstünlük əldə edir. "Tramp marşrutu", eyni zamanda, regional kommunikasiya xəritəsini yenidən qurur. Azərbaycan layihəyə diplomatik və geosiyasi maraqlarla yanaşır. Prezident İlham Əliyevin məqsədi Cənubi Qafqazın sabitlik mərkəzini Azərbaycanın liderliyi ilə formalaşdırmaqdır. Dəhliz Cənubi Qafqazı Avropa və Asiya arasında yeni tranzit xəritəsinə daxil edir, ticarət, enerji və nəqliyyat axınlarını şaxələndirir. Azərbaycan diplomatik manevr imkanlarını artırır və Prezident İlham Əliyevə regional və qlobal aktorlarla eyni vaxtda əməkdaşlıq etmək imkanı verir.

*

Bu prosesdə rəsmi Ankaranın dəstəyi çoxşaxəlidir. Hərbi baxımdan Türkiyə regional müdafiə sistemlərinin və təhlükəsizlik mexanizmlərinin koordinasiyasını gücləndirir, siyasi sahədə isə Azərbaycan rəhbərliyinə diplomatik platformalarda üstünlük verir, layihənin beynəlxalq diqqət mərkəzində qalmasını təmin edir. İqtisadi sahədə Türkiyə enerji və nəqliyyat axınlarını diversifikasiya edərək Cənubi Qafqazı Avropa–Asiya ticarət xəritəsində əsas tranzit mərkəzinə çevirir.

Rəsmi Ankaranın rolu, eyni zamanda, Rusiya və İranın dominant mövqelərinə balans yaratmaq baxımından strateji əhəmiyyət daşıyır, regiondakı çoxaktorlu güc dinamikasını Azərbaycan və Türkiyənin əlverişli mövqeyinə yönləndirir. Rusiya "Tramp marşrutu"na baxışında həm tərəfdaş, həm də rəqib rolunu eyni zamanda oynayır. Moskva üçün prioritet enerji təhlükəsizliyini qorumaq və regionda hərbi-strateji balansı saxlamaqdır. Azərbaycanın təşəbbüskarlığı və layihənin beynəlxalq dəstək alması Rusiyanın tranzit üstünlüklərini məhdudlaşdıra, qlobal nəqliyyat xəritəsində mövqeyini dəyişdirə bilər. Buna baxmayaraq, Rusiya diplomatik platformalarda vasitəçilik rolunu saxlayır, layihənin icrasında strateji balans nöqtəsi axtarır.

İranın maraqları daha mürəkkəb və çoxqatlıdır. Tehranın diqqət mərkəzində Cənubi Qafqazın şimal-cənub tranzit imkanları və enerji yollarının regiona inteqrasiyası dayanır. TRIPP layihəsinin reallaşması Azərbaycanın və Ermənistanın qarşılıqlı asılılığını artırır; bu isə İranın regiona təsir imkanlarını qoruyur, lakin




eyni zamanda layihənin icrasını potensial çətinləşdirir. İqtisadi baxımdan, tranzit marşrutlarının diversifikasiyası İranın birbaşa nəzarət etdiyi enerji və ticarət axınlarını zəiflədə bilər. Siyasi baxımdan isə, regiondakı güc balansı dəyişdikcə, Tehran diplomatik və strateji manevr imkanlarını yenidən qiymətləndirməli olur.

Bu üç aktorun – Türkiyə, Rusiya və İranın – Zəngəzur dəhlizinə yanaşması bir-biri ilə qarşılıqlı təsir və balans içindədir. Türkiyə və Azərbaycanın təşəbbüskarlığı nəticəsində geosiyasi əhəmiyyət daşıyan platformaya çevrilir. Rusiya və İranın mövqeləri isə marşrutun davamlılığına və regional sülh perspektivinə birbaşa təsir edir. Hər bir aktorun strategiyası layihənin uzunmüddətli dayanıqlılığını və regional inteqrasiyanı müəyyənləşdirən mühüm parametrlərdən biridir.

*

ABŞ Zəngəzur dəhlizini Cənubi Qafqazda qlobal strateji maraqlarını həyata keçirilməsi üçün kritik platforma kimi qiymətləndirir. Siyasi baxımdan, ABŞ üçün layihə regional sabitliyi qorumaq və Ermənistan–Azərbaycan münasibətlərində balans yaratmaq vasitəsidir. Paşinyanın xarici legitimləşməyə olan bağlılığı və ABŞ-ın diplomatik təsiri onun qərarvermə prosesinə birbaşa təsir edir. Bu amillər Vaşinqton üçün həm tərəflərin əməkdaşlıq etməsinə təşviq, həm də Ermənistanın daxili siyasətinə dolayısı ilə nəzarət imkanı yaradır.

İqtisadi aspektdə isə ABŞ bu marşrut vasitəsilə Avropa–Asiya ticarətinin diversifikasiyasını dəstəkləyir, bununla Rusiya və İranın tranzit üstünlüklərini azaldır, qlobal enerji təhlükəsizliyini möhkəmləndirir. ABŞ həmçinin regionda özü və tərəfdaşı üçün alternativ tranzit marşrutlarının formalaşmasında maraqlıdır. Bu da qlobal ticarət axınlarının diversifikasiyasına, Vaşinqtonun enerji və iqtisadi strategiyalarına xidmət edir. Aİ isə daha çox normativ və institusional çərçivəyə diqqət yetirir. Siyasi baxımdan, Aİ üçün layihə regional inteqrasiyanı və sülh proseslərini beynəlxalq standartlara uyğun şəkildə formalaşdırmaq vasitəsidir. Aİ Zəngəzur dəhlizini (TRIPP) diplomatik alət kimi istifadə edərək, Paşinyan rəhbərliyinə təzyiq göstərir, Ermənistanı layihəyə qoşulmağa təşviq edir və regionda stabilliyi qoruyur. İqtisadi baxımdan, Aİ ticarət və enerji axınlarının təhlükəsizliyini təmin etmək, Avropa bazarları ilə Asiya arasında yeni tranzit marşrutlarını formalaşdırmaq istəyir. Bu amillər həm Azərbaycanın, həm də Ermənistanın iqtisadi maraqlarını beynəlxalq standartlarla uyğunlaşdırır və regionun uzunmüddətli iqtisadi dayanıqlığını artırır. Bütün bunlar göstərir ki, ABŞ və Aİ-nin Zəngəzur koridoruna dəstəyi eyni amala xidmət etsə də, məqsəd və vasitələr fərqlidir.

Son olaraq qeyd edək ki, Zəngəzur dəhlizi layihəsi Cənubi Qafqazın geosiyasi matrisini köklü şəkildə dəyişdirən və regionun çoxqatlı aktorlararası qarşılıqlı asılılıq sistemini yenidən formalaşdıran strateji mexanizmdir. Bu platforma regionda iqtisadi inteqrasiyanı, diplomatik və təhlükəsizlik əlaqələrini gücləndirir, regional sülhün dayanıqlığını təmin edir. Azərbaycan isə prosesdə Prezident İlham Əliyevin strateji təşəbbüskarlığı sayəsində regionda qlobal aktorların maraqlarını tarazlaşdıran və onları layihənin reallaşmasına cəlb edən dinamik geosiyasi mərkəz rolunu oynayır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# "Sülh şəraitində yaşamağı öyrənməliyik"

## *Ermənistanın baş naziri cəmiyyətə daha bir gerçək mesaj verdi*

**Bz tarixi qələbəmiz üçün çox ağır bədəl ödədik. Lakin qələbə qazanmaqda əsas məqsədimiz sülh idi. Bəli, nəyin bahasına olursa–olsun əldə edilən sülh bəşər tarixindəki bütün müharibələrin məntiqi sonudur. İndi biz yağıya nifrətdən və onu öldürmək arzusundan azad olan yeni nəsilləri yetişdirmək barədə düşünürük. Bəs müharibədə biabırcasına məğlub olmuş qonşumuz necə, separatizm və revanşizm kimi mərəzlərdən nə zaman qurtulacaq? Çətin, haylar üçün taleyüklü və gec-tez müsbət cavablandırılmağa məhkum sualdır.**

Ermənistan cəmiyyətində bu reallığı dərk edən, dövlətin və xalqın müqəddaratının məhz bu sualdan birbaşa asılı olduğunu qəbul edən kəsimin səsləri eşidilməkdədir. Bu mesajların rəsmilərin dilindən səslənməsi isə müəyyən ümidlər yaradır.

Baş nazir Nikol Paşinyan Ermənistan və Azərbaycanı əldə etdikləri nailiyyətlərlə kifayətlənməməyə çağırıb. O, iki ölkə arasında sülhün artıq danılmaz fakta çevrildiyini bəyan edib və əldə olunmuş nizamlanmanın gücləndirilməsinin vacibliyini vurğulayıb. Paşinyan bu barədə dünən Milli Assambleyada 2026-cı il dövlət büdcəsi layihəsinin müzakirəsi zamanı bildirib. Çıxışında daxili auditoruiyaya üvanlanan bir sıra pozitiv mesajlar verən Paşinyanın sözlərinə görə, onilliklərlə davam edən qarşıdurmadan sonra ölkə sülh şəraitində yaşamağı öyrənməlidir: "Ermənistan Respublikası sülhün mənası ilə tanış deyil, çünki o, müstəqilliyinin ilk günündən münaqişə vəziyyətindədir. Biz sülhün şərtlərinə uyğun olan adekvat qavrayış və



düşüncə tərzini inkişaf etdirməliyik".

Çıxışında reallığa adekvat yanaşma sərgiləyən Paşinyan sözlərinə onu da əlavə edib ki, hazırda hökumətin vəzifəsi sülhü institutsional və davamlı etməkdir. Onun sözlərinə görə, Azərbaycanla diplomatik kanallar və müxtəlif səviyyələrdə əlaqələr davam edir. Paşinyan Ermənistan parlamentinin sədri ilə Azərbaycan Milli Məclisinin sədri arasında keçirilən görüşləri, eləcə də hər iki ölkənin baş nazir müavinlərinin rəhbərlik etdiyi işçi qrupları arasında müntəzəm təmasları xatırladıb.

"Azərbaycanla münasibətlərimiz gündəlik həyatımızın ayrılmaz hissəsi olub. İndi yeganə fərq ondan ibarətdir ki, bu, sülh gündəmidir və Azərbaycanla sülh bizim gündəlik işimizin bir hissəsinə çevrilib", – deyən baş nazir həmçinin elan edib ki, İrəvan proqramın heç bir təfərrüatını açıqlamadan TRIPP layihəsini həyata keçirmək üçün ABŞ-la "intensiv" işləyir. Onun sözlərinə görə, layihə "region üçün yenidir" və özündə hökumətin yaxın gələcəkdə həll etməyə ümid etdiyi "bir sıra mürəkkəblikləri" ehtiva edir.

Hökumət başçısı çıxışında vurğulayıb ki, 2026-cı ilin iyun ayına təyin edilmiş parlament seçkiləri, əslində, sülh referendumudur: "Ermənistan Respublikasının vətəndaşları öz seçimi ilə sülhə sadiqliyini bir daha təsdiq etməlidir. Əks halda, ölkə münaqişə və forpostlar məntiqinə qayıtmaq riski ilə üzləşir". Paşinyan əlavə edib ki, sülhə doğru kursun təsdiqlənməsi Ermənistan üçün müstəqillik, suverenlik və dövlətçiliyin yeni səviyyəsini ifadə edəcək.

Azərbaycanın Ermənistana tranzit məhdudiyyətlərini aradan qaldırması barədə qərarını tarixi hadisə adlandıran Nikol Paşinyan İrəvanın da müvafiq addımlar atmasının vacib olduğunu deməyi də unutmayıb. Baş nazir onu da qeyd edib ki, son bir il səkkiz ay ərzində Ermənistan–Azərbaycan sərhədində atışma nəticəsində bir nəfər də əsgər həlak olmayıb. İrəvanın bu gündən etibarən Türkiyədən Azərbaycana və geriyə yük maşınlarının tranzitini asanlaşdırmağa hazır olduğunu bildirən Paşinyan yük maşınlarının hərəkəti üçün Marqara–Yeqnadzor–Sisian–Qoris yolunu təklif edib. O, hazırda bunun Ermənistan tərəfinin həyata keçirə biləcəyi yeganə variant olduğunu bildirib.

*

Yazımızın əvvəlində İrəvanın sülh çağırışlarının müəyyən ümidlər yaratdığını yazdıq. Amma biz postmünaqişə və post-müharibə səhifələrini birdəfəlik çevirə bilmərik. Çünki qonşularımıza inandığımızın və unutqanlığımızın bədəlini çox baha ödəməli olmuşuq. İntəhası, ermənilər kimi olub–keçənlərin əsarətində əbədi yaşamaq düşüncəsindən uzağıq. Onların ruhları daha çox xəyali xarakter daşısa da, bu zaman saxta tarixlərinin bataqlığında çapalasalar da, qaçqın və köçkünlərimiz, şəhid və qazilərimiz bizə fotolardan, videoxronikalardan baxarkən səhifəni çevirə, ekranı qapada bilmərik. Gələcəyə böyük planlar qurmaq barədə düşünəndə də rahatlaşmağa haqqımız yoxdur.

ADA Universitetində keçirilən beynəlxalq forumda Prezident İlham Əliyevin coğrafi qonşularımızın gələcək inkişafı ilə bağlı səhv hesablama apardıqları, iqtisadi gələcəklərini və real müstəqilliklərini "böyük Ermənistan" xülyaları naminə qurban verdikləri barədə dediklərini unutmamalıyıq. İrəvan isteblişmenti də unutmamalı və daim yadında saxlamalıdır ki, məhz Azərbaycan dövlət başçısının dəqiq və strateji addımlarına əsaslanan, diqqətlə işlənmiş xarici siyasəti Ermənistanın həqiqi müstəqil ölkəyə çevrilməsinə faktiki imkan yaradıb. Bizə ümid etmək qalır ki, Ermənistan bu həlledici amili dəyərləndirəcək və nəhayət, konstitusiyasına dəyişikliklər də daxil olmaqla, qonşularına ərazi iddialarından, revanşist istəklərindən əl çəkəcək. İndiki şəraitdə hay cəmiyyəti sülh ideyalarına açıqlıq nümayiş etdirməsində nə qədər səmimi görünsə belə, bu reaksiyanın cari amillərin, o cümlədən Azərbaycana qarşı çıxmağın mümkünsüzlüyünün dərk edilməsi sayəsində formalaşdığını deməyə haqqımız var.

Bəli, biz tankların lülələrinə qızılgül keçirərkən duyğusallaşıb zəiflik göstərməməliyik. Əgər haradasa, nədə isə zəifliyə yol versək və ermənilər şanslarının yarandığını düşünməyə başlasalar, ehtiyatsızlıqdan yaxalanmaq riski ilə üzləşə bilərik. Amma bu zaman hər şeyi və hər kəsi şübhəli kimi rədd etmək də doğru seçim deyil. Sadəcə qızıl ortanı, keçilməz qırmızı xətt çəkdiyimiz zəmini toxunulmaz saxlamalıyıq. Bu gün də, gələcəkdə də...

***İmran BƏDİRXANLI***
***XQ***

### *Ekspert rəyi*



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Bəli, Nikol Paşinyanın bu səpkili açıqlamaları, mesajları Azərbaycanın maraqlarına tam mənada cavab verir. Eyni zamanda, ona da əminəm ki, onun parmentdəki çıxışında pozitiv ton, sülhə yanaşma tərzi erməni xalqının tələblərinə də cavab verir. Ola bilsin ki, Emənistan cəmiyyətindəki sağlam düşüncəli insanlar, hakimiyyət nümayəndələri artıq başa düşürlər ki, qonşu ölkənin ərazisində vuruşmaq, qan tökmək, itkilər vermək dövlətin maraqlarına uyğun sayıla bilməz. Azərbaycan dövləti olaraq gec də olsa sübut etdik ki, əgər biz həmin təzyiqi göstərməsəydik, onlar bu gün Şuşada separatçılara parlamet binası, eləcə də digər obyektləri inşa edirdilər. Bəli, dövlətimiz və xalqımız onların beyinlərindəki illüziyaların hamısını puça çıxardı.

Paşinyanın eşitdiyimiz çıxışları Azərbaycanın atdığı diplomatik addımların birmənalı şəkildə nəticəsidir. Aydın məsələdir ki, ikitərəfli münasibətlərin pozitiv məcraya düşməsində Ağ Evin kifayət qədər böyük rolu olub. Əlbəttə ki, avqustun 8-də imzalanan Birgə Bəyannamə öz təsirini göstərməkdədir. Həm ermənilər, həm biz bu regionda normal şəkildə, qonşular kimi yaşamalıyıq. Başqa çıxış yolumuz yoxdur. Nə Azərbaycan, nə də Ermənistan Cənubi Qafqaz regionundan çıxacaq. Əgər Ermənistan rəsmiləri və cəmiyyəti artıq bu həqiqəti başa düşübsə, deməli, həm də Bakının yaratdığı reallıqdan düzgün nəticə çıxarıblar. Sülhə aparan yolda son bir neçə addımın atılmasına gəldikdə isə, düşünürəm ki, qarşı tərəf bu cür pozitiv yanaşmanı davam etdirərsə, referendumun keçirilməsi də, sülh sazişinin imzalanması da reallaşar və ondan sonra bütün məsələlər özünün müsbət həllini tapa bilər.

# İrəvan nəyə və necə xəyanət edir?

## *“Soyqırımı” məsələsinin kənara qoyulması Kremlin sözçüsünü “sarsıdıb”*

**Milli kimlik bəzən real zəfərlərdən və qurulan şəhərlərdən daha çox nəsildən-nəslə ötürülən faciələr və tarixi travmalar üzərində inşa edilir. Həmin miflərin sökülməsi, xüsusən bir əsrdən artıqdır ki, bütöv xalqın varlıq fəlsəfəsinə, siyasi şüuruna və hətta gündəlik həyatına hopmuş mifdən imtina cəhdi təhlükəli siyasi prosesdir.**

Ermənistanın Baş naziri Nikol Paşinyanın və rəsmi İrəvanın uydurma “erməni soyqırımı” məsələsini ölkənin xarici siyasət prioritetləri sırasından çıxarmaq niyyəti diplomatik manevrin Türkiyə və Azərbaycana yönəlik reveransın fövqündə dayanır. Həmin addım Ermənistan dövlətçiliyinin yüzillik ideoloji bünövrəsinə endirilmiş zərbə, özünü daim qurban və qonşularını əbədi düşmən olaraq kodlayan kimlik anlayışından ağrılı imtina cəhdidir. Məhz buna görə atılan addımın əks-sədası Kremlin divarlarında rezonans doğurub. Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın həmin qərarı emosional tonla “xəyanət” adlandırması və Paşinyan hökumətini tarixə qarşı saygısızlıqda ittiham etməsi ilk baxışda keçmiş irsə formal qayğı kimi görünsə də, əslində, itirilməkdə olan geosiyasi alətin Cənubi Qafqazda onilliklər boyu təsir rıçağı rolunu oynamış ideoloji silahın arxasınca deyilən mərsiyədir.

Zaxarovanın bəyanatı Moskvanın narahatlığının dərinliyini tam aydınlığı ilə göstərir: “Tarixdə elə dövrlər olur ki, xalqlar və ölkələr çətinliklərin öhdəsindən gələ bilmədikləri üçün yox olurlar. Çünki onlar müqəddəs saydıqları şeylərə xəyanət edirlər. Baxın, bir çox erməni liderinin və dövlət xadimlərinin izahında “erməni soyqırımı” ilə bağlı tarixə əsaslanan, toxunulmaz görünən məsələnin qəfildən siyasi, onların təbirincə, kənara atıla biləcək amilə çevrilməsi məni, sadəcə, sarsıtdı”. Bu açıqlama Rusiyanın mövqeyinin təkcə siyasi narazılıq deyil, həm də İrəvana yönəlik mənəvi-psixoloji təzyiq cəhdi olduğunu göstərir. “Xəyanət”, “yox olmaq”, “müqəddəs dəyərlər” kimi ifadələrin seçilməsi Ermənistan cəmiyyətinin ən həssas nöqtələrinə toxunmaq və Paşinyanın addımını millətin özünüməhvi kimi təqdim etmək məqsədi daşıyır.

Bəs Moskvanın sərt reaksiyasının əsl səbəbi nədir? Bu sualın cavabını tapmaq üçün uydurma “soyqırımı” narrativinin son yüz ildə Rusiya üçün hansı funksiyaları yerinə yetirdiyini anlamaq lazımdır. Həmin məsələ heç vaxt sadəcə tarixi mövzu və ya erməni xalqının faciəsinə humanist yanaşma olmayıb. O, Cənubi Qafqazın mürəkkəb geosiyasi arenasında Rusiyanın əlindəki çoxfunksiyalı ideoloji, siyasi və geosiyasi alət olub.

Birincisi, “soyqırımı” kartı Ermənistanı Rusiyanın geosiyasi orbitində saxlamaq üçün ən etibarlı lövbər idi. Ermənistan cəmiyyətinin şüuruna yeridilən “türk təhlükəsi” İrəvanı təhlükəsizliyini təmin etmək üçün mütləq şəkildə Moskvaya sığınmağa məcbur edirdi. Həmin narrativ olmasaydı, Ermənistanın Türkiyə ilə normal qonşuluq münasibətləri qurması, NATO üzvü olan ölkə ilə iqtisadi və siyasi əlaqələrini inkişaf etdirməsi üçün heç bir əngəl qalmazdı. “Soyqırımı” iddiası Ermənistanla Türkiyə arasında heç vaxt bağlanmayan gərginlik mənbəyi kimi saxlanılırdı. Bu şəraitdə isə Rusiya özünü Ermənistanın yeganə xilaskarı, onun fiziki varlığının qarantı kimi təqdim edirdi. Həmin status, Rusiyaya Ermənistanda hərbi baza saxlamaq, onun xarici siyasətinə birbaşa müdaxilə etmək və Qərbə inteqrasiya yolundan çəkindirmək üçün legitim zəmin yaradırdı. Paşinyanın narrativdən imtinası, əslində, bu geosiyasi lövbəri qırmaq və Ermənistan gəmisini Rusiyanın limanından çıxarmaq cəhdidir.

İkincisi, bu hekayə Ermənistan cəmiyyətini daxildən idarə etmək üçün güclü ideoloji vasitə idi. “Soyqırımı” mövzusu erməni kimliyinin mərkəzinə qoyularaq, bütün milli enerjini keçmişin intiqamını almaq və tarixi ədaləti bərpa etmək kimi illüziyalara yönəldirdi. Bu, cəmiyyəti real problemlərdən – iqtisadi gerilikdən, korrupsiyadan, demoqrafik böhrandan yayındıran və daimi səfərbərlik vəziyyətində saxlayan psixoloji konstruksiya idi. Paşinyanın bu ideoloji dayağı sökməyə çalışması Moskvanın Ermənistanın daxili siyasi diskursuna təsir imkanlarını kəskin şəkildə məhdudlaşdırır.

Üçüncüsü, “soyqırımı” iddiası Rusiyaya bütün Cənubi Qafqaz regionunda geosiyasi işlər qurmaq imkanı verirdi. Həmin mövqe təkcə Ermənistan–Türkiyə münasibətlərini gərgin saxlamaqla məhdudlaşmırdı. Narrativ həm də Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına mənəvi və tarixi “bəraət” qazandırmaq üçün vasitə idi. Qarabağ münaqişəsi erməni təbliğatında tez-tez “yeni soyqırımının qarşısını almaq” kimi təqdim edilirdi. Bu yanaşma beynəlxalq hüququn kobud şəkildə pozulmasını pərdələməyə və işğalçılıq siyasətini qurban obrazı altında gizlətməyə xidmət edirdi.

Baş nazir Nikol Paşinyanın mövqeyi acı reallıqlarla üzləşmiş ölkə liderinin praqmatik və məcburi seçimidir. Paşinyan artıq bir neçə dəfə açıq şəkildə bəyan edib ki, Ermənistanın “vətənpərvərlik modeli” uzun illər boyu erməni kilsəsi və Kremlin təbliğatı tərəfindən formalaşdırılıb və bu model ölkəni daim qarşıdurma vəziyyətində saxlayan süni konstruksiyadır.

44 günlük Vətən müharibəsi və 2023-cü ilin sentyabrında Azərbaycanın suverenliyini tam bərpa etməsi ilə yaranan geosiyasi vəziyyətdə Ermənistanın köhnə xətti davam etdirməsi birbaşa dövlətçilik üçün ölümcül risk yaradır. Paşinyan anlayır ki, onun ölkəsi seçim qarşısındadır: ya keçmişin xəyalları və mifləri ilə yaşayaraq iqtisadi cəhətdən çökən, demoqrafik böhran yaşayan və tamamilə təcrid olunmuş forposta çevrilmək, ya da acı da olsa, reallığı qəbul edərək qonşularla münasibətləri normallaşdırmaq, sərhədləri açmaq və dövlətin real, coğrafi sərhədləri daxilində inkişaf etmək.

Ermənistan kimliyinin ən ağrılı və müqəddəs hesab etdiyi elementini, əslində inkişafına ən böyük əngəl olan yükü çiyinlərindən atmağa çalışır. Həmin proses son dərəcə ağrılı, daxili siyasi mübarizələrlə və xarici təzyiqlərlə müşayiət olunacaq. Erməni diasporu və daxildəki revanşistlər Paşinyanı devirmək üçün bütün vasitələrə əl atacaqlar. Paşinyanın addımı, həm də regionda yeni eranın başlanğıcı üçün ümidlər yaradır. Bunun nəticəsində bütün xarici güclər Cənubi Qafqazla artıq bərabərhüquqlu tərəfdaşlıq prinsipləri ilə danışmağa məcbur olacaqlar.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***




***Ekspert rəyi***



**Tural İSMAYILOV,**
**politoloq**

**Ermənistanın Baş naziri Nikol Paşinyanın “erməni soyqırımı” iddiasını ölkənin xarici siyasət prioritetləri sırasından çıxarması Cənubi Qafqazda illərlə davam edən ideoloji blokadanın sarsılması deməkdir. Bu qərar Ermənistanın yeni geosiyasi oriyentasiyasını nümayiş edən ciddi strateji dönüşdür. Mariya Zaxarovanın dili ilə Moskvanın emosional reaksiyası təsadüfi deyil. Çünki Rusiya uzun illərdir “soyqırımı” narrativindən həm Ermənistan üzərində nəzarət, həm də Türkiyəyə qarşı təzyiq vasitəsi kimi istifadə edib.**

Paşinyanın bu addımı Kremlin postsovet məkanında ideoloji təsir mexanizmlərinə birbaşa zərbə vurur. “Soyqırımı” mifinin siyasi gündəmdən çıxarılması İrəvanın artıq tarix üzərindən geosiyasət yürütməkdən imtina etdiyini göstərir. Zaxarovanın “xəyanət” ifadəsi, əslində, Moskvanın dərin narahatlığını gizlətmək cəhdidir. Çünki bu qərarla Ermənistanın Türkiyə və Azərbaycanla normallaşma prosesi daha real əsaslar qazanır. “Soyqırımı” iddiaları illər boyu İrəvanın Ankara ilə diplomatik münasibət qurmasına ən böyük maneə olub. Paşinyan bu maneləri sistemli şəkildə aradan qaldırır və bu, artıq regionun gələcəyinə yönəlmiş praqmatik siyasətin tərkib hissəsidir. Paşinyanın “vətənpərvərlik modelini” yenidən tərif etməsi Ermənistanın postsovet travmalarından qurtulma cəhdidir. O, açıq şəkildə bildirir ki, kilsə və Kremlin təsiri ilə formalaşmış bu model ölkəni davamlı qarşıdurma vəziyyətində saxlayıb.

Bu, həm də Azərbaycanın uzun müddətdir müdafiə etdiyi sülh gündəminin doğruluğunu təsdiqləyir. Bakı illərlə vurğulayıb ki, regionun inkişafı üçün real əməkdaşlıq zəruridir. Ermənistan bu həqiqəti, gec də olsa, qəbul edir. Paşinyanın qərarı tarixi miflərdən azad olmaq cəhdidir. Bu addım Ermənistanın müstəqil dövlət kimi hərəkət etməyə başladığını göstərir.

# İrəvanda parlament terroru və Koçaryanın izləri

(əvvəli 1-ci səhifədə)

### Hadisənin izi ilə...

Həmin gün parlamentin növbəti iclasında – sual-cavab mərhələsindən əvvəl maliyyə naziri Levon Barxudaryan kürsüdə olarkən silahlı şəxslər zala soxulublar. Onlar parlament üzvlərindən mobil telefonlarını söndürmələrini və yerə uzanmalarını tələb ediblər. Şahidlərin sözlərinə görə, terrorçular çox həyəcanlı vəziyyətdə olublar və dövlət çevrilişi etdiklərini bildiriblər. Yaraqlıların “qlavar”ı Nairi Unanyan baş nazirə yaxınlaşıb “Qanımızı içməyi dayandırın” deyə qışqırıb. Baş nazir isə sakitcə “Hər şey sizin və övladlarınızın gələcəyi üçün edilir” deyə cavab verib. Unanyan daha sonra atəş açıb.

İclasda iştirak edən jurnalistlərin sözlərinə görə, atəş baş nazir Vazgen Sarkisyana və Milli Assambleyanın sədri Karen Dəmirçyana yönəlib. Onların hər ikisi öldürülüb. Hücum zamanı Milli Assambleyanın sədr müavinləri Yuri Baxşyan və Ruben Miroyan, operativ məsələlər üzrə nazir (baş nazirin müavini vəzifəsini icra edən) Leonard Petrosyan, deputat Armenak Armenakyan və Ermənistan Milli Elmlər Akademiyasının akademiki, deputat Mikael Kotanyan qətlə yetirilib. Hücum zamanı parlament binasında olan digər deputat, “Hayastan” qəzetinin redaksiya şurasının sədri Henrik Abramyan ürək tutmasından ölüb. Atəş səsləri parlament binasının yaxınlığındakı küçələrdə də eşidilib. Yarım saat sonra adamlar parlament binasına axın edib və təcili yardım və polis maşınları gəlməyə başlayıb. Bina daxili qoşunların bölmələri ilə əhatə olunub. Milli Assambleyanın zalında təxminən 50 parlament və hökumət üzvünü girov saxlayan terrorçular danışıqlar üçün ölkənin o dövrdəki prezidenti Robert Koçaryanın şəxsən onların yanına gəlməsini tələb ediblər.

Terrorçuları başçısı N.Unanyanın keçmiş jurnalist və Erməni İnqilabi Federasiyası – “Daşnaksütyun” partiyasının keçmiş üzvü olduğu məlum olub. O, 1988–1990-cı illərdə tələbə hərəkatının fəalı olub və Qarabağ hərəkatının başlanğıcında gənclərin tətil və nümayişlərində iştirak edib. Tələb yerinə yetirilib və Unanyanla Koçaryan arasında birbaşa danışıqlar başlayıb. Terrorçuların iki tələbi var idi: canlı yayıma çıxmaq, ikincisi isə onlara təslim olmaq imkanının yaradılması və ədalətli mühakimə təminatının verilməsi.









Oktyabrın 28-də girovların parlament binasından azad edilməsinə başlanılıb. Silahlı qrupun üzvləri həbs olunaraq Ermənistan Milli Təhlükəsizlik Nazirliyinə aparılıblar. Terrorçular nazirliyin istintaq təcridxanasında saxlanılıblar. Nairi ilə yanaşı dəstəyə onun kiçik qardaşı Karen Unanyan, eləcə də Eduard Qriqoryan, Vram Qalstyan və Derenik Becanyan daxil idi. Ermənistan Baş Prokurorluğu Cinayət Məcəlləsinin 61-ci maddəsi (terror aktı) ilə cinayət işi açıb. İlkin istintaqı prokurorluğun istintaq idarəsi aparıb.

R.Koçaryanın 28 oktyabr tarixli fərmanı ilə onun özünün rəhbərlik etdiyi dövlət komissiyası yaradılıb. Onun digər fərmanı ilə oktyabrın 29-dan 31-dək matəm günü elan edilib.

### Əsas versiya: Koçaryanın, yaxud yaxın ətrafının sui-qəsdi

Terror aktının törədilyi gecədən başlayaraq Ermənistan prezidenti R.Koçaryanın sui-qəsdin və hakim blok liderlərinin öldürülməsinin təşəbbüskarı olduğu barədə şayiələr sürətlə yayılmağa başladı. Nairi Unanyanın verdiyi ifadəyə əsasən, prezidentin müşaviri Aleksan Arutyunyan dekabrın 16-da həbs edilib, ardınca Koçaryanın bir neçə digər tərəfdarı da həbsə atılıb. Koçaryanın özü terror aktında iştirak etməkdə açıq şəkildə ittiham edilib. Yeni təyin olunmuş baş nazir Aram Sarkisyan, baş nazirin müavini Vaan Şirxanyan, mərhum spikerin oğlu Stepan Dəmirçyan və bir neçə digər yüksək vəzifəli siyasətçi mətbuat konfranslarında prezidentə və onun tərəfdarlarına qarşı açıq-aşkar ittihamlar irəli sürüblər. Rəqiblərinin səhvlərindən tədricən istifadə edən Koçaryan hakimiyyətini möhkəmləndirməyi bacarıb. Lakin parlamentdəki qətliamın təşkilatçıları arasında Unanyanın qrupundan kənar şəxslərin olub-olmadığı sualı açıq qalır. Ermənistanda bir çoxları baş vermiş cinayətin arxasında R.Koçaryanın dayandığına inanır.

2003-cü ilin sonlarında İrəvan məhkəməsi yeddi nəfəri təqsirkar bilib. Onlardan heç biri peşman olmadığını bildirib. Üstəlik, hərəkətlərinin baş nazirin istefasını və Ermənistanı fəlakətdən qurtarmağı tələb etmək məqsədi daşıdığını iddia ediblər. Təqsirləndirilən 6 şəxs – Nairi, qardaşı Karen, Eduard Qriqoryan, Vram Qalstyan, Derenik Becanyan və Aşot Knyazyan ömürlük həbs cəzasına məhkum edilib. Hamlet Stepanyan 14 il həbs cəzası alıb. Hakim Samvel Uzunyan bildirib ki, əgər Ermənistan Avropa Şurası qarşısında öhdəliklər götürməsəydi, təqsirləndirilən şəxslər ölüm cəzasına məhkum ediləcəkdilər.

### 27 oktyabr 1999-cu il separatçılara qapı açdı

Ermənistanın hazırkı hakimiyyəti 1999-cu il oktyabrın 27-də baş vermiş terror aktının məsuliyyətini əsasən o dövrün rəhbərliyində olan R.Koçaryan üzərində görür. Paşinyan komandasının mövqeyinə görə, həmin faciə təkcə terror aktı deyil, həm də avtoritar sistemin nəticəsi idi. Hakim dairələr hesab edirlər ki, Koçaryanın siyasi ambisiyaları və güc mərkəzlərini şəxsi nəzarətə almaq istəyi bu faciəni mümkün edib. Rəsmi İrəvanın ritorikasında 27 oktyabr hadisəsi Koçaryan rejiminin kölgəsində baş vermiş “dövlət çevrilişi” kimi təqdim olunur. Paşinyan tərəfdarları iddia edirlər ki, həmin qətllərdən sonra Koçaryan faktiki olaraq bütün hakimiyyəti öz əlində cəmləşdirib. Buna görə də hazırkı hökumət və erməni xalqı üçün 27 oktyabr təkcə bir faciə deyil, həm də keçmiş rejimin simvoludur. Beləcə, Paşinyan hakimiyyəti üçün 27 oktyabr hadisəsi Koçaryan sisteminin formalaşmasının başlanğıcı kimi qiymətləndirilir.

Bu çərçivədə Ermənistan hökumətinə yaxınlığı ilə seçilən “Baqramyan 26” teleqram kanalının dünənki paylaşımı da maraq doğurur: “26 il əvvəlin bu günündə həm Ermənistan Respublikasının inkişaf planını, həm də mənəvi inkişafımız baxımından tariximizi dəyişdirən iki faciəvi hadisə baş verdi. Bir qrup alçaq Ermənistan Respublikası parlamentini gülləbaran edərək ölkəmizin inkişaf vektorunu müstəqillik və güclənmə kursundan Rusiyaya tam tabeçiliyə və vassal asılılığa doğru tamamilə dəyişdirdi. Bütün ermənilərin katolikosunun taxt-tacı şeytanın xidmətçisi və xarici kəşfiyyat xidmətlərinin agenti tərəfindən qəsb edildi. O, Rəbbimizin Allahdan qorxan xidmətçilərini çıxdaş etməklə müqəddəs kilsəmizin dağıdılmasına başladı və özünü “nataşalar” və oğrularla əhatə etdi. Təəssüf ki, Ermənistan və bütün erməni xalqı üçün 28 oktyabr hələ gəlməyib”.



Bu istiqamətdə fikirlərini XQ ilə bölüşən **politoloq Ramiyə Məmmədova** bildirdi ki, “Baqramyan 26”nın paylaşımı Ermənistanın siyasi və dini müstəvisində baş verənlərin təkcə keçmişə deyil, bu günə də yönəlmiş simvolik dəyərləndirmədir. Onun sözlərinə görə, paylaşımın məzmunu göstərir ki, Paşinyan hökumətinə yaxın çevrələr 27 oktyabr faciəsini yalnız terror hadisəsi kimi deyil, ölkənin geosiyasi istiqamətinin zorla dəyişdirilməsi kimi təqdim edirlər: “Yəni onların baxışına görə, həmin gün Ermənistan müstəqillik və suverenlik yolundan çıxarılaraq Rusiyanın təsir orbitinə salınıb. “Bir qrup alçaq” ifadəsi ilə təkcə parlamentə hücum edən terrorçular deyil, həm də o hadisədən siyasi qazanc götürən qüvvələr nəzərdə tutulur. Bu, dolayısı ilə Robert Koçaryan və onunla bağlı elitanın ünvanına yönəlmiş açıq ittihamdır. Paylaşımda dini kontekstdə səslənən fikirlər isə təsadüfi deyil. Burada II Qareginin katolikosluq dönəminə və onun hakimiyyətlə əlaqələrinə işarə edilir. “Şeytanın xidmətçisi” və “xarici kəşfiyyat agenti” ifadələri son illər kilsə rəhbərliyinin ictimai etimadının ciddi şəkildə sarsıldığını göstərir. “28 oktyabr hələ gəlməyib” cümləsi isə simvolik xəbərdarlıqdır. Yəni cəmiyyət hələ də 27 oktyabrın yaratdığı mənəvi və siyasi fəsadlardan xilas olmayıb”.

Politoloq qeyd etdi ki, bu paylaşım həm də Paşinyan hakimiyyətinin mövcud kursunu haqlı göstərmək, keçmiş rejimləri isə Ermənistanın bugünkü tənəzzülünün səbəbkarı kimi təqdim etmək məqsədi daşıyır.

***Səxavət HƏMİD***
***XQ***



# Kreativ liderliyin İlham Əliyev nümunəsi: konseptual yanaşma

**III MƏQALƏ**

### Liderin özgüvəni

Tarix boyu liderin şəxsi keyfiyyətləri fəlsəfi və politoloji tədqiqatın aktual mövzularından olmuşdur. Müxtəlif liderologiya təlimlərində bu məsələyə əsas yer verilmişdir. Doğrudan da bütün hallarda liderlik onu həyata keçirən insanın fəaliyyət növüdür. Burada sosial-mədəni, tarixi, siyasi, geosiyasi və s. faktorlar, əlbəttə, liderliyə əhəmiyyətli təsir edə bilir. Lakin çox maraqlı və vacib olan faktor liderin şəxsi keyfiyyətləridir. Təcrübə göstərir ki, ən güclü dövlətin lideri belə şəxsi keyfiyyətlərində olan müsbət və mənfi xüsusiyyətləri dövləti idarəetmə üsuluna proyeksiya edir.

Liderlik baxımından problemin mühüm cəhətlərindən biri də bu özəlliklə bağlıdır. Məsələn, tədqiqatçılar R.Nikson və R.Reyqanın özlərini aşağı qiymətləndirmə xüsusiyyətlərinə malik olduqlarından hər qələbə əldə etdikdən sonra sübut etməyə çalışırdılar ki, nəyəsə qadirdilər. Hər maneəni aşmalarına sevinə bilmirdilər, öz əhəmiyyətliliklərini təsdiq etmək üçün yeni maneələri aşmağa can atırdılar.

Belə bir yanaşma mövcuddur ki, R.Nikson və R.Reyqan əzəldən Amerika siyasi isteblişmentinə aid şəxslər olmadıqlarından həmişə özlərini aşağılanmış hiss etmişlər. Lakin beynəlxalq miqyasda liderlər arasında onlara yüksək qiymət verilirdi. Çünki qüdrətli dövlətin rəhbərləri idilər. Buna baxmayaraq hər iki dövlət başçısı özlərini psixoloji təsdiq üçün xüsusi addımlar atmışlar.

Bəzən bu cür dərin psixoloji qatlarda özünə güvənsizlik liderin beynəlxalq miqyasda fəlakətli addımlar atmasına səbəb olur. Məsələn, R.Niksonun Koreya müharibəsinə başlaması buna nümunə ola bilər. 1974-cü ildə vaxtından əvvəl istefa verməsinin də əslində əsas səbəbi özünü aşağı qiymətləndirmədən qaynaqlanan demokratların seçki məntəqəsinə müdaxilə cəhdi olmuşdu (məşhur Uotergeyt qalmaqalı). Çünki heç bir özünə güvənən siyasətçi rəqibin işlərinə qanunsuz qarışmaz, ona əngəl olmağa çalışmaz. Koreya müharibəsi isə ABŞ cəmiyyətinin psixoloji durumu üçün ciddi faciələrə səbəb oldu. Hətta cəmiyyəti şokdan çıxarmaq üçün "posthəqiqət" anlayışına əsaslanan təlim yaratdılar.

Tədqiqatçılar İ.Stalin və N.Xuruşovda da özünü aşağı qiymətləndirmə psixoloji sindromu olduğundan yazırlar. Müasir erməni liderlərin hər birində bu mənfi xüsusiyyət mövcud olmuşdur. Onun son nümunəsi N.Paşinyandır. Ümumiyyətlə, siyasi elitaya aid olmayan adam kimi davranışlarında özünü aşağı qiymətləndirmədən qaynaqlanan çox zəif özgüvən sindromu açıq görünür. S.Sarkisyan və R.Koçaryan üçün də eyni neqativ keyfiyyət xarakterikdir. Azərbaycanda özünü aşağı qiymətləndirmə sindromu səbəbindən Ə.Elçibəy və A.Mütəllibov kritik zamanlarda qətiyyətli və inamlı addımlar ata bilmədilər.

### Liderliyə adekvatlılıq keyfiyyəti

Yuxarıdakı qısa müqayisələr belə liderin şəxsiyyəti baxımından maraqlı istiqamətlərə yönəldir. İndi elmdə bu aspekti də ciddi araşdırırlar. Məsələ onunla bağlıdır ki, lider aşağı özünüqiymətləndirməyə malikdirsə, qeyri-adekvatılılıq affektindən ciddi surətdə əziyyət çəkir. Bu hal bütövlükdə dövlətçilik üçün bir məqamda fəlakətə səbəb ola bilər. Çünki qeyri-adekvatlıqdan əziyyət çəkən liderlərin ürəkdən müsbət niyyətlə atdığı addımları belə toplumda neqativ qiymətləndirilirsə, onu mənəviyyatsızlıq və səriştəsizlikdə ittiham edirlərsə, dərhal psixoloji şoka düşür. Bu zaman onun emosional xarakterli hansı gedişi edəcəyi məlum olmur. Əksər hallarda onlar cəmiyyətdən (xalqdan, toplumdan) və ümumiyyətlə, dünyadan küsürlər. Bununla malik olduqları müsbət potensialı belə reallaşdıra bilmirlər. ABŞ prezidenti Lindon Conson Vyetnam savaşına görə belə bir vəziyyətə düşmüşdü. Postsovet məkanı ölkələrində də buna bənzər hadisələr mövcud olmuşdur. İndi Ermənistan siyasi elitası eyni əhvali-ruhiyyəni yaşayır.

Liderliyə adekvat olan şəxslər isə siyasi arenada ən yaxşı nümunə göstərirlər. Onlara etibar və etimad yüksək olur, əməkdaşlıq etmək üçün çalışırlar. Liderliyə özgüvənlə adekvat olan siyasətçilər qətiyyətli, inamlı və çevik qərarlar qəbul edirlər. Onlar hətta riskli addımlar ata bilirlər. Daxillərindəki özünəinam və yüksək qiymətləndirmə bu liderləri stimullaşdıra bilir. Bütün bunlara görə liderin özünü qiymətləndirməsi və özgüvəni sadə psixoloji məsələ deyil.

Onu vurğulayaq ki, elm tarixində şəxsiyyətin psixoloji təcrübəsi ilə liderliyi arasında əlaqəni geniş araşdırmışlar (Q.Lassuel, A.Corc və başqaları). Lakin bizi əsas olaraq müsbət mənada özgüvən və özünüqiymətləndirmə maraqlandırır.

### Heydər Əliyev: özgüvən nümunəsi

Azərbaycan Prezidenti İlham Əliyevin özgüvən və liderliyə adekvatlılıq keyfiyyətlərini gerçək dərk etmək üçün siyasi varislik kontekstində Ulu öndər Heydər Əliyevin zəngin və ibrətverici liderlik nümunəsinin bir aspektinə təkrar nəzər salmaq gərəkdir.

Heydər Əliyev nəinki postsovet məkanında, hətta dünya miqyasında yüksək liderlik psixoloji keyfiyyətlərinə malik olan böyük şəxsiyyət idi. Bu tezisi Ümummilli liderin müstəqil Azərbaycan Respublikası quruculuğu prosesində atdığı addımlar sübut edir. Biz imkan daxilində həmin addımların, kritik situasiyalarda alınan qərarların yalnız bir qisminə baxaq.

1993-cü ildə yenidən hakimiyyətə dəvət olunanda ölkə elə bir böhran vəziyyətində idi ki, Heydər Əliyev asanlıqla imtina edə bilərdi. Ulu öndər tam dərinliyinə və dəqiqliyinə qədər hansı riskə getdiyini anlayırdı. Azərbaycan və SSRİ siyasi elitasında xüsusi yeri və təcrübəsi olan qətiyyətli şəxsiyyət kimi Heydər Əliyev həmin ağır yükün məsuliyyətini üzərinə götürdü. Onu da deyək ki, həmin dönəmdə Azərbaycan rəhbərliyində olan dairələrin də Heydər Əliyevi yüksək qiymətləndirdiklərini deyə bilmirik. Amma bu münasibət güclü psixologiyaya və özünə inama malik Heydər Əliyev üçün nə psixoloji sindroma çevrildi, nə də özünə inamı zəiflətdi. Heydər Əliyev problemin üzərinə qətiyyət və güvənlə getdi.

Ancaq o dönəmdə hələ beynəlxalq dairələr Ulu öndərin tam potensialını və psixoloji, iradi dayanıqlılığını ya dərk etmirdilər, ya da onu aşmağı qarşılarına məqsəd qoymuşdular. "Əsrin müqaviləsi" buna görə onları şoka salmışdı. Dalbadal iki sui-qəsd cəhdinə baş vurdular. Onda Ulu öndərin lider kimi psioxoloji özgüvəni tam mənası ilə hər kəsə aydın oldu: ən kritik məqamda Heydər Əliyev Azərbaycan dövlətçiliyinə üstünlük verdi və özü həyatını riskə atdı - təyyarə ilə təcili Bakıya uçdu. Bu addımdan onu hətta ən yaxın dostu Süleyman Dəmirəl belə çəkindirə bilmədi! Heydər Əliyev gəldi, zəkası, iradəsi, siyasi qətiyyəti ilə qalib oldu! Buna bənzər Avrasiyada ikinci ldierlik qətiyyəti və özgüvəni nümunəsi yoxdur!

Başqa özgüvən nümunəsi Heydər Əliyevin atəşkəsə nail olması idi. Qısa zamanda ordunu toparlayıb, işğalçılara ciddi itkilər verdi. Azərbaycanın az da olsa ərazisinin bir qismini azad etdi. Düşmənin havadarı atəşkəs təklif edəndə, yaranmış vəziyyəti düzgün qiymətləndirib, razılaşdı. Yəni Heydər Əliyev R.Niokson, L.Conson və ya R.Reyqana xas olan psixoloji natamamlığa deyil, özünü yüksək qiymətləndirməyə əsaslanan, Azərbaycan siyasi isteblişmentinin birinci sırasında qərar tutan, özünə tam güvənən (burada xalqa güvənc ciddi rol oynayırdı) böyük Lider kimi təmkin, səbir və uzaqgörənliklə davrandı. Bizlər və dünyadakı bir çox özündənrazı siyasi dairələr bu addımın əsl mənasını əsas olaraq yalnız II Qarabağ müharibəsindən sonra anladıq.

Heydər Əliyevin yüksək özgüvənə sahib olmasını təsdiqləyən davranışlarından biri də enerji strategiyasını davamlı olaraq təmkinlə həyata keçirməsi ilə bağlıdır. Hətta Gürcüstan tərəfdən süni tələb irəli sürüləndə belə, Ulu öndər siyasi müdrikliyini, psixoloji dayanıqlığını və özünə inamı yüksək səviyyədə saxlayaraq həmin qondarma maneəni də qətiyyətlə aşdı. Bunun fonunda ordu quruculuğu, xarici siyasətdə müsbət nəticə verən addımların atılmasını və digər məqamları da vurğulamaq olar.

Onların sırasında Heydər Əliyevin lider kimi psixologiyasında özünəinam və qətiyyətin rəmzlərindən biri kimi B.Klinton və H.Kissincerlə görüşlərini xatırlada bilərik. B.Klinton ABŞ-ın prezidenti kimi Heydər Əliyevə təsir etməyə çalışdı, lakin qətiyyətli cavab aldı: "biz 907-ci düzəliş şəraitində yaşadıq və bundan sonra da yaşayacağıq"! Bakıda səfərdə olarkən buna bənzər cəhdi H.Kissincer də etmişdi, ancaq o da eyni qətiyyətlə rastlaşdı. Məlum Ki-Uest görüşü isə bu kontekstdə xüsusi bir nümunədir!

### İlham Əliyevin özgüvəni: siyasi varislik

Heç də bütün hallarda özünə güvənən və qətiyyətli olan lider varisinə həmin psixoloji keyfiyyəti ötürə bilmir. Hakimiyyəti ötürmək olar, siyasi kursun mahiyyətini də xələfə (bir şəxsin işini layiqli davam etdirən şəxs mənasında) tam anlatmaq mümkündür, lakin varislik çərçivəsində qətiyyət, özgüvən və digər psixoloji-iradi keyfiyyətlərin ötürülməsi hardasa imkansızdır.

Əgər liderliyi tədqiq edən analitik psixoloqların izahı prizmasında baxsaq, bunun kökü uşaqlıqda verilən tərbiyə və şəxsin həyat təcrübəsinə bağlıdır. Uşaqlıqdan insan özünə güvənclə, heç bir psixoloji travma almadan, aşağılayıcı özqiymətləndirməyə yuvarlanmadan böyüyürsə, onun liderliyi digərlərindən keyfiyyətcə fərqlənir. Ancaq vurğulanan keyifyyətləri ən kritik zamanlarda belə saxlaya bilən ailə mühiti olmalıdır.

Bizcə, Prezident İlham Əliyevin dövlət başçısı kimi fəaliyyəti onu sübut edir ki, Ulu öndər ailədə həmin müsbət auranı ən çətin zamanlarda belə saxlaya bilməsi ilə qalib gəlmişdir! Heydər Əliyev İlham Əliyev kimi övladın tərbiyəsində buna nail olmuşdur! İndi Prezidentdən fəxarətlə danışmağımızın psixoloji və mədəni, mənəvi. əxlaqi təməli həmin dönəmdə qoyulmuşdur!

Başqa müsbət dəyərlərlə yanaşı, İlham Əliyevin həmin şəxsi şüuri təcrübəsi, onun avtomatik olaraq Ulu öndərin malik olduğu qətiyyəti, özgüvəni, yüksək iradi keyfiyyəti siyasi varislik kontekstində əxz etməsinə geniş imkan yaratmışdır. Bu məsələdə şübhə etmirik ki, Ulu öndərin heç bir çətinliyi və problemi olmamışdır.

Prezident İlham Əliyevin təbiətən qətiyyətli və özünə güvənən şəxsiyyət olduğunu ən kritik məqamlarda davranışları sübut edir. İki nümunədə bunu aydın görmək mümkündür.

### Birinci nümunə: Vətən müharibəsi

İndi elə bir alim, filosof, analitik, politoloq və ekspert yoxdur ki, Prezident İlham Əliyevin II Qarabağ müharibəsinin gedişində davranışlarını təhlil etməsin və həmişə də nəticə eyni olur: İlham Əliyev yüksək zəkalı, uzargörən strateq, qətiyyətli, özünə tam əmin olan, lakin bir an belə ədalət və humanistlikdən uzaqlaşmayan uğurlu liderdir!

Bu qənaətə fəlsəfi, psixoloji, lideroloji, sosioloji, biologiya və kibernetikanın sintezində yaranan sosiologiya və başqa yanaşmalar çərçivəsində aparılan tədqiqatlarla gəlmək olar. İndi bədən hərəkətlərindən ümumi elmi-psixoloji nəticələr çıxarmaq üsulu geniş yayılmışdır.

N.Luman sosiologiyasının davamçıları biokibernetik sosiologiya adlanan postluman sosiologiyasında şəxsiyyətin psixoloji vəziyyəti ilə fəaliyyəti arasında münasibəti ifadə edən bədən hərəkətlərini modelləşdirməyə çalışırlar. İlham Əliyevin müharibənin gedişində etdiyi çıxışları və xüsusilə, jurnalistlərə verdiyi müsahibələrdəki bədən hərəkətləri Azərbaycan Prezidentinin qətiyyətli və özünə tam güvənən şəxsiyyət olduğunu əyani göstərmişdir! Bu qənaətə Azərbaycan liderinin psixoloji durumu ilə qətiyyəti və özünəinamı ifadə edən bədən hərəkətlərinin sintezində gəlinmişdir. Həmin baxımdan o hərəkətlərin elmi tədqiqi çox aktual vəzifələrdən biridir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Adam Şiff oğrudur!

## *ABŞ pezidenti ermənipərəst senatoru aşkar rüsvay etdi*

**Bu günləri onlar görməli və yaşamalı idilər. Söhbət son zamanlar ermənipərəst senatorlar və Konqres üzvlərindən gedir. Onlar layiq olduqları ağır günlərin "dadını çıxarırlar". Doğrudur, onların bəziləri artıq Femida tərəfindən ittiham olunaraq həbsxanaya salınıb, bəziləri isə məsuliyyətə cəlb olunub. İki gün əvvəl ABŞ Prezident Donald Tramp qlobal ermənilərin "parlaq" tərəfdarı kimi məşhurlaşmış kaliforniyalı senator Adam Şiffin əməllərini olduqca düzgün xarakterizə edərək onu "xəstə adam" adlandırıb.**

Ağ Ev rəhbəri bədnam senatora qarşı aparılan istintaqla bağlı yayılan son xəbərləri şərh edərkən deyib: "Adam Şiff siyasətdə indiyə qədər rastlaşdığım ən aşağı təbəqəyə malik individlərdən biridir. O, həm də qorxunc insandır... Düşünürəm ki, o, həqiqətən də xəstədir".

Oxuculara xatırladaq ki, Merilend ştatının böyük münsiflər heyəti senator Adam Şiffə qarşı iddia edilən ipoteka, bank və poçt fırıldaqçılığı, habelə maliyyə institutlarına verdiyi yalan ifadələrlə bağlı cinayət ittihamlarını nəzərdən keçirir. Ermənipərəst senatorun qanun pozuntuları Federal Mənzil Maliyyələşdirmə Agentliyi (FHFA) tərəfindən aşkar edilib. Senatorun vergi və ipoteka məqsədləri üçün həm Merilend ştatındakı əmlakını, həm də Kaliforniya kondominiumunu əsas iqamətgahı kimi iddia etdiyi mülkü müsadirə oluna bilər..

***

Yeri gəlmişkən, bu, prezident Donald Trampın demokrat senator haqqında ilk dəfə belə sərt danışması deyil. O, 2024-cü ilin fevral ayında "TruthSocial" sosial media platformasındakı bir yazısında Şiffi "şlaqbax və itirən" adlandıraraq onu əməlli-başlı təhqir etmişdi. Buna səbəb ermənipərəst senatorun 2019-cu ilin sentyabrında Trampı "vətənə xəyanətdə" ittiham etməsi olmuşdu. Daha sonra Şiff bu itihamla bağlı ABŞ Nümayəndələr Palatasında da çıxış etmişdi. O, Konqresə Trampın 2019-cu ilin iyulunda Ukrayna Prezidenti Vladimir Zelenski ilə "telefon danışığının məzmununu" təqdim etdi. Amma Ağ Ev rəhbəri konqresmenin onun sözlərini qəsdən təhrif etdiyini bildirmişdi.

Xatırladaq ki, Adam Şiff ABŞ liderini "Rusiya ilə gizli sövdələşmədə" günahlandırıb və Nümayəndələr Palatasının Kəşfiyyat Komitəsinin sədri kimi kəşfiyyat orqanlarının Trampın Zelenski ilə söhbəti ilə bağlı işçinin şikayətini araşdırdığı barədə ilk məlumat yayıb. Buna cavab olaraq Tramp tvitterdə Şiffin Konqresdəki dinləmələrdə özündən "saxta və dəhşətli" bəyanat uydurduğunu və bunu, guya, ABŞ prezidentinin Ukrayna prezidenti ilə telefon danışığında dediyi kimi qəbul etdiyini yazıb: "Bunun (bəyanatın – red.) telefon danışığı zamanı dediklərimlə heç bir əlaqəsi yox idi".

Ağ Ev rəhbəri öz paylaşımında ermənipərəst konqresmenin saxtakarlığını bir daha vurğulayaraq, onu Konqresdən getməyə çağırıb. Daha sonra bu zəmində Tramp və Şiff arasında münaqişə xeyli uzandı. İkinci dəfə prezident seçildikdən sonra, 2025-ci ilin iyulunda Donald Tramp ermənipərəst senatoru oğru adlandırdı və onu vergi saxtakarlığında ittiham etdi: "Adam Şiff oğrudur! O, buna görə cavab verməlidir, necə ki, onlar (demokratlar – red.) məni və bir çoxlarını məsuliyyətə cəlb etməyə çalışıblar. Yeganə fərq odur ki, biz tamamilə günahsız idik; hər şey uydurulmuş böyük bir mifdən ibarət idi". O, iddialarını təsdiqləməkdən ötrü sosial mediada sübut kimi vergi sənədlərini paylaşaraq, bu barədə "Truth Social"da yazıb.

ABŞ prezidenti, həmçinin Adam Şiffin kredit almaq üçün sənədləri saxtalaşdırdığına diqqət çəkərək, fırıldaqçılığına görə həbsxanaya getməli olduğunu vurğuladığı başqa bir yazı dərc edib və konqresmeni ipoteka fırıldaqçılığı sxeminə görə "fırıldaqçı" adlandırıb.

***

Bütün bu faktlar onu göstərir ki, hazırda Dairəvi kabinetdə oturan şəxsin əlində bu ermənipərəst konqresmenə qarşı kifayət qədər sübutları var. Bu isə Adam Şiffin də ABŞ-dakı erməni diasporunun anti-Azərbaycan "xorunda" solistlik edən həmkarı Bob Menendezlə eyni aqibətlə üzləşəcəyini deməyə əsas verir. Onun da Menendez kimi, ABŞ Konqresində erməni maraqları naminə lobbiçilik fəaliyyəti ilə bağlı kifayət qədər "təcrübəsi" var. Məsələn, hazırda məhkum həyatı yaşayan həmin Menendez son 20 ildən artıq bir müddətdə dəfələrlə Azərbaycan və Türkiyə əleyhinə bəyanatlar verib, Konqresdə və Senatda ölkəmizi ləkələmək məqsədi daşıyan dinləmələrə



müəlliflik edib. O, Senatın Xarici Əlaqələr Komitəsinin sədri olduğu müddətdə Bakıya qarşı sanksiyaların tətbiqi və "Azərbaycan təcavüzünə qarşı ermənilərə dəstək" haqqında ikitərəfli qanun layihəsinin müəllifi kimi də tanınır. Beləliklə, 2023-cü ilin sentyabrında Menendez onun və həyat yoldaşı, livanlı erməni əsilli Nadin Arslanyanın Nyu-Cersi ştatından üç iş adamı ilə korrupsioner sövdələşmələrdə iştirak etmələri və yüz minlərlə dollar rüşvət almaları, hətta xarici kəşfiyyata işləmələri ittihamları ilə mühakimə olundu.

2024-cü ildə Nyu-York məhkəməsi onu qəsb etməkdə, ədalət mühakiməsinə mane olmaqda, Misir və Qətərlə əlaqəsi olan iş adamlarına edilən xeyir-dualara görə rüşvət almaqda təqsirli bildi. Onun evində axtarış zamanı FTB agentləri təxminən yarım milyon dollar nağd pul, 150 min dollar dəyərində qızıl külçələr və dəbdəbəli "Mercedes-Benz" kabrioletini aşkar ediblər.

***

Bu ilin əvvəlində keçmiş demokrat senator 11 il həbs cəzasına məhkum edildi və məhkəmənin hökmü bu ilin iyun ayında qüvvəyə mindi. Menendezin erməni əsilli həyat yoldaşı da 4,5 il həbs cəzası aldı.

Qlobal ermənilərin Konqresdəki tərəfdarları arasında demokrat Frank Pallone də xüsusi "diqqətə və yerə" layiqdir. Bütövlükdə onun erməni lobbisinə verdiyi töhfələr bir qalın kitabın səhifələrini doldura bilərdi. Bu siyahıya ölkəmizə qarşı Qarabağda "etnik təmizləmə aparmaqda" ittihamları, Bakıya qarşı israrlı sanksiya çağırışları, Xankəndidəki separatçı rejimin "müstəqilliyinin tanınması" ilə bağlı qətnamənin qəbuluna cəhdlərin göstərilməsi də daxildir. Təbii ki, bu siyahıya onun COP29 ərəfəsində beynəlxalq ictimaiyyəti şiddətlə Azərbaycan paytaxtında keçirilən BMT-nin iqlim konfransını boykot etməyə çağırması, qarayaxma kampaniyasına başçılıq etməsini də əlavə etmək lazımdır.

Amma, atalar demişkən, nə tökərsən aşına, o da çıxar qaşığına. Yəni bumeranq qanunu heç vaxt ləğv olunmayıb və bu gün də öz effektini sübuta yetirir. Menendez kimi Şiff və Pallone də, qlobal erməni icmasının maraqlarının digər müdafiəçiləri, diasporun səxavətlə maliyyələşdirdiyi saxtakar korrupsionerlər layiq olduqları cazanı alacaqlar. Bu, həm də Ağ Ev rəhbərinin obyektivliyinin və ədalətə söykənən qətiyyətli kursunun qalibiyyəti sayılmalıdır. Ümid edirik ki, bugünədək erməni lobbisinin pulları ilə özlərinə hördükləri "çətir"in arxasında gizlənməyi bacaranların hamısı tezliklə eyni aqibəti yaşayacaqlar.

**P.S.** *Üç il bundan əvvəl internetdə yayılan xəbərlərdə deyilirdi ki, Adam Şiff məşhur rusofob Ceykob Şiffin nəvəsidir. Ceykob hələ çar Rusiyası dövründən ruslara qarşı mübarizə aparıb, bolşevikləri maliyyələşdirib, rus-yapon müharibəsində isə Yaponiyanı dəstəkləyib.*

***İ.HƏSƏNQALA***
***XQ***



# Vətən müharibəsində Qələbə hərb sənəti prizmasında

## Dünya Azərbaycanın çağdaş savaş təcrübəsini diqqətlə öyrənir

**Ordu dövlətin müdafiə funksiyasının həyata keçirilməsi üçün zəruri şərt olmaqla, hər bir ölkənin ərazi bütövlüyünün, suverenliyinin və müstəqilliyinin təminatçısıdır. Dövlətin mövcudluğu özündə ordunun da mövcudluğunu ehtiva edir. Ordu isə sadəcə, mövcudluq atributu kimi çıxış etməməli, ona qarşı qoyulmuş tələblərə cavab verməlidir.**

Ulu öndər Heydər Əliyevin 1993-cü ilin yayında yenidən hakimiyyətə qayıdışından sonra Silahlı Qüvvələrə diqqət və qayğı Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm, prioritet istiqamətlərindən birinə çevrildi. Onun Vətənin ağır günlərində yorulmaq bilmədən göstərdiyi fəaliyyət tədricən bəhrəsini verirdi. Ümummilli lider Heydər Əliyev mübarizlikdə, əyilməzlikdə ordu, əsgər və zabit üçün bir nümunə idi. O, Ali Baş Komandan kimi bu nümunəni sona qədər nümayiş etdirdi.

Prezident İlham Əliyev də başqa sahələrdə olduğu kimi ordu quruculuğunda da Heydər Əliyev həqiqətlərinə söykənir, ondan ilham alır, Ulu öndərin yolunu özü üçün işıq yolu hesab edirdi: “Müdriklik, mərdlik, güclü iradə, cəsarət – Azərbaycan xalqına xas olan bütün bu keyfiyyətlər Heydər Əliyevdə var idi... O, bir liderlik nümunəsi idi. Dəmir iradə nümunəsi idi... O, həmişə qalib gəlirdi. Heç kim və heç nə onu məğlub edə bilmədi. Qalib kimi yaşadı, öz xalqına xidmət etdi, qalib kimi də dünyadan getdi. Bizim vəzifəmiz, bizim borcumuz ondan ibarətdir ki, bu siyasəti davam etdirək... Azərbaycan dünyadakı mövqelərini daha da inamla möhkəmləndirəcəkdir. Biz öz doğma torpaqlarımızı işğalçı qüvvələrdən azad edəcəyik”.

İlham Əliyev hakimiyyətə gələnə kimi ordu quruculuğunda əhəmiyyətli işlər görülmüş, pərakəndə silahlı dəstələr ləğv edilərək, vahid komandanlığa tabe olan ordu formalaşdırılmış, imkan dərəcəsində ordunun maddi-texniki bazası yaradılmışdı. Ölkə prezidenti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı yenə də işıq yolu həqiqətlərinə istinad edir və münaqişənin həlli üçün yalnız bir istiqamətli deyil, müxtəlif istiqamətli fəaliyyət müəyyənləşdirir və həyata keçirirdi. Onun fəaliyyəti iqtisadiyyatın inkişafı, güclü ordu, dövlətlərarası əməkdaşlıq əsasında dünya miqyasında Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi, dost ölkələrlə, xüsusən Türkiyə Cümhuriyyəti ilə daha sıx münasibətlərin yaradılması, beynəlxalq təşkilatlarda, o cümlədən ATƏT-in Minsk qrupu çərçivəsində səmərəli irəliləyiş, ölkə daxilində birlik və vətənpərvərlik hissini artırmaqla müharibəyə hazır olmağı əhatə edirdi.

XXI əsrin birinci onilliyində Azərbaycan dövləti artıq bölgədə siyasi və iqtisadi sahələrlə yanaşı, hərbi sahədə də qüvvələr nisbətini öz xeyrinə dəyişməyə nail olmuşdu. Əslində, bu dəyişiklik Ermənistan tərəfini düşünməyə və konstruktiv olmağa vadar etməli idi.

Ordunun qalibiyyəti əsgər və zabitlərdə ruh yüksəkliyinin, döyüş əzminin, torpaqları azad etmək təşnəsinin olmasını tələb edirdi. Prezident cəbhə bölgəsində əsgərlərlə, zabitlərlə təmasda olanda bu ruh yüksəkliyini görərək, qeyd edirdi: “İndi Azərbaycan Ordusu bu bölgədə ən güclü ordudur. Son illər ərzində biz ordumuzu həm peşəkarlıq, hazırlıq, həm də avadanlıq, texnika, silah-sursat baxımından xeyli dərəcədə gücləndirmişik. Mən bütün bölgələrdə təmas xəttində olmuşam. Aprel ayında Füzuli rayonunda, ondan əvvəl Ağdam, Tərtər istiqamətlərində səngərlərdə əsgərlərlə görüşmüşəm və bir daha gördüm ki, gənc əsgərlərimizdə çox böyük ruh yüksəkliyi var”.

Azərbaycan xalqı Ali Baş Komandanın başçılığı altında 2020-ci ilin 27 sentyabr tarixində Ermənistanın yeni təcavüzünə qarşı Zəfər yürüşünə başladı. Həmin günlərdə İlham Əliyevin döyüş meydanında baş verənlərə münasibəti hərbi-strateji və taktiki xarakter daşıyırdı. Çünki məqsəd Vətən torpaqlarının bütövlükdə və tamamilə işğaldan azad edilməsi idi. Prezident İlham Əliyev “status-kvo”, “təmas xətti” məfhumlarını “Vətən torpaqlarının işğaldan azad olunması”, “ərazi bütövlüyünün təmin olunması” ifadələri ilə əvəz etdi, artıq Azərbaycan sərhədləri çərçivəsində hər hansı bir xətdən söhbət getməməli idi, Vətənin hər bir qarış torpağı azad olunmalı idi.

Hər fəaliyyət sahəsi kimi hərbi işin də özünəməxsus cəhətləri vardır. Hərbi işdə əksər hallarda qərar birdəfəlik qəbul olunmur. Hər bir qərarın qəbul olunması üçün ilkin olaraq böyük düşüncə işi aparılır. Burada təkcə yüksəkliyi, şəhəri almaq, düşmənin cəbhəsini yarmaq barədə qənaətə gəlmək kifayət etmir. Burada, həmçinin sərkərdənin hansı miqyaslı olması və onun hansı qərarı qəbul etməsindən asılı olaraq, onlarla və ya minlərlə adamı hansı istiqamətdən, nə vaxt, hansı silahlarla döyüşə göndərmək, onların həyatına, tapşırığın uğurlu həllinə, əməliyyatın düzgün planlaşdırılmasına görə məsuliyyət hissi də təzahür edir.

Ali Baş Komandan Prezident İlham Əliyev də Azərbaycan Ordusunun döyüş meydanındakı əməliyyatlarına rəhbərlik edir, ordunun hansı istiqamətlərdə, nə vaxt və necə əməliyyat keçirəcəyini, bundan əldə olunacaq faydaları ölçüb-biçir, qoşun və birləşmələr arasında əlaqənin təmininə nəzarət edirdi. Kəşfiyyat xəbərlərinin və cəbhələrdə cari vəziyyətə dair toplanmış məlumatların saf-çürük edilməsi, buna müvafiq olaraq əməli təklif və sərəncamların, gələcək əməliyyat planlarının hazırlanması, cəbhənin silah, döyüş sursatı və digər maddi vasitələrlə təmin olunması, ehtiyat qüvvələrinin yaradılması – bütün bunlar İlham Əliyevin nəzarətində olmaqla döyüş meydanlarında uğurun əldə edilməsi üçün mühüm əhəmiyyət kəsb edirdi.

Dövlətimizin başçısı İlham Əliyev 15 oktyabr 2020-ci il tarixində Türkiyənin NTV televiziyasına müsahibəsində deyirdi: “Biz əsas əməliyyatları indi şimal, cənub istiqamətlərində aparırıq. Bildiyiniz kimi, Cəbrayıl şəhərinin işğaldan azad edilməsi çox uğurlu əməliyyat nəticəsində baş vermişdir. Cəbrayıl rayonunun kəndlərinin böyük qismi artıq bizdədir. ...biz əməliyyatımızı tədricən, vahid bir planlama əsasında aparırıq. Bütün hədəflər seçilib”.

Prezident İlham Əliyev Azərbaycan ərazilərini güc tətbiq etmək yolu ilə azad etməyə hazırlaşarkən özü də hərb sənətinin incəliklərinə bələd olmuş və sərkərdəlik məharətlərinə, hərb sənətinin sirlərinə yiyələnmişdi. O, öz qoşunlarının hərəkətini istiqamətləndirməyi, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinə nail olmağı bacarırdı.

Dövlət başçısının rəhbərliyi ilə aparılan döyüşlər hərbi üstünlüklər əldə etmək, işğal altında olan torpaqları oba-oba, kənd-kənd azad etməklə bərabər, həm də siyasi əhəmiyyətə malik idi. Bu döyüşlər erməni silahlı qüvvələrini “cəzalandırmaqla”, onlara “öz yerlərini göstərməklə” yanaşı, Ermənistanı danışıqlar prosesinə, həm də Azərbaycan üçün sərfəli olan şərtlərlə danışıqlar prosesinə başlamağa məcbur edirdi. Azərbaycan Ordusu milli vahidliyin bəhrəsini görür, bu birlik daha da möhkəmlənir, Azərbaycan əsgəri qürur və məmnunluq hissləri yaşayırdı.

İşğalçı Ermənistan uzun illər ərzində işğal olunmuş ərazilərdə istehkamlar, səngərlər yaradaraq məlumatları gizli saxlayaraq, hücum əməliyyatlarının həyata keçirilməsini daha da çətinləşdirirdi. Buna baxmayaraq, Azərbaycan Ordusu peşəkarlığı, hazırlığı, əzmkarlığı və mənəvi ruh yüksəkliyinə görə fərqlənirdi. Müasir müharibənin taleyi qədim zamanlardakı kimi döyüşdə iştirak edən adamların sayı ilə deyil, əsgər və zabitlərin döyüş hazırlığı, müasir texnika, silahlara malikolma və onlardan istifadə etmək bacarığı ilə müəyyən edilirdi.

Ordunun əsgərləri üçün silahdan əlavə, onların cəhdlərini gücləndirən, fəallıqlarını yüksəldən və onları nəzərdə tutulan məqsədə aparan mənəvi stimullar da zəruridir. Ali Baş Komandan İlham Əliyev müharibə döyüşçülərinin igidlik və mərdliklərini yüksək qiymətləndirir, onlara olan inamından güc və qüvvət alırdı.

Çünki vətənini, torpağını böyük məhəbbətlə sevən, işğal altında olarkən dağıdılmış şəhər və kəndlərin vəziyyətinə görə düşmənə dərin nifrət bəsləyən sadə Azərbaycan əsgər və zabiti tarix yazırdı. Onlar özlərinin Vətən, xalq qarşısında borclarını sadəcə yerinə yetirmir, həm də bu borcu cəsarətlə, mərdliklə, düşmənə ağır zərbələr endirməklə edirdilər. Ölmək lazım gələndə isə onlar müdhiş ölümün üzünə mərdi-mərdanə, dik baxırdılar. Həlak olanların dostları isə döyüş yoldaşlarının həlak olmasından kədərlənərək, döyüşü daha da qəhrəmanlıqla davam etdirir, öz borclarını mərdliklə yerinə yetirirdilər.

Döyüşün Vətən torpağının azad olunması ilə nəticələnməsi isə azadlıq mübarizlərinə yeni ruh, güc və təpər verdi. Prezident İlham Əliyevin Vətən müharibəsi günlərində nə qədər zəhmətə qatlaşdığı göz qabağında idi. Bu zəhmət çoxtərəfli fəaliyyəti əhatə edirdi. Lakin əsas və vacib olan o idi ki, onun zəhməti öz bəhrəsini verirdi. Müharibə günlərində onun fəaliyyəti çox geniş dairəni əhatə edirdi. Dinc vaxtda silahlı qüvvələrin hazırlığı, təchizatı, təlim prosesi, əsgər və zabitlərin yaşayış şəraiti ilə bağlı, müharibənin gedişində isə ordudan düzgün istifadə olunması, hücum əməliyyatlarının hazırlanması və həyata keçirilməsi ilə bağlı bütün məsuliyyəti Ali Baş Komandan öz üzərinə götürür, Ordu rəhbərləri ilə birlikdə hərbi əməliyyatların uğurlu keçməsinə öz töhfə və dəstəyini verirdi.

Müzəffər Ali Baş Komandan İlham Əliyev 2021-ci il mart ayının 15-də Qarabağa növbəti səfəri zamanı Azərbaycan əsgərinin mənəvi keyfiyyətlərindən söhbət açarkən deyirdi: “Dağıdılmış Füzuli şəhərindən keçərkən bir daha gördüm ki, erməni vəhşiliyi hansı fəlakət törədib. Bu gün onları müdafiə edən, bu gün onların arxasında dayanan bəzi xarici dairələr gözlərini açıb görsünlər erməni vəhşiliyi nə günə salıb bizim şəhərlərimizi. Bizim bütün şəhərlərimiz dağıdılıb, bütün kəndlərimiz dağıdılıb, tarixi abidələr dağıdılıb, məscidlər dağıdılıb, qəbirlər dağıdılıb, misli görünməmiş vandallıq, barbarlıq törədilib. Biz isə ancaq öz torpaqlarımızı azad etmişik. Bax, bu qəsəbədə qanunsuz olaraq Ermənistandan və xarici ölkələrdən ermənilər gətirilib zorla məskunlaşdırılıb. Amma bu qəsəbə salamatdır, bir bina da dağıdılmayıb, bir bina da yandırılmayıb. Budur, Azərbaycan Ordusunun yanaşması, budur, bizim mənəvi kodeksimiz. Ermənilər nə ediblər? Bütün binalarımızı dağıdıblar, məscidlərimizi dağıdıblar… Bax, fərq bundadır. Azərbaycan əsgəri yüksək mənəvi keyfiyyətlərə malik olan əsgərdir və əsgərə, bütün hərbçilərə verilən təlimat yerinə yetirildi. Mən demişdim ki, biz mülki əhali ilə heç vaxt müharibə aparmamışıq və bunu indi hər kəs görür”.

44 günlük müharibə dövründə Azərbaycan ordusu Ermənistanın təxribatlarına yalnız adekvat cavab vermis, nəticədə beynəlxalq səviyyədə Azərbaycan torpaqları kimi tanınan əraziləri azad etmişdi. Azərbaycan Ordusu yüksək səviyyəli döyüş bacarığını və potensialını nümayiş etdirərək Ermənistanı döyüş meydanında məğlub etmiş, onları işğal etdikləri torpaqlardan qaçmaq məcburiyyətində qoymuşdu. Bu, hərb sənətinə yiyələnmənin, onun incəliklərindən məharətlə istifadə etmənin bariz nümunəsi, əyani təcəssümü idi.

***Vəfaddin İBAYEV,***
***Hüquq və İnsan Haqları İnstitutu publik hüquqi şəxsin İdarə Heyəti sədrinin müavini, hüquq üzrə fəlsəfə doktoru***

*2025 – Konstitusiya və Suverenlik İli*

# Əsas Qanunumuz – istiqlalımızın ali hüquqi sənədi




**Bu il noyabrın 12-si Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 30-cu ildönümü tamam olacaq. 44 günlük şanlı Vətən müharibəsində qələbəmizdən isə artıq 5 ilə yaxın bir vaxt keçir. Prezident İlham Əliyev bu iki əlamətdar hadisəni nəzərə alaraq, 2025-ci ili “Konstitusiya və Suverenlik İli” elan etmişdir.**

Bu günlərdə **Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) Quba filialının baş müəllimi, ötən illərdə Quba Heydər Əliyev Mərkəzinə rəhbərlik etmiş Elza Orucova** ilə xalqımızın azadlıq ideallarının və ərazi bütövlüyünün rəmzləri olan bu əlamətdar hadisələrin milli dövlətçilik qurucuğuluna verdiyi töhfələr barədə söhbət etmişik. Söhbətin əsas məqamlarını oxucuların diqqətinə çatdırırıq.

***– Elza xanım, hər bir millət, toplum üçün istiqlala qovuşmaq böyük səadətdir. Müstəqil Azərbaycanın azadlığının, milli kimliyinin pasportu olan Konstitusiyamızın hazırlanması, ümumxalq müzakirəsi və referendum yolu ilə qəbulu prosesini necə xatırlayırsınız?***

– Hər şey sanki bu gün baş verirmiş kimi gözlərim önündədir. Mən Azərbaycan vətəndaşı olaraq bu qürurverici prosesin fəal iştirakçısı olmuşam və ömrüm boyu bununla fəxr edəcəyəm.

Azərbaycan xalqı yüzillər boyu bəşəri, humanist, eyni zamanda milli-mənəvi, əxlaqi dəyərlərə əsaslanan sivil cəmiyyət qurmaq arzusu ilə yaşayıb. 1918-ci il mayın 28-də AXC liderləri müsəlman Şərqində ilk dəfə azad, demokratik cümhuriyyət yaratdıqlarını bəyan etdilər. Təəssüf ki, tarixdə silinməz izlər qoyan cümhuriyyət cəmi 23 ay yaşaya bildi.

Sonra 71 il əvvəlcə bolşevik Rusiyası, ardınca Sovet İttifaqının tərkibində yaşamalı olmuşuq. Qeyd etmək lazımdır ki, Kremlin bizi milli kökümüzdən ayrı salmaq, azadlıq duyğumuzu məhv etmək cəhdlərinə baxmayaraq, xalqımız tarixin ən agır, gərgin dönəmlərində belə dilini, ədəbiyyatını, tarixi yaddaşını, bir sözlə, milli kimliyini qoruyub saxlamış, istiqlal ideallarına daim sadiq qalmışdır.

1991-ci il oktyabrın 18-də Azərbaycan öz müstəqliyini bərpa etdiyini elan edəndə, bir sıra “qara qüvvələr” ölkəmizi içərindən dağıtmağa, vətəndaş müharibəsinə sürükləməyə cəhd etdilər. Təəssüf ki, qısa müddətdən sonra respublikamızın ictimai-siyasi həyatında yaranmış xaos və özbaşınalıqdan istifadə edərək ermənilər doğma torpaqlarımızın bir hissəsini ələ keçirdilər.

Azərbaycan, həqiqətən, məhv olmaq, çağdaş dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Xoşbəxtlikdən Vətəni canından çox sevən, bütün şüurlu həyatını ölkəmizin inkişaf və tərəqqisinə həsr edən dahi siyasətçi Heydər Əliyev Vətənimizin ən çətin, taleyüklü məqamında böyük xilaskarlıq missiyasını öz üzərinə götürdü və bunu qeyri-adi bir məharətlə yerinə yetirdi. Ulu öndərin titanik səyləri sayəsində ölkəmizdə cərəyan edən təhlükəli proseslərin qarşısı alındı, ictimai-siyasi sabitlik təmin edildi və müasir dövlət quruculuğu üçün etibarlı zəmin yarandı. Azərbaycanın ən yeni tarixində yeni era – milli dövlətçilik quruculuğu dövrü başlandı.

***– Xalqımızın fəxrlə Heydər Əliyev Konstitusiyası adlandırdığı Əsas Qanunumuzun qəbul edilməsi hansı tarixi zərurətdən yaranmışdı?***

– Ölkəmizdə sabitlik və qanunçuluq bərpa olunandan sonra müstəqil Azərbaycanın ən əsas dövlət atributlarından biri sayılan Konstitusiyasının hazırlanması və qəbul edilməsinə böyük ehtiyac meydana çıxmışdı.

Ulu öndərin təşəbbüsü və rəhbərliiyi ilə Azərbaycan Respublikasının ilk Konstitusiyası hazırlanaraq 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Bu, sivil dünya tarixində bu vaxta qədər qəbul edilmiş ən mükəmməl konstitusiyalardan biridir. Əsas Qanunumuz ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatlar üçün geniş imkanlar açdı. Xalqımız bu tarixi sənədi haqlı olaraq Heydər Əliyev Konstitusiyası adlandırdı.

Azərbaycan Konstitusiyası tarixi reallıqlar, sivil dünya dövlətlərinin ən qabaqcıl təcrübəsi nəzərə alınaraq qəbul edilmişdir. Əsas Qanunumuz tamamilə funksionaldır, işləkdir, daim fəaliyyətdədir. Bu mühüm sənəd dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır.

Son 22 ildə isə Ulu öndərin ən layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin müdrik liderliyi ilə ölkəmizdə ictimai-siyasi, iqtisadi həyatın bütün sahələrində, eləcə də ordu quruculuğunda olduqca böyük əhəmiyyəti olan davamlı işlər görüldü. Dövlətimizin başçısı dəfələrlə ən nüfuzlu tribunalardan bəyan etdi ki, Azərbaycan xalqı heç vaxt tarixi torpaqlarının işğalı faktı ilə barışmayacaq.

Həqiqətən, 2020-ci il sentyabrın 27-də Ermənistan Silahlı Qüvvələrinin növbəti təxribatlarına cavab olaraq Milli Ordumuz doğma torpaqlarımızın düşməndən azad olunması naminə genişmiqyaslı hərbi əməliyyata başladı. Bu, milli qeyrət və şərəf savaşı idi. Azərbaycan igid, qeyrətli əsgər və zabitləri bu ölüm-dirim, şərəf davasından qalib çıxdılar. Düşmən təslim edildi.

2023-cü il sentyabrın 20-də Azərbaycan lokal antiterror əməliyyatı keçirərək özünün bütün ərazisində suveren hüquqlarını təmin etdi. Son 200 ildə heç bir xalqa öz torpaqlarını böyük imperiyaların caynaqlarından xilas edərək belə bir parlaq uğur qazanmaq nəsib olmamışdır. Dünyanın gözü qarşısında müzəffər Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin liderliyilə rəşadətli Milli Ordumuz çağdaş dünya tarixinə əbədi iz qoyan Zəfər tarixi yazdı.

Azərbaycanın suverenliyi əbədi və dönməzdir. Azərbaycan xalqı özünün ən böyük milli sərvəti olan istiqlalını göz bəbəyi kimi qorumağa hazırdır. Bu gün dünyada elə bir qüvvə yoxdur ki, bizim azadlığımıza və suverenliyimizə qarşı çıxa bilsin. Qərinələr, əsrlər keçəcək, Azərbaycanın dövlət suverenliyi daim güclənəcək və Azərbaycanın Suverenliyi Günü – 20 Sentyabr xalqımızın əbədi qürur mənbəyi olaraq yaşayacaq.

***– Sizin doğulub boya-başa çatdığınız və uzun illər rəhbər vəzifələrdə çalışdığınız Quba rayonu öz etnik tərkibinə görə rəngarəngdir. Burada yaşayan xalqlar Konstitusiyamızın onlara verdiyi hüquq və azadlıqlardan bəhrələnə bilirlərmi?***

– Bilirsinizmi, bu, yaxşı sualdır. Bu sualı sizdən gözləyirdim. Həqiqətən, Quba rayonunda, bütövlükdə ölkəmizin şimal bölgəsində tarixən çox sayda millət və xalqların, etnik qrupların nümayəndələri azad, sərbəst, mehriban dostluq şəraitində yaşayıb–yaradıblar.

Azərbaycan Konstitusiyası milli və dini mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin hər bir vətəndaşının hüquq və azadlıqlarını qorunmasını təmin edən mühüm sənəddir. Azərbaycandakı bütün xalqların təmsilçiləri bu hüquqlardan sərbəst şəkildə faydalanmaq imkanlarına malikdirlər.

Eyni zamanda, onlar torpaq, Vətən qarşısında öz vəzifələrini də yaxşı anlayırlar. Xatırladaq ki, Birinci və İkinci Qarabağ müharibələrində ölkəmizdə məskunlaşan ən müxtəlif xalqların nümayəndələri fəal iştirak ediblər və bundan haqlı olaraq qürur duyurlar. Bəli, bu gün müstəqil Azərbaycan multikultural dəyərlər ölkəsidir. Düşünürəm ki, ölkəmizin sarsılmaz gücü və qüdrəti məhz bundadır. Biz birlikdə güclüyük! Heç bir xarici və daxili düşmən xalqlarımız arasında nifaq toxumu səpə bilməz.

***– Siz son illər ADPU-nun Quba filialında pedaqoq kimi çalışırsınız. Tələbələrinizlə, təbii ki, sıx ünsiyyətdəsiniz. Necə düşünürsünüz, müasir Azərbaycan gəncliyi Konstitusiyamızın məğzini, ruhunu hiss edib duya bilirmi?***

– Cavabım birmənalıdır: bəli! Azərbaycan gəncliyi azad, suveren məmləkətin vətəndaşları olmaqdan sonsuz qürur duyurlar. Eyni zamanda, gənclərimiz başa düşürlər ki, bu gün Vətəni təkcə sözdə sevmək azdır, Vətənin inkişafı, daha da güclü və qüdrətli olması üçün hər kəs əlindən gələni etməlidir. Gəncliyin ən ümdə və ülvi vəzifəsi azadlığımızın, istiqlalımızın əbədi olmasına, möhkəmlənməsinə əməli töhfə verməkdir.

Mən uzun illər Quba rayonunda partiya və sovet orqanlarında rəhbər vəzifələrdə çalışmışam. Yeni Azərbaycan Partiyasının Quba rayon təşkilatının formalaşması prosesinin fəal iştirakçısı olmuşam. Ulu öndər Heydər Əliyev ideyalarının təbliği və təşviqi üçün bu gün də əlimdən gələni edirəm. Həyatımın ən xoşbəxt anlarından birini 2023-cü ilin sonrında yaşamışam. Belə ki, Ulu öndərin anadan olmasının 100 illiyi ilə əlaqədar “Heydər Əliyev–100” xatirə medalına layiq görülmüşəm. Bu, həyatda qazandığım ən yüksək mükafatdır!

Son illər əmək fəaliyyətimi bir pedaqoq kimi davam etdiririrəm. Sevimli tələbələrimlə, demək olar ki, hər gün görüşürəm. Xalqımızın gələcəyi olan gənc oğlan və qızlarla apardığım söhbət və müzakirələrdən gəldiyim əsas qənaət isə budur ki, gənclərimiz istedadlı və zəkalıdırlar, ölkəmizdə və dünyada baş verən ictimai-siyasi proseslərə düzgün reaksiya verə bilirlər.

Tələbələrlə söhbət zamanı bir qayda olaraq qeyd edirəm ki, azadlığımızı, suverenliyimizi qoruyub gələcək nəsillərə ötürmək üçün biz bundan sonra da güclü olmalıyıq. Azərbaycan xalqı istiqlal bayrağını başı üzərinə qaldırmaqla, ərazi bütövlüyünü, suverenliyini tam təmin etməklə milli şərəf və ləyaqətini qoruya bilmişdir. Biz gələcəkdə yeni-yeni uğurlar qazanacaq, uca zirvələr fəth edəcəyik!

Sonda milli istiqlalımızla bağlı ürək sözlərimi tanınmış şair Ramiz Qusarçaylının dərin mənalı misraları ilə bitirmək istəyirəm:

***44 günlük Zəfər mənzərələri,***
***Qalibiyyət, hünər mənzərələri,***
***Bu, film deyildi,***
***Bu, Qarabağda***
***Vətən qovğasıydı,***
***Vətən qalıydı,***
***Şanlı müharibə ssenarisi –***
***Möhtəşəm Qələbə serialıydı!***

***Söhbəti yazdı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

# İslam maliyyəsi – halal dəstək




**Bakıda II “İslam Maliyyə Forumu-2025” forumu keçirilib. İqtisadi Resursların Öyrənilməsi İctimai Birliyinin təşəbbüsü və Azərbaycan Dövlət İqtisad Universitetinin dəstəyi ilə təşkil edilən toplantının birgə tərəfdaşları Azərbaycan Respublikası Mərkəzi Bankı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi, Türkiyə Katılım Bankalar Birliyi, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Mikromaliyyə Assosiasiyası, UNEC İslam İqtisadiyyatı və Maliyyəsi Tədqiqat Mərkəzi, MÜSİAD Azərbaycan olub.**

“Hazel” şirkətinin sponsorluq etdiyi forum Dövlət himninin səsləndirilməsi və müqəddəs Qurani-Kərimin tilavəti ilə başlanıb. Toplantıda Azərbaycan Dövlət İqtisad Universitetinin tələbələrlə iş üzrə prorektoru iqtisad elmləri namizədi, dosent Səadət Qəndilova, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı, Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev, Milli Məclisin deputatı Ceyhun Məmmədov, Mərkəzi Bankın Maliyyə sektorunun dayanıqlı inkişafı departamentinin direktoru Rüstəm Tahirov, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, Türkiyə Respublikası Prezidenti Aparatı Yatırım və Maliyyə Ofisi dairəsi müdiri Tarık Akın, Azərbaycan Mikromaliyyə Assosiasiyasının icraçı direktoru Jalə Hacıyeva və İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri, iqtisad üzrə fəlsəfə doktoru Ruslan Atakişiyev çıxış ediblər.

Məruzəçilər forumu İslam maliyyəsi sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, “yaşıl” sərmayənin təşviqi və Azərbaycanda İslam maliyyə mexanizmlərinin inkişafına dair yeni təşəbbüslərin müzakirəsi baxımından mühüm platforma rolunu oynadığını vurğulayıblar.

Birinci sessiya “Azərbaycanda İslam maliyyəsinin müasir çağırışları” mövzusuna həsr olunub. Ruslan Atakişiyevin moderatorluq etdiyi sessisyada spikerlər iqtisad elmləri doktoru, professor Zahid Məmmədov “İslam sərmayəsinin inkişafının əsas istiqamətləri: Qlobal çağırışlar və Azərbaycan üçün yeni imkanlar”, Tarık Akın “Türkiyə və Azərbaycan arasında İslam maliyyəsi sahəsində birgə əməkdaşlığın genişləndirilməsi” və Gürkan Yılmaz “İslam bankçılığında Türkiyə təcrübəsi” mövzularında çıxış ediblər.

Forumun “İslam ölkələrinin iqtisadi resursları” adlı sessiyasına isə Aqil Əsədov moderatorluq edib. İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri Ruslan Atakişiyev çıxış edərək “Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsinə “yaşıl sərmayə”nin cəlbi” layihəsinin icrası çərçivəsində Dubay, Manama və İstanbulda keçirilmiş görüşlər haqqında məlumat verib.

Təqdimat zamanı Qarabağ və Şərqi Zəngəzurun ekoloji dayanıqlı iqtisadi inkişafı, “yaşıl enerji” və innovativ sərmayə layihələrinin bölgənin gələcək inkişaf strategiyasında mühüm yer tutduğu vurğulanıb.

### *Ekspert rəyi*



**Jalə HACIYEVA,**
**Azərbaycan Mikromaliyyə Assosiasiyasının direktoru**

Ölkəmizdə İslam maliyyəsinin prinsiplərinə əsaslanan etik və ədalətli maliyyə sisteminə maraq getdikcə artır. Hazırda Azərbaycan özünün iqtisadiyyatında şaxələndirməyə, sosial bərabərliyə və dayanıqlılığa yönəlmiş bir yol seçib. Düşünürəm ki, bu dəyərlər İslam maliyyəsinin əsas prinsipləri sayılan riskin ədalətli bölüşdürülməsi, real aktivlərə əsaslanan əməliyyatlar və faizsiz, məsuliyyətli maliyyə alətləri ilə üst-üstə düşür.

İslam maliyyəsinin prinsipləri müştəri etimadını artırmaqla yanaşı, maliyyə institutlarını da onun uğrunda maraqlı tərəfə çevirir. Hələ 2010-cu ildə Azərbaycan Mikromaliyyə Assosiasiyası üzv təşkilatları arasında apardığı müşahidələr əsasında İslam maliyyəsinə marağın güclü olduğuna tam əmin olub. Belə ki, Həcc ziyarətindən qayıdan bir çox müştəri ənənəvi kreditlərin dini inanclarla uyğun gəlmədiyini əsas gətirərək bu xidmətlərdən imtina edib. Sürətli bazar qiymətləndirilməsi nəticəsində məlum olub ki, Azərbaycanın mikromaliyyə bazarının, təxminən, 17–25 faizi İslam mikromaliyyə məhsulları mövcud olduğu halda onlara üstünlük verərdi.

Assosiasiyamızın fəaliyyətinin əsas məqsədi imkanları məhdud olan insanların iqtisadi müstəqilliyini təmin etmək və layiqli gəlir imkanları yaratmaqdır. İslam maliyyəsinin prinsipləri bu missiyanın təbii davamıdır. Çünki burada həm etik davranış, həm də sosial məsuliyyət vacibdir. İslam maliyyəsi yalnız dini deyil, sosial-iqtisadi baxımdan da inkişaf modelidir. Eyni zamanda, bu, təkcə maliyyə modeli deyil, həm də ədalətə, paylaşmaya və məsuliyyətə əsaslanan bir həyat fəlsəfəsidir.

Əminəm ki, Bakıda keçirilən II “İslam Maliyyə Forumu-2025” forumunun nəticələri Azərbaycanda və regionda etik, inklüziv və dayanıqlı maliyyə sisteminin formalaşmasına yeni təkan verəcək.

# Heydər Əliyev Beynəlxalq Hava Limanının “yaşıl” uğuru




**Heydər Əliyev Beynəlxalq Aeroportu qlobal Hava Limanı Karbon akkreditasiyası proqramı çərçivəsində 3-cü səviyyə üzrə qeydiyyat əldə edib. Bu barədə aeroportun mətbuat xidməti məlumat yayıb.**

Bildirilib ki, bu nailiyyət hava limanının karbon emissiyalarının idarə edilməsi, azaldılması və tərəfdaşlarla birgə fəaliyyət çərçivəsində davamlı nəticələr əldə etməsi baxımından beynəlxalq səviyyədə tanınmasını ifadə edir. Karbon akkreditasiyası proqramı Beynəlxalq Hava Limanları Şurası tərəfindən təsis edilmiş və hava limanlarının karbon emissiyalarının idarə olunması üzrə fəaliyyətini qiymətləndirən yeganə beynəlxalq akkreditasiya sistemidir. Proqram müstəqil auditlər əsasında həyata keçirilir və hava limanlarının enerji səmərəliliyi, əməliyyat məsuliyyəti və emissiya azaldılması üzrə nəticələrini təsdiqləyir.

Heydər Əliyev Beynəlxalq Aeroportu bu uğuru “Yaşıl Hava Limanı” təşəbbüsləri və beynəlxalq standartlara əsaslanan Ətraf Mühit və Enerji İdarəetmə sistemlərinin tətbiqi ilə möhkəmləndirib. Hava limanı artıq “ISO 14001:2015” (Ətraf Mühitin İdarəolunması Sistemi) və “ISO 50001: 2018” (Enerji İdarəetmə Sistemi) üzrə beynəlxalq sertifikatlara sahibdir. Bu, ekoloji məsuliyyətin institusional səviyyədə təmin edildiyini göstərir.

Heydər Əliyev Beynəlxalq Aeroportunun direktoru Teymur Həsənov bu barədə deyib: “Bu uğur təkcə texniki mərhələ deyil, daha məsuliyyətli və dayanıqlı hava limanı modeli yaratmaq yolunda strateji addımdır. Biz dayanıqlığı artıq hesabat göstəricisi kimi deyil, fəaliyyət fəlsəfəsi kimi qəbul edirik. Hər bir əməliyyat qərarımızın mərkəzində enerji səmərəliliyi və ekoloji məsuliyyət prinsipləri dayanır”.

“ACI EUROPE”un baş direktoru Olivye Yankovets isə qeyd edib: “Heydər Əliyev Beynəlxalq Aeroportunu hava limanları üçün qlobal karbon idarəçiliyi proqramına qoşulduqdan cəmi bir il sonra 3-cü səviyyəyə yüksəlməsi münasibətilə təbrik edirik. Azərbaycanın ən işlək hava limanı kimi, o öz subregionunda karbon idarəçiliyi sahəsində lider mövqedədir və aviaşirkətləri, yerüstü xidmətləri və digər tərəfdaş qurumları emissiyaların azaldılması istiqamətində fəal şəkildə cəlb edir. Bu uğura görə bütün komandanı təbrik edirəm və onlarla sıfır emissiya məqsədinə doğru daha çox nailiyyətləri birlikdə qeyd etməyi səbirsizliklə gözləyirəm”.

Qeyd edək ki, 3-cü səviyyə hava limanının yalnız öz əməliyyatları çərçivəsində deyil, həm də yerüstü xidmətlər və nəqliyyat kimi əlaqəli tərəfdaşlarla birlikdə karbon emissiyalarının idarə edilməsini əhatə edir. Yeni uğuru ilə Heydər Əliyev Beynəlxalq Aeroportu Xəzəryanı region və Mərkəzi Asiyada bu səviyyəyə yüksələn ilk hava limanı olub.

Yeri gəlmişkən, hazırda 91 ölkədə 614 hava limanı Karbon akkreditasiyası proqramı çərçivəsində akkreditasiyadan keçib. Həmin limanlar qlobal sərnişin axınının yarıdan çoxuna xidmət göstərir. Heç şübhəsiz, Heydər Əliyev Beynəlxalq Aeroportunun bu nüfuzlu siyahıya qoşulması onun beynəlxalq ekoloji öhdəliklərə sadiqliyini və dayanıqlı inkişafda dünya standartlarına uyğun fəaliyyətini bir daha təsdiqləyir.

Hava limanı bu uğuru “Daha yaşıl gələcək üçün birlikdə” sloqanı altında birgə məsuliyyət və əməkdaşlıq mədəniyyətinin nəticəsi kimi təqdim edir. Gələcək mərhələlərdə də “Yaşıl Hava Limanı” təşəbbüsləri və ESG strategiyası çərçivəsində fəaliyyətlər davam etdiriləcək.

# Aİ-nin jurnalistlər üçün enerji seminarı



**Avropa İttifaqının “EU4Energy” layihəsinin 2-ci mərhələsi çərçivəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi, Enerji Məsələlərini Tənzimləmə Agentliyi və Avropa Enerji Tənzimləyiciləri Şurasının birgə təşkilatçılığı ilə media nümayəndələri üçün seminar keçirilib.**

Seminarda iştirakçılara ictimaiyyətin məlumatlandırılması və enerji siyasətlərində şəffaflığın artırılmasında medianın rolu barədə geniş məlumat verilib. Yerli və beynəlxalq ekspertlər enerji sektorunun üzləşdiyi əsas çətinliklər və onları aradan qaldırmaq üçün nəzərdə tutulmuş tədbirlərlə bağlı təcrübələrini iştirakçılarla bölüşüblər.

Toplantının gedişində enerji tənzimlənməsinin ən vacib aspektləri, o cümlədən enerji sektorunun strukturu, tariflərin müəyyən edilməsi, xidmət keyfiyyəti və enerji səmərəliliyi üzrə araşdırmalar ilə yanaşı, Avropa İttifaqının qabaqcıl təcrübələri nəzərdən keçirilib. Eyni zamanda, səmərəli kommunikasiyanın təmin olunması üçün enerji mütəxəssisləri, dövlət qurumları və media arasında sıx əməkdaşlığın zəruriliyi vurğulanıb.

Sonda media nümayəndələrinə sertifikatlar təqdim olunub.

# Süni intellekt strategiyasının hədəfləri

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təşkilatçılığı ilə “Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası” çərçivəsində 2026-cı il üçün yekun nəticə indikatorları üzrə hədəf göstəricilərin dəqiqləşdirilməsi məqsədilə onlayn iclas keçirilib. Müzakirədə strategiyanın əsas icraçı qurumları olan Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat, İqtisadiyyat, Elm və Təhsil nazirliklərinin nümayəndələri iştirak ediblər.**




Qeyd edək ki, strategiyanın əsas məqsədləri ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması, süni intellektin tətbiqi üçün əlverişli ekosistemin formalaşdırılması, süni intellekt sahəsində ixtisaslı kadr potensialının gücləndirilməsi və cəmiyyətin bütün üzvlərinə süni intellektin faydalarının geniş təbliğindən ibarətdir. İclasda cari il üzrə tədbirlərin icra vəziyyəti müzakirə olunub, eləcə də gələn il üçün nəticə indikatorlarına dair yeni hədəf göstəricilər müəyyən edilib.

“Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün Süni İntellekt Strategiyası” ölkə Prezidentinin 2025-ci il 19 mart tarixli sərəncamı ilə təsdiqlənib. Sənəddə nəzərdə tutulmuş tədbirlərin monitorinqi və qiymətləndirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə həvalə edilib.

# 3-cü rübdə qaz hasilatı 7,4 faiz artıb

**Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən 12 min 146 metr qazma işləri həyata keçirilib. Hesabat dövründə şirkətin müstəqil şəkildə və ya əsas payçı qismində istismar etdiyi yataqlarda 1 milyon 810 min tondan artıq neft və 1 milyard 944 milyon 732 min kubmetr qaz hasil olunub. Ölkə üzrə qaz hasilatı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 7,4 faiz artaraq 13 milyard kubmetr təşkil edib. 3-cü rübdə Azərbaycanda xam neft hasilatı isə 7 milyon ton təşkil edib.**



Hesabat dövründə SOCAR tərəfindən xarici bazarlara 4,1 milyon ton neft ixrac edilib. Bura şirkətin öz imkanları ilə çıxardığı neft həcmləri ilə birlikdə ölkəmizdə fəaliyyət göstərən beynəlxalq konsorsiumlar tərəfindən hasil olunan neftin Azərbaycan dövlətinə və SOCAR-a məxsus mənfəət payları da daxildir. Bununla yanaşı, 3-cü rübdə ölkə üzrə təbii qaz ixracı 6,3 milyard kubmetr, istehlakı isə 2,4 milyard kubmetr olub. Təbii qaz ixracında 8,7 faiz artım qeydə alınıb.

Cari ilin üçüncü rübündə SOCAR tərəfindən 1,7 milyon ton neft və 760 milyon kubmetr qaz emal edilib. Qurumun Azərbaycandakı müəssisələrində istehsal olunan 639,2 min ton neft, neft-kimya və qaz-kimya məhsulları xarici bazarlara ixrac edilib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,7 faiz çoxdur.

# BP Xəzərin dərin qatlarına enir




**BP şirkəti “Azəri–Çıraq–Günəşli” (AÇG) yataqlar blokunun işlənməsi layihəsinin operatoru kimi dünya neft və qaz sənayesinin ən müasir texnologiyalarını Xəzər regionuna gətirməkdə davam edir. Şirkətin əsas məqsədlərindən biri dünya səviyyəli bu yataqda hasilatı gücləndirmək, laylardan maksimum neftverməyə nail olmaq və yatağın istismar müddətini uzatmaqdır.**

Şirkət bu məqsədə uyğun olaraq “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin ərazisində bir çox quyularda sualtı müdaxilə əməliyyatlarına başlamağa hazırlaşır. Bu işlər üçün BP-nin Xəzərdəki əməliyyatlarında ilk dəfə olaraq quyuya dik borusuz yüngül müdaxilə texnologiyası tətbiq olunacaq.

Qeyd edək ki, “Blue Ocean” dik borusuz müdaxilə sistemi kimi tanınan bu texnologiya “Oceaneering International” şirkətinin sualtı mexaniki buraz vasitəsilə quyuya müdaxilə sistemidir. Bu innovativ yanaşma təzyiqin idarə olunması və hasilat səviyyəsinin gücləndirilməsi imkanlarının səmərəli tədqiqinə və erkən aşkarlanmasına imkan yaratmaqla yatağın bundan sonrakı potensialının üzə çıxarılmasına kömək edəcək.

Yarımdalma qazma qurğularından asılılığı azaltmaq və sualtı müdaxilələrin daha erkən həyata keçirilməsini təmin etmək üçün bu proqram Xəzərdə ilk dəfə tətbiq olunan daha bir yenilikdən – gəmidən icra olunan müdaxilə üsulundan istifadə edəcək. Bu o deməkdir ki, dik borusuz yüngül müdaxilə texnologiyası sistemi gəmi üzərinə inteqrasiya ediləcək və bütün quyu müdaxilələri birbaşa oradan icra olunacaq. “Xankəndi” sualtı tikinti gəmisi bu əməliyyatlar üçün ən uyğun texniki baza kimi seçilib.

BP şirkəti sözügedən proqramın təhlükəsiz və səmərəli icrası üçün artıq iki əsas müqavilə imzalayıb. Dik borusuz yüngül müdaxilə texnologiyası xidmətləri üçün “Oceaneering International” şirkəti ilə imzalanmış çoxmilyonluq müqaviləyə “Blue Ocean” dik borusuz müdaxilə sisteminin gəmidə yerləşdirilməsi, yığılması və sınaqdan keçirilməsi, eləcə də layihənin idarə olunması, mühəndislik işləri, sistemlərin inteqrasiyası və həmin sistemin tətbiqi üçün tələb olunan avadanlıqların, materialların və inşa işlərinin təmin edilməsi daxildir.

Quyuya yüngül müdaxilə xidmətləri üçün SLB şirkəti ilə imzalanmış çoxmilyonluq müqaviləyə isə ağır yüklərin qaldırılması işlərini ləğv etmək və “qırmızı zona”nın idarə olunmasını sadələşdirmək üçün kombinə edilmiş troslu/təkxətli (Combo) qurğunun təmin edilməsi, dövretmə və təzyiq sınaqları üçün yüksək təzyiqli nasos işlərinə qadir təzyiq/maye boşaltma avadanlığı paketi, eləcə də bu işlər üçün tələb olunan çoxprofilli işçi heyətlərin təmin edilməsi daxildir.

Şirkətdən verilən məlumata əsasən, proqram çərçivəsində dəniz əməliyyatlarının bu ilin sonunadək başlanacağı və 2026-cı ilin sonunadək bitəcəyi gözlənilir.

BP-nin Azərbaycan, Gürcüstan və Türkiyə regionunda quyu əməliyyatları üzrə vitse-prezidenti Rassel Morris bu barədə deyib: “Hesab edirik ki, quyuya dik borusuz yüngül müdaxilə texnologiyası – xüsusilə də “Dərinsulu Günəşli” ərazisindəki quyulara “Blue Ocean” dik borusuz müdaxilə sisteminin tətbiqi – bizə sualtı suvurma quyularını daha yaxından izləməyə, lay təzyiqinin idarə olunması və hasilatın gücləndirilməsi üçün ən perspektivli imkanları müəyyən etməyə imkan verəcək.

BP-nin qlobal əməliyyatlarında həyata keçirdiyimiz oxşar proqramlardakı təcrübəmizdən istifadə etməklə Xəzərdə ilk dəfə tətbiq edəcəyimiz gəmidən aparılacaq quyu müdaxilələrindən çox faydalanacağımıza inanırıq. Bu, qazma qurğularından asılılığımızı azaldacaq və imkanların erkən aşkarlanmasını mümkün edəcək. Bütün bunlar bizim sualtı əməliyyatlar aparmaq qabiliyyətimizi və imkanlarımızı xeyli artırır və Xəzərdə sualtı quyuların idarə olunması işlərində yeni səhifə açır”.

*Səhifəni hazırladı:*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Azərbaycan BMT qətnamələrinin tələblərini özü gerçəkləşdirməli oldu

## *Tarixi ədalət döyüş meydanında bərpa edilirdi*



**Prezident İlham Əliyev xalqa 26 oktyabr 2020-ci il tarixli müraciətində bu günün Azərbaycanın müasir tarixində dönüş nöqtəsi olduğunu bildirir, Vətən müharibəsinin gedişini təhlil edirdi. Ali Baş Komandan ölkəmizin savaşda iştirakını haqq və ədalət uğrunda aparılan mübarizə, torpaqlarımızın geri alınmasını isə diplomatik strategiyanın və milli birliyin uğuru kimi qiymətləndirirdi.**

Dövlət başçısı müraciətində respublikamızın haqq səsini tarixi sənədlərlə əsaslandırır, Kürəkçay, Gülüstan və Türkmənçay müqavilələrinə istinad edərək Qarabağın tarixi Azərbaycan torpağı olduğunu xatırladırdı. Ölkə rəhbəri, eyni zamanda, respublikamızın son illər ərzində ardıcıl fəaliyyət nəticəsində dünya ictimaiyyətini Qarabağın, eləcə də münaqişənin tarixi ilə bağlı kifayət qədər məlumatlandırıldığını, bu barədə artıq dünyada daha obyektiv fikir yaradıldığını, daha obyektiv təsəvvür formalaşdırıldığını qeyd edirdi: "Məhz bizim yorulmaz səylərimiz nəticəsində buna nail ola bilmişik. Mən deyəndə ki, biz tarixi ədaləti bərpa edirik, tam haqlıyam. Mən Münhen təhlükəsizlik konfransında bütün dünyaya sübut edə bilmişəm ki, bu, bizim tarixi torpağımızdır".

Bununla da dövlətimizin başçısı daxili auditoriyaya milli kimliyin gücləndirilməsinin önəmini bildirir, eyni zamanda, beynəlxalq ictimaiyyətə hüquqi əsaslı mesaj ötürürdü. Prezident İlham Əliyevin sözləri ilə desək, Azərbaycan döyüş meydanında işğalçıdan tarixi torpaqlarını geri almaqla bərabər, tarixi ədaləti də bərpa edirdi.

Ölkə rəhbəri müraciətində ATƏT-in Minsk qrupunun və həmsədr dövlətlərin fəaliyyətsizliyini kəskin tənqid etdi, uzun illər aparılan danışıqların nəticəsiz qaldığını, beynəlxalq vasitəçilərin isə neytrallıq prinsipini pozduqlarını diqqətə çatdırdı. Vətən savaşının baş sərkərdəsi Ermənistanın Qarabağda Cenevrə konvensiyalarına zidd qanunsuz məskunlaşma apardığını, bunun beynəlxalq cinayət olduğunu, Azərbaycanın mədəni irsinin dağıdıldığını da bildirdi. Bu tənqid Azərbaycanın artıq yeni diplomatik istiqamətini göstərir, vasitəçilik formatlarının yenilənməsi, real nəticə verən mexanizmlərin yaradılması zəruriliyini şərtləndirirdi.

Azərbaycan lideri müraciətində münaqişənin həlli üçün hüquqi bazanın kifayət qədər geniş olması ilə bağlı fikirlərini də diqqətə çatdırdı: "BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə bərabər, digər sənədlər də mövcuddur. Məsələn, BMT Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti və digər qurumların müvafiq qətnamə qəbul etmələri bunun bariz ifadəsidir. Avropa İttifaqı ilə paraflanmış sənəddə ölkəmizin suverenliyi, sərhədlərimizin toxunulmazlığı və ərazi bütövlüyü haqqında xüsusi müddəa var. Yəni bu, hüquqi bazadır və bu baza imkan verir ki, bu gün biz döyüş meydanında düşmənə dərs verək…".

Prezident İlham Əliyevin vurğuladığı kimi, bütün bunlara baxmayaraq, Minsk qrupunun həmsədr ölkələri tərəfindən yenidən BMT Təhlükəsizlik Şurasının iclası çağırılır. Lakin bu dəfə də qarşıya qoyulan məqsədin gerçəkləşməsinə – Azərbaycanın əleyhinə sənədin qəbul edilməsinə imkan verilmir.

Əlbəttə, belə canfəşanlığın səbəbi heç də sirr deyildi – niyyət 1993-cü ildə erməni silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması barədə qəbul edilən qətnamələri kölgədə saxlamaq, yaxud onların qüvvədən düşməsinə, öz əhəmiyyətini itirməsinə nail olmaq idi. Digər tərəfdən, burada ədalətdən söhbət gedə bilməzdi. Çünki bu, yenə də işğalçıya dəstək göstərilməsi cəhdi idi. Amma Qoşulmama Hərəkatı Təşkilatı buna imkan verməyərək, Azərbaycana dəstək göstərdi və arzulanan sənədin imzalanması gerçəkləşmədi.

Dövlət başçısının "Biz BMT qətnamələrini özümüz icra edirik" ifadəsi Azərbaycanın beynəlxalq hüququn faktiki tətbiqində nümunəyə çevrildiyini göstərirdi. Ölkə rəhbərinin qeyd etdiyi yeni reallıq anlayışı isə həm hərbi, həm diplomatik, həm də ideoloji səviyyədə yeni dövrün başlandığını ifadə edirdi. Bununla da Azərbaycanın artıq regionda güc balansını dəyişən, öz suveren hüquqlarını gerçəkləşdirən ölkə olduğu görünürdü.

Prezidentin müraciətində diqqətçəkən məqamlardan biri də humanitar yanaşma idi. Bununla bağlı dövlət başçısı Qarabağda yaşayan ermənilərin Azərbaycan vətəndaşları kimi bütün hüquqlara malik olacaqlarını bildirirdi. Bu, sülh və birgəyaşayış üçün vacib siqnal kimi səslənirdi. Belə bir yanaşma həm daxili sabitlik, həm də beynəlxalq imic baxımından mühüm önəm daşıyırdı.

Azərbaycan lideri xalqa müraciətində, eyni zamanda, Ermənistanın xaricdən silah və hərbi dəstək aldığını qeyd edərək, bunun sülh prosesinə mane olduğunu vurğulayırdı. Bu məqam beynəlxalq hüquq çərçivəsində silah axınının qarşısının alınmasını və şəffaf nəzarət mexanizmlərinin tətbiqinin vacibliyini gündəmə gətirirdi.

Müraciətdə BMT, İƏT, Qoşulmama Hərəkatı və Avropa İttifaqı kimi qurumların sənədlərinə istinad edilməsi isə Azərbaycanın Vətən savaşında keçirdiyi əməliyyatların beynəlxalq hüquqa əsaslandığını göstərirdi. Prezident İlham Əliyev "ədaləti müdafiə edə bilmirsinizsə, kənara çəkilin" çağırışı ilə beynəlxalq təşkilatların məsuliyyətini xatırladırdı. Ölkə rəhbəri, eyni zamanda, erməni diasporunun illərlə apardığı dezinformasiya siyasətinə qarşı Azərbaycanın müasir informasiya müharibəsində qazandığı uğurları da vurğulayır, bu məsələdə diplomatiya ilə yanaşı, media siyasətinin də strateji rol oynadığını göstərirdi.

Müraciətdən irəli gələn başlıca istiqamətlər isə aşağıdakılar idi:

– *hərbi uğurların diplomatik və hüquqi müstəvidə möhkəmləndirilməsi;*

– *azad edilmiş ərazilərin sosial-iqtisadi və mədəni bərpası;*

– *yeni vasitəçilik mexanizmlərinin formalaşdırılması;*

– *region xalqları üçün təhlükəsizlik və hüquq təminatının gücləndirilməsi.*

Beləliklə, Prezident İlham Əliyevin 26 oktyabr 2020-ci il tarixli xalqa müraciəti Azərbaycan dövlətçiliyinin tarixi, hüquqi və mənəvi əsaslarını birləşdirən güclü manifest idi. O, müasir dünyada ədalətin yalnız beynəlxalq tribunalarda deyil, həm də döyüş meydanında və diplomatiya masasında qazanıldığını göstərirdi. Azərbaycanın əsas vəzifəsi bu qələbəni davamlı sülh və inkişaf mərhələsinə çevirmək idi. Tarixi ədalətin bərpası ilə başlanan bu mərhələ milli iradənin və beynəlxalq hüququn birgə qələbəsi kimi tarixə yazıldı.

***Vaqif BAYRAMOV***
***XQ***

## Vətən müharibəsinin xronikası

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**



**26 oktyabr**

• Zəngilan rayonunun Birinci Alıbəyli, İkinci Alıbəyli, Rəbənd, Yenikənd, Cəbrayıl rayonunun Qovşudlu, Sofulu, Dağ Maşanlı, Kürdlər, Hovuslu, Çələbilər, Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli, Çaytumas, Xanlıq, Sarıyataq, Mollabürhan kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə bağlı Prezident İlham Əliyev xalqa müraciət edib.

• Prezident, Ali Baş Komandan İlham Əliyev Qubadlı şəhəri və Qubadlı rayonunun bir neçə kəndinin işğalçılardan azad olunmasında fərqlənmiş hərbi birlik komandirləri Yaşar Həsənovu və Zaur Quliyevi təbrik edib.

• Birinci vitse-prezident Mehriban Əliyeva Zəngilan, Cəbrayıl, Qubadlı rayonlarının bir sıra kəndlərinin və Qubadlı şəhərinin işğaldan azad edilməsi ilə əlaqədar rəsmi instaqram səhifəsində paylaşım edib.

• Ermənistan-Azərbaycan dövlət sərhədinin Daşkəsən rayonu sahəsində bölmələrimizin mövqeləri üzərində uçuş keçirməyə cəhd göstərən düşmən kvadrokopteri vurulub.

**27 oktyabr**

• Döyüş əməliyyatları əsasən cəbhənin Xocavənd, Füzuli və Qubadlı istiqamətlərində davam edib. Hücum cəhdlərinin qarşısı alınan düşmən itki verərək geri oturdulub. Azərbaycan Ordusunun keçirdiyi əməliyyatlar nəticəsində Ermənistan silahlı qüvvələrinin 18-ci motoatıcı diviziyasının ön idarəetmə məntəqəsi məhv edilib. Cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, eləcə də bir T-72 tankı, dörd D-30 və üç D-20 topu, bir "Osa-AKM" ZRK, bir BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, bir radiolokasiya stansiyası və altı avtomobil texnikası sıradan çıxarılıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Prezident İlham Əliyev İtaliyanın Rai-1 televiziya kanalına müsahibə verib.

• Baş Prokurorluğun məlumatına görə, Ermənistan ordusunun Bərdə rayonunu raket atəşinə tutması nəticəsində həlak olan mülki şəxslərin sayı dördə çatıb.

• Birinci vitse-prezident Mehriban Əliyeva Ermənistanın Bərdəyə raket hücumu nəticəsində həlak olanların yaxınlarına başsağlığı verib.



**28 oktyabr**

• Prezident İlham Əliyev özünün rəsmi "Twitter" səhifəsində Azərbaycan Ordusunun Zəngilanın Birinci Ağalı, İkinci Ağalı, Üçüncü Ağalı, Zərnəli, Füzulinin Mandılı, Cəbrayılın Qazanzəmi, Xanağabulaq, Çullu, Quşçular, Qaraağac, Qubadlının Qiyaslı, Əbilcə, Qılıcan kəndlərini işğaldan azad etməsi ilə bağlı məlumat verib.

• Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistan silahlı qüvvələrinin Bərdəyə növbəti dəfə raket hücumu ilə əlaqədar rəsmi "Instagram" səhifəsində paylaşım edib.

• Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Rusiyanın İnterfaks agentliyinə müsahibə verib.

• Azərbaycan Ordusunun bölmələri şəhər və rayonlarımıza atəş açan düşmənin qüvvə və vasitələrini, xeyli sayda hərbi texnikasını darmadağın edib.

• Müdafiə Nazirliyi Qubadlı istiqamətində gedən döyüşlər zamanı düşmənin atıb qaçdığı hərbi texnika və silah-sursatın videogörüntüsünü paylaşıb.

***Mustafa KAMAL***
***XQ***

# Vandallığın əbədi üz qarası

## *Zəfərin həyatverici şəfəqləri*

**Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu ilin oktyabr ayında Soçidə keçirilən "Valday" beynəlxalq diskussiya klubunda gələcəyə istiqamətlənən geniş çıxışında ölkəmizin ərazi bütövlüyü və sərhəd toxunulmazlığı məsələlərinə xüsusi önəm vermişdi. Dövlətimizin başçısı nitqində səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida" sözləri onun dahi bir siyasətçi olduğunu bir daha dünyaya nümayiş etdirmişdi. Bundan bir müddət sonra Azərbaycan öz ərazi bütövlüyünün və pozulan sərhədlərinin bərpasını gerçəkləşdirdi. 2020-ci il sentyabr ayının 27-də Ermənistan silahlı birləşmələrinin növbəti təxribatlarına cavab olaraq başlanan haqq mübarizəsi nəticəsində işğalda olan ərazilərimiz düşməndən geri alındı. Bütün bunlar Azərbaycan liderinin mövcud reallıqları dərk edən, vəziyyəti düzgün qiymətləndirməyi bacaran və çox böyük informasiyaya sahib güclü, uzaqgörən bir siyasi şəxsiyyət olduğunu göstərdi.**

Bu gün, eyni zamanda, qurtuluş, dirçəliş rəmzi kimi səsləndirilən bu qürurlu ifadənin – "Qarabağ Azərbaycandır və nida"nın arxasında həm də Ermənistanın 30 ilə yaxın həyata keçirdiyi qəsbkarlıq siyasətinin, törətdiyi dağıntıların, yaşatdığı insan faciələrinin və məhv etdiyi mədəni irsimizin acı izləri var. Çünki Ermənistan işğal zamanında Qarabağda yaşayış evlərini, infrastrukturu, eləcə də mədəni və dini irsi yerlə bir edib. Yüzlərlə



məscid, türbə, ziyarətgah və qəbiristanlığı vandalizmə məruz qoyub. Belə bir vəhşilik işğaldakı ərazilərdə yaşayan soydaşlarımızın izlərini silmək, varlığını inkar etmək məqsədi daşıyıb.

İbadət və mənəviyyat məkanı olan Ağdam Cümə məscidi işğal illərində tövlə kimi istifadə edilib. Bu, bütöv bir inanca və mədəniyyətə qarşı təhqir idi. Şuşa şəhərindəki 18-ci əsrə aid Gövhər Ağa məscidi dağıdılıb, Zəngilan, Qubadlı, Füzuli və Cəbrayıl rayonlarında onlarla qədim qəbiristanlıq yerlə bir edilib. Minilliklərə təsadüf edən tarix kitabları torpağın altına basdırılıb. Ermənilər tərəfindən alban-xristianlıq dövrü abidələrinə də düşmən münasibət bəslənilib, bir sıra hallarda isə döyüş mövqeyi kimi istifadə olunub, ətrafına və içərisinə minalar basdırılıb. UNESCO və digər beynəlxalq təşkilatlara bu barədə edilən müraciətlər, təqdim olunan fotolar və faktlar da bu dağıntıları təsdiqləyib. Təəssüf ki, həmin qurumlar, eləcə də beynəlxalq ictimaiyyət uzun illər bu cinayətləri susqunluqla qarşılayıb.

Vətən müharibəsində qazanılan tarixi Zəfər ilə torpaqla bərabər, ruhumuz da azad oldu. Məscidlərdə eşidilən ilk azan səsi, necə deyərlər, səmanı titrətdi. Şuşa məscidində illərdən sonra qılınan namaz, sanki daş-divarı diriltdi. O dağların, minarələrin, müqəddəs yerlərin susqunluğuna son qoyuldu. Qeyd edək ki, Şuşada işğal dövründə ciddi ziyan görən 1883-cü ilin yadigarı Saatlı məscidi yenidən bərpa edilərək 2023-cü ildə açıldı. 2021-ci ildə isə Aşağı Gövhər Ağa məscidində restavrasiya işlərinə Heydər Əliyev Fondunun dəstəyi ilə başlandı. Məscidin interyerindəki tarixi motivlər müasir üsulla bərpa edildi. Eyni zamanda, Azərbaycanın mədəniyyət incisi adlandırılan Şuşa şəhərində Çöl Qala, Yuxarı Gövhər Ağa, Mamayı, daha sonra isə rayonun Daşaltı kənd məscidində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə açılış mərasimləri reallaşdı.

Xatırladaq ki, Şuşada işğaldan sonra 18 tarixi-mədəni abidə bərpa edilib və 2 yeni məscidin tikintisinə başlanılıb. Şəhərin məhəllələrində yerləşən Şuşa qalası, Pənah xanın sarayı, Qara Böyük Xanım bürcü, Xan qızı Natəvanın evi, Hacıqulların malikanəsi, Əsəd bəyin evi və s. kimi XVIII əsrə aid memarlıq abidələri xalqımız üçün itirilmiş arzuların gerçəkləşən əks-sədası olub.

İllərlə işğal altında qalan Şuşadakı Qazançı kilsəsi də öz sahibinə qovuşdu. Şəhərin qəsbindən əvvəl Azərbaycan dövləti tərəfindən restavrasiya olunmuşdu və xristian abidəsi kimi qorunurdu. Bu da Azərbaycan xalqının dini tolerantlığa hörmətinin ifadəsi idi. Lakin işğal dövründə düşmən özünə aid etdiyi bu dini abidəni dağıtdı, bununla da onun keçmişə, tarixə necə yanaşması bir daha təsdiqini tapdı. Doğma torpaqlarımız yağıdan geri alındıqdan sonra bu kilsə də bərpa edildi. Çünki bu coğrafiyanın həqiqi sahibi, mədəniyyətin, dinin və insanlığın daşıyıcısı Azərbaycan idi.

Zəngilandakı İmamzadə türbəsi, Füzulidəki qədim ibadətgahlar, Cəbrayıldakı viran qalmış məscidlər... Bu abidələrdə xalqın inancla dolu tarixi yaşayır. İndi o yadigarlar da bərpa edilir, indi o abidələrin sığındığı torpaqlar əkib-becərilir, o ərazilərdəki düşmənin dağıtdığı, taladığı yaşayış məntəqələri yenidən tikilir, sahmana salınır. Qarabağda dağıdılan hər evin, hər abidənin bərpası ilə xalqımızın tarixi yaddaşı, kimliyi bərpaolunur, xoşbəxt, firavan gələcəyə yol açılır. İndi hər bərpaolunan abidədən, sanki, bir səs eşidilir: "Bu torpaqlar bizimdir, bu tarix bizimdir, bu torpaqların səmasında dolanan ruhlar azaddır".

***Nurəngiz ADİLQIZI***
***XQ***

*Vətən Müharibəsi Qəhrəmanı*

# Qaçaq Nəbi yurdunun qoçaq oğlu

**O, uşaq yaşlarından güləşə maraq göstərmiş, Novruz bayramlarında doğma yurdu Qubadlıda qarazurnanın sədaları altında qurşaq tutan pəhləvanların cövlanından vəcdə gəlmiş, özü də idman müəllimi və məşqçi Elbrus Qayalının bölməsinə gedərək yunan-Roma güləşinin sirlərini öyrənmişdi. Hələm-hələm yaxasını ələ verməz, rəqiblərinin kürəyini yerə vurmaqda qarşısıalınmaz inadkarlıq göstərərdi.**



Birinci Qarabağ savaşında qardaşları və yenilməz güləşçi kimi tanınan eloğlusu Əlyar Əliyev (Milli Qəhrəman) döyüşlərə qatıldığı üçün Faiq Qasımov da Milli Ordu sıralarına yazılmaq istədi. Amma bu arzusuna yalnız 1992-ci ildə, yəni 18 yaşı tamam olandan sonra çatdı və "Pəhləvanlar taboru"nda topçu kimi qulluq etdi. Həmin ilin payızında komandiri və özündən 5 yaş böyük qardaşı Həsənqulu Qasımov (Həsən Qorxmaz) şəhid olandan sonra Faiq and içdi ki, onların qanını yerdə qoymayacaq.




Bu yolda digər qardaşları Əhliyyət və Gəray da yaralanıb qazi oldular. Sonra sənədlərini Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinə verən Faiq oxuyub motoatıcı zabit oldu və Naxçıvan, Balakən, Mingəçevir, Füzuli ərazilərindəki hərbi hissələrdə 28 il qulluq etdi. Digər təltiflərlə bərabər, hər üç dərəcədən olan "Qüsursuz xidmətə görə" medallarına layiq görüldü. Qubadlı işğal olunandan sonra Faiqgil elliklə Sumqayıta pənah gətirdi. Xidmətarası vaxt tapıb Sumqayıta ailəsinin yanına hər gələndə həm məşqçi-müəllimi Elbrus Qayalı ilə görüşür, həm də mütləq ilk komandiri – Milli Qəhrəman Əlyar Əliyevin adını daşıyan güləş zalına baş çəkir, xatirəsini ehtiramla yad edirdi.

Faiq məlum Aprel döyüşlərində də iştirak etmiş, cəbhənin Tərtər və Cəbrayıl–Füzuli istiqamətində şiddətli döyüşlərdə hünər göstərmişdi. Həmin döyüşlərin nəticəsindən xeyli ruhlanmış və həlledici qisas gününün yaxınlaşdığını hiss etmişdi. Nəhayət, İkinci Qarabağ müharibəsində Faiq Qasımov cəmi 1 gün ərzində sözünə əməl edə bildi: qisas almağı bacardı, lakin özü də şəhadətə yüksəldi. Elə sentyabrın 27-dən 28-nə keçən gecə Füzuli rayonu uğrunda aparılan hərbi əməliyyatlarda şəhid oldu. Qisasını aldıqlarının yanına üzüağ getdi. Vətən müharibəsində qismətinə yazılmış 1 günlük döyüş sınağından mətanətlə çıxan polkovnik-leytenant Faiq Qasımov Azərbaycan Prezidenti İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli sərəncamı ilə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görülüb. O, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.

**Müəllim, məşqçi, həm də şair kimi tanınan dostumuz Elbrus Qayalının əbədiyyətə qovuşmuş igid yetirməsi haqqında dedikləri:**

– Kəndimizin sevimli oğlu Faiq qulluq yerindən tez-tez mənə zəng edib hal-əhval tutar, Vətənə şərəfli xidmətindən danışardı. Söhbətlərindən duyurdum ki, qisas hissi heç vaxt onu tərk etmir. Özü də əsgərlərinə kiçik qardaşları kimi qayğı ilə yanaşır, hamısının qorxmaz, dönməz iradəli olması üçün nümunə göstərirdi. Son telefon söhbətimizin səs yazısını yadigar saxlayıram. Dedi ki, qismət olsa, Məkkəmiz, Mədinəmiz Qubadlıda görüşərik... Onun qəhrəmancasına həlak olduğu xəbərini eşidincə özümdən asılı olmayaraq ağladım və göz yaşlarım muncuq-muncuq şeir misralarına düzüldü. Beləcə, onu sözlə oxşadım:

*Düşmən bağlasa da bərə, bəndini,*
*Hər an arzulardın doğma kəndini.*
*Heç vədə əyməzdin o şux qəddini,*
*Heyif səndən, heyif səndən, ay Faiq...*

***Ə.DOSTƏLİ***
***XQ***

# Qısa ömrün əbədiyyət ünvanı

**"O, həmişə 18 yaşında mərd, məsum, igid bir oğul olaraq qalacaq. Balamın arzuları çox idi... Amma oğlum elə bir zirvə fəth etdi ki, indi onunla təkcə böyüdüyü el-oba deyil, bütün Azərbaycan qürur duyur. Mənim oğlumun adı Vətən müharibəsində qəhrəmanlığı ilə tarix yazan igidlərin sırasındadır". Bunu neftçalalı şəhid Mirmöhsüm Əhmədovun anası Arzu Əliyeva deyir. Şəhid anasının sözlərinə görə, 18 yaşında əbədiyyət yolçuluğuna çıxan Mirmöhsüm qısa ömrünə böyük bir qəhrəmanlıq sığdırdı.**



Mirmöhsüm Əhmədov 21 yanvar 2002-ci ildə Neftçala rayonunda anadan olub. Orta təhsilini Neftçala rayonu Elton Həbibov adına 4 saylı tam orta məktəbdə başa vurub. Ardınca Bakı Biznes və Kooperasiya Kollecində təhsilini davam etdirib.

Mirmöhsüm 13 iyul 2020-ci ildə həqiqi hərbi xidmətə yollanıb və 27 sentyabrda başlanan İkinci Qarabağ müharibəsində iştirak edib. O, Füzuli, Xocavənd və Qubadlı istiqamətində gedən döyüşlərdə şücaət göstərib, 28 oktyabrda Qubadlı uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Mirmöhsüm doğulub boya-başa çatdığı Neftçala rayonunda torpağa tapşırılıb. Arzuları da özü kimi gənc idi. Polis olmaq, asayişi qorumaq və qanun keşiyində dayanmaq istəyirdi. Yaşıdlarından fərqlənirdi. Sakit, mehriban, hər kəsin köməyinə yetən biri idi. Anasını çox sevirdi. "Ana, Vətən sənsən" deyirdi həmişə. Vətəni anası qədər əziz bilirdi. Uşaq yaşlarından evdə "Vətən bizim anamızdır, onun bir qarış torpağı düşmən əsarətində qalmamalıdır" cümləsini də tez-tez işlədərdi.



Şəhidin anası Arzu Əliyeva deyir ki, arzusu polis olmaq idi. Şərəfli peşəni yerinə yetirmək istəyirdi. Polis ola bilməsə də, şəhid oldu. Ən uca zirvəyə yüksəldi. Mirmöhsüm ilə saatlarla, günlərlə, aylarla danışsam da, doymaram. Bir şəhid anası kimi qürur duyuram oğlumla.

Arzu ana daha sonra bildirir ki, şəhidlər ölmür, onlar daim uca zirvədədirlər. Bu isə ona təsəllidir.

Mirmöhsüm Vətənə borcunu ödəmək üçün sanki tələsirdi. Səbirsizliklə hərbi xidmətə çağırılacağı günü gözləyirdi. Çağırış zəngi gələndə ailəsi ilə sevinərək sağollaşıb. 2020-ci il iyulun 13-də hərbi xidmətə yollanıb. Səhhətinə görə dörd dəfə əməliyyat olunan Mirmöhsüm Vətən müharibəsinin ilk günlərindən döyüşə atılır. Ailəsi onun bu istəyinə qarşı çıxmaq istəsə də, qəhrəman əsgər inadından dönmür. Qubadlı, Xocavənd və Füzuli uğrunda gedən döyüşlərdə böyük şücaət göstərir. Füzuli istiqamətində gedən ağır döyüşlərin birində qəhrəmancasına şəhid olur. Mirmöhsüm qonşuların, qohumların, dostlarının da sevimlisi idi.

Şəhidin dayısı Rauf Əliyev onun döyüş yolundan danışaraq qeyd edir ki, Mirmöhsümün döyüş yolu Füzulidən başladı. Qanlı döyüşlər gedirdi. Qəhrəmancasına döyüşüb, baxmayaraq ki, gənc əsgər idi. Həqiqətən də qorxu deyilən hissi yox idi. Müharibədən sonra bizə dedilər ki, əsgər yoldaşı yaralanmışdı. Mirmöhsüm onu kürəyinə alaraq arxaya gətirib, yenidən döyüşə qayıdıb və şəhidlik zirvəsinə yüksəlib.

Prezident İlham Əliyevin Sərəncamına əsasən, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi və şəxsi igidlik və şücaət nümayiş etdirdiyinə görə şəhid Əhmədov Mirmöhsüm Mirdaməd oğlu ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif edilib.

Mirmöhsüm 18 illik ömrünə bütöv bir qəhrəman taleyi yaza bildi. Elə tale ki, həmişə danışılacaq.

***M.MİRZƏ***
***XQ***

# Kiçik çavuşun böyük hünəri

**Vətən müharibəsi şəhidi Nazir Xurşudov Xaçmaz rayonunun Çaykənarı kəndində anadan olub. Milli Qəhrəman Yavər Şahbazov adına tam orta məktəbi bitirən Nazir uşaqlıqdan idmana maraq göstərib. Əvvəlcə məşqçi Nurəddin Əhmədovun yanında şotakan-karate idman növünün sirlərinə yiyələnib. Sonra isə böyük qardaşı Maarifin təşəbbüsü və rəhbərliyi ilə karatenin vado-ryu növü ilə məşğul olub.**



Qardaşından bu idman növünün incəliklərini mənimsəyən Nazir müxtəlif illərdə respublika yarışlarında və zona birinciliklərində mükafatçılar sırasında yer alıb. O, orta məktəbi başa vurduqdan sonra hərbi xidmətə yollanıb. Əvvəlcə Murovda, daha sonra isə Gədəbəydə kəşfiyyat bölüyündə xidmət edib. Xidmətini başa vurduqdan sonra Vətənə olan sevgisi onu yenidən hərbiyə bağlayıb. Öz istəyi ilə müddətdən artıq hərbi xidmətə yazılan Nazir bir müddət Azərbaycan Sülhməramlı Qüvvələrində xidmət aparıb. Hərbidə çalışdığı müddətdə Əfqanıstan, Pakistan və Bolqarıstanda xüsusi kurslarda iştirak edib.



Hərbçi kimi bir sıra yarışlarda da ölkəmizi təmsil edib və mükafatçılar sırasında yer alıb. Bir müddətdən sonra ordudan tərxis olunsa da, Müdafiə Nazirliyinə ərizə yazaraq yenidən hərbi sahədə fəaliyyətini davam etdirib. O, bu dəfə kəşfiyyat bölüyündə xidmətə başlayıb. 35 illik ömrünün 11 ilini hərbidə keçirən Nazir bir sıra mühüm hərbi əməliyyatların da iştirakçısı olub. O, Vətən müharibəsinə qədər 2016-cı il şanlı Aprel və Tovuz döyüşlərində qəhrəmancasına döyüşüb. Daha sonra döyüş meydanına atılan igidimiz Ağdam, Füzuli, Cəbrayıl və Xocavənd rayonları uğrunda gedən hərbi əməliyyatlarda iştirak edib. 2020-ci oktyabrın 21-də Xocavənd istiqamətində gedən döyüşlər zamanı qəhrəmancasına şəhid olub. Şəhidimiz oktyabrın 28-də doğulduğu Xaçmaz rayonunun Çaykənarı kəndində dəfn olunub.

Prezident İlham Əliyevin sərəncamları ilə Nazir Xurşudov ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qardaşı Maarif qürurla bildirir ki, müharibə başlayanda qardaşım Nazir mənə zəng edərək döyüşlərə yollandığını dedi. İmkan olduqca bizimlə əlaqə saxlayırdı. Hərbi əməliyyatlar başlayandan iki həftə sonra qardaşım Cəbrayıl istiqamətində gedən döyüşlərdə ağır yaralandı. Ermənilər onların olduğu ərazini minaatanla vurmuşdular. Bu hadisə zamanı Nazir bədəninin bir neçə nahiyəsindən qəlpə yaraları almışdı. Füzulinin Qaradağlı kəndindəki hospitalda müalicə alsa da, vəziyyəti ağır idi. Hətta həkimləri onu Bakıdakı xəstəxanalardan birinə yollayacaqları barədə məlumat vermişdilər. Lakin Nazir bir neçə gündən sonra bizə zəng edərək yenidən döyüş bölgəsinə qayıdacağını dedi. O, tezliklə Cəbrayıl rayonu istiqamətinə yollandı. Düzü, Nazirin tam sağalmadan yenidən döyüşlərə yollanmasına hər birimiz etiraz etdik. Qalıb müalicəsini davam etdirməsini istəyirdik. Amma o bizə dedi ki, cəbhədə mənim qardaşlarım döyüşür və mən onların yanında olmalıyam, haqqınızı halal edin. Döyüşlərə yenidən yollandıqdan sonra onunla hər gün telefonda danışırdıq. Oktyabrın 17-si qardaşımla sonuncu danışığımız oldu. Bir daha ondan xəbər gəlmədi. Ona 3 gün zəng çatmadığı üçün artıq hər birimiz narahatlıq keçirirdik. Oktyabrın 22-də Nazirin komandiri anama zəng edərək onun şəhid olması barədə xəbər verdi. Düzü, əvvəl heç birimiz buna inanmırdıq. Dərhal onun kəndimizdən olan əsgərinə zəng etdim. Lakin onunla da əlaqə saxlaya bilmədim. Sonra bir neçə yerlə xəbəri dəqiqləşdirməyə çalışdım. Bir neçə günlük axtarışdan sonra qardaşım Eldarla birgə Füzuliyə yollandım. Onu snayperlə vurmuşdular. Naziri vuran snayper muzdlu döyüşçü olub.

Döyüşçü yoldaşlarının dediyinə görə, Xocavənddə təpədə ermənilərin postu var idi. Nazir qumbaraatanla ermənilərin postunu vurduqdan sonra şəhid olan əsgər yoldaşının avtomatını götürərək atəş açıb və irəli gedib. Yanında olan hərbçi yoldaşları ilə birgə qəhrəmancasına döyüşərək həmin postu ermənilərdən azad ediblər.

Onun böyük arzuları var idi. Torpaqlarımızın düşməndən azad olmasına çox inanırdı. O, torpaqlarımızın bütövlüyü uğrunda şəhid oldu. Amma inanıram ki, qardaşımın ruhu şaddır. Nazir şəhid olmazdan əvvəl anamla danışanda demişdi ki, ana, mən şəhid olsam ağlama, məndən başqa iki oğlun da var. Təbii ki, biz ümid edirdik ki, o müharibədən sağ-salamat yenidən ailəsinin, uşaqlarının yanına qayıdacaq. Amma... Şəhidin Şahin və Asiman adlı iki oğlu yadigar qalıb.

***Müşfiq MİRZƏ***
***XQ***

# Çağdaş qəhrəmanlıq salnamələri

**Yazıçı-publisist Emin Baratoğlunun "Vasifsiz keçən günlər", "Könüllərdə qaldı İlqar" və "Vətən sevdalı qartallar" adlı kitabları onun Böyük Zəfərimizin 5 illiyinə layiqli töhfəsidir.**




"Füyuzat" nəşriyyatında çap olunmuş bu kitablarda igid Vətən oğulları – Qəbələnin ilk şəhidi Vasif Süleymanovla əslən Qərbi Azərbaycandan olan İlqar Ramazanlının döyüş yolundan ətraflı bəhs edilib, eyni zamanda, müəllifin Qarabağ uğrunda canlarını qurban verərək əbədiyyətə qovuşmuş Azərbaycan igidlərinə həsr olunmuş şeirləri təqdim olunub.

Vasifin haqqındakı kitab Emin Baratoğlunun və Eldar Quliyevin həmmüəllifliyi ilə qələmə alınıb. Vətən müharibəsi başlananda əsgərlikdə Bum kəndinin yetirməsi Vasif Süleymanov mərdliklə döyüşlərə atılıb və xüsusi təyinatlılar bölməsində düşmənə qarşı mübarizə aparıb. Son döyüşü Füzuli istiqamətində olub. Vasif oktyabrın 6-da ali məqama ucalıb.

Emin Baratoğlu "Könüllərdə qaldı İlqar" kitabında Nəsimi rayonundakı 159 nömrəli məktəbin məzunu olan İlqar Ramazanlının könüllü olaraq cəbhəyə yollanmasını, Füzuli, Xocavənd və Şuşa uğrunda döyüşlərdə fərqlənməsini, noyabrın 3-də Qırmızı-bazarda şəhadətə yüksəlməsini bədii boyalarla qələmə alıb. Topluda həmçinin Əmirxan Burzuyevin, Yusif Rzanın, Mirhəsən Ağayevin və Fəxrəddin Bababöylinin İlqara həsr etdikləri şeirlər yer alıb.

"Vətən sevdalı qartallar" kitabında müəlifin Vətən igidlərinə həsr olunmuş şeirlərindən nümunələr toplanıb.

***Qorudun millətin qeyrət-namusun,***
***Düşmənin arzusu qaldı gözündə.***
***Üçrəngli bayrağa bürünən andan,***
***Tarixə çevrildin xalqın gözündə!***

***XQ***

Birinci Türkoloji Qurultay – 100

# Türk dünyasının elmi-mədəni birliyinin özülü 1 əsr əvvəl Bakıda qoyulmuşdu

**Bakı 1926-cı ildə yalnız bir elmi konfransa deyil, bütün Türk dünyasının mədəni və mənəvi birliyinə ev sahibliyi etmişdi. Birinci Türkoloji Qurultay türk xalqlarının tarixində həm elmi tərəqqi, milli həmrəylik, həm də XX əsrin əvvəllərində türk dünyasının intellektual dirçəlişini simvolizə edən tarixi hadisə kimi qalmışdır. Onun ideyaları bir əsr sonra da yaşayır, çünki türk xalqlarının birliyini təmin edən əsas amil – dil, elm və mədəniyyət hələ də eyni dərəcədə aktualdır. 1926-cı ildə Bakıda əsası qoyulan bu elmi və mənəvi birliyin ideyası Qurultayın 100 illiyində artıq yeni tarixi mərhələyə qədəm qoyur.**



**100 il sonra bu tarixi hadisənin mahiyyətinə və mənasına yenidən baxmaq, onun ideyalarını müasir dövrün reallıqları fonunda dəyərləndirmək mühüm zərurətə çevrilmişdir. Tanınmış alim, akademik Muxtar Kazımoğlu ilə də söhbətimiz bu barədədir.**

***– Muxtar müəllim, 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay təkcə elmi-mədəni deyil, həm də ictimai-siyasi hadisə kimi tarixə düşüb. Bolşeviklərin hakimiyyəti şəraitində keçirilmiş bu Qurultayın məzmun və məqsədləri nədən ibarət idi?***

– I Türkoloji Qurultay sırf elmi toplantı olmaqla yanaşı, siyasi mahiyyət də daşıyan hadisə idi. 1926-cı ilin fevralında Bakıda keçirilən Qurultay SSRİ məkanında yaşayan bütün türk xalqları arasında elmi əməkdaşlığın, milli özünüdərkin, həm də mədəni inteqrasiyanın zirvəsi sayılır. Həmin dövrdə Sovet İttifaqının tərkibində olan Krım, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Azərbaycan, Başqırdıstan, Yakutiya, Qaraqalpaq və digər bölgələrdən ziyalıların bir araya gəlməsi, bu şəraitdə milli və elmi məsələləri açıq müzakirə etməsi özü-özlüyündə böyük bir tarixi hadisə idi.

Qurultayın məqsədi çoxşaxəli idi: bir tərəfdən türk xalqları arasında əlifba və yazı sistemi üzərində ortaqlıq yaratmaq, digər tərəfdən isə elmi terminologiyanı birləşdirmək, türk dillərinin sistemli öyrənilməsini təmin etmək idi. Eyni zamanda, Qurultay türk xalqlarının öz köklərinə, dil birliyinə və mənəvi varisliyinə qayıdışının təməl prinsiplərini bərpa edirdi.

Sovet ideoloqları formal olaraq "millətlərin öz müqəddəratını təyin etməsi" prinsipini qəbul etmişdilər. Amma reallıqda imperiya türk xalqları arasında milli oyanışdan ciddi şəkildə ehtiyat edirdi. Belə bir şəraitdə Bakıda bu miqyasda elmi-mədəni hadisə həm elmi, həm də siyasi mənada uğurlu addım idi.

***– Qurultayda aparılan elmi müzakirələrin arxasında hansısa gizli siyasi məqamlar dayanırdımı?***

– Bəli, bu sual çox düşündürücüdür. Bu gün üstündən 100 il keçən I Türkoloji Qurultay həm görünən, həm də görünməyən tərəfləri ilə yaxın tariximizin ən mühüm hadisələrindən biridir. Görünən tərəfi ondan ibarətdir ki, bu elmi toplantıda Fuad Köprülü, Əhməd Baytursun, Qalimcan Şərəf, Aleksandr Samoyloviç, Gyula Mesaroş, Aleksandr Miller, Artur Zifeldt kimi böyük türkoloqlar çıxış edərək türklüyün elmi və mədəni birliyini müzakirə etmişdilər.

Qurultayın görünməyən tərəfi daha dərin və faciəlidir. O dövrün sovet rejimi bu toplantıdan "millətçi"ləri üzə çıxarmaq və "zərərsizləşdirmək" üçün bir sınaq meydanı kimi istifadə etmişdi. Qurultay zahirən elmi xarakter daşısa da, onun arxasında ciddi ideoloji gərginliklər vardı. Türk xalqları arasında ortaq mədəni və elmi əməkdaşlıq ideyası Moskva üçün "pantürkizm" anlayışı ilə eyniləşdirilirdi. Türk dillərinin yaxınlığı, ortaq köklərin vurğulanması və mədəni inteqrasiya məsələləri sovet rəhbərliyi tərəfindən potensial təhlükə kimi qiymətləndirilirdi.

Bu səbəbdən, qurultayda irəli sürülən fikirlər, xüsusilə ortaq latın əlifbasına keçid ideyası, türk dillərinin bir sistemdə öyrənilməsi və milli ədəbiyyatların qarşılıqlı təsiri kimi məsələlər sonradan repressiya dalğalarının ideoloji əsaslarından birinə çevrildi. Bu mənada, I Türkoloji Qurultay həm böyük intellektual yüksəlişin, həm də milli faciənin başlanğıc nöqtəsi kimi tarixə düşdü.

1937-ci ilin qanlı hadisələrinə aparan yolda bu qurultay, bəlkə də siyasi qiymətləndirmə rolu da oynayıb. Həmin illərdə elmi müzakirələrdə iştirak edən bir çox alimlər – Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Qalimcan Şərəf, Əhməd Baytursun və başqaları – az sonra "pantürkist" damğası ilə repressiyaya məruz qaldılar.



***– Qurultayda Azərbaycan ziyalılarının iştirakı və rolu barədə nə deyə bilərsiniz?***

– Azərbaycan həmin dövrdə türk dünyasının mədəni və elmi mərkəzinə çevrilmişdi. Qurultayda ölkəmizdən iyirmiyə yaxın görkəmli ziyalı iştirak etmişdi. Onların arasında Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Salman Mümtaz, Əhməd Pepinov kimi alimlər vardı. Bəkir Çobanzadə "Türk dillərinin fonetikasında sait və samitlərin sintezi", Hənəfi Zeynallı isə "Məktəblərdə tədris dili" mövzusunda çıxış etmişdi. Hər iki alim türk dillərinin ortaq prinsiplər əsasında öyrənilməsini və müasir tədris metodlarının yaradılmasını təklif edirdi. Təəssüf ki, onların hər ikisi 1937-ci ilin repressiyalarında həyatını itirdi.

***– Qurultayda müzakirə olunan əsas elmi istiqamətlər nələr idi?***

– Qurultayın materiallarından aydın olur ki, keçirilən on yeddi iclasın ondan çoxu dil məsələlərinə həsr olunmuşdu. Bu, təsadüfi deyildi, çünki türk xalqlarının mədəni inteqrasiyasının əsasını, bəlkə də birincisini, dil faktoru təşkil edirdi. Türkləri birləşdirən və bizi bir-birimizə bağlayan ən güclü vasitə məhz dildir. Dil mövzusu Qurultayda müxtəlif istiqamətlərdə müzakirə olunmuşdu: türk dillərinin yaranma məkanı, onların qohumluq əlaqələri, ədəbi dilin formalaşması, türk dillərinin yazı sistemi, o cümlədən orfoqrafiya qaydaları qurultayda müzakirə olunan məsələlər sırasında idi.

Türkoloqların, o cümlədən Bəkir Çobanzadə və Hənəfi Zeynallının çıxışlarında türk dilləri üçün orfoqrafik lüğətlərin və vahid transkripsiya sisteminin işlənib hazırlanması təklifi irəli sürülürdü. Məlum siyasi hadisələr ucbatından bu təklif kağız üzərində qaldı və öz həllini tapmadı.

Qurultayın qətnaməsində ortaq elmi terminologiya ilə bağlı vəzifənin qarşıya qoyulması son dərəcə əhəmiyyətli məsələ idi və həmin məsələ bu gün də aktual olaraq qalmaqdadır. Ən mühüm və mübahisəli məsələ isə əlifba məsələsi idi. Qurultayın iclaslarına sədrlik edən Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin sədri **Səmədağa Ağamalıoğlu** latın qrafikalı əlifbaya keçidin əsas tərəfdarlarından biri idi.

Türkiyədən gələn başqırd əsilli Zəki Vəlidi Toğan, Qazaxıstandan gələn Əhməd Baytursun və Tatarıstandan olan Qalimcan Şərəf bu fikrə qəti etiraz etmişdilər. Qalimcan Şərəf isə deyirdi ki, yaponlar doxsan milyon funt sterlinq pul xərclədilər və islahata başlayıb əlifbanı dəyişmək istədilər. Amma 1914-cü ildə əlifba dəyişikliyindən imtina etdilər, çünki bunun nə qədər çətin və məsuliyyətli olduğunu anladılar.

Qurultaydan sonra SSRİ MİK-in 11 may 1927-ci il tarixli sərəncamı ilə yeni türk Əlifbasının Mərkəzi Komitəsi yaradıldı, Ağamalıoğlu onun sədri təyin edildi. 1928-ci ildə isə Ümumittifaq yeni Türk Əlifbası Komitəsi yaradıldı. Yerlərə yeni əlifba layihələrini təqdim etmək tapşırığı verildi. Məlum oldu ki, əlifba islahatı Moskva üçün türk xalqlarının yazı sistemini birləşdirmək yox, ayırmaq üçün mühüm bir vasitəsidir. Bu səbəbdən, Moskva ayrı-ayrı türk xalqlarında əvvəl latın, daha sonra isə kiril əlifbalarını fərqli variantlarda qəbul etdirdi. Yeri gəlmişkən, xatırladım ki, türk xalqlarında ortaq əlifba problemi bu gün də öz həllini gözləməkdədir. 2023-cü ildə Türk Dövlətləri Təşkilatı tərəfindən Ortaq Türk Əlifbası Konsepsiyasının qəbul edilməsi bu sahədə atılan mühüm siyasi addımdır.

***– Qurultayda qəbul edilən qərarlar necə yerinə yetirilirdi?***

– Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin təşkil olunması "türk xalqlarının elmi birliyi" üçün atılan addım kimi təqdim edilirdi. Amma sonrakı illərdə Moskva bu islahatdan türk xalqlarını birləşdirmək yox, əksinə, bir-birindən ayırmaq məqsədilə istifadə etdi. Əvvəl latın, daha sonra isə müxtəlif kiril variantlarının tətbiqi nəticəsində türklər bir-birinin yazısını oxuya bilməz hala gətirildilər. Bu, mədəni parçalanmanın ən təhlükəli formalarından biri idi.

2023-cü ildə Türk Dövlətləri Təşkilatının Ortaq Türk Əlifbası Konsepsiyasını qəbul etməsi tarixi əhəmiyyətə malik addımdır. Bu, 1926-cı ilin ideyasına – yəni türk xalqlarının mədəni və elmi birliyinə – mənəvi qayıdış deməkdir.

***– Qurultayın sənədləri və materiallarının bu günümüz üçün önəmi nədədir?***

– Qurultayın protokolları və məruzə mətnləri Azərbaycan Milli Elmlər Akademiyasının arxivində və Moskva fondlarında saxlanılır. Bu materiallar təkcə dilçilik tariximiz üçün deyil, bütövlükdə türk dünyasının intellektual tarixinin əsas mənbələrindəndir. Bu irsin tədqiqi göstərir ki, 1926-cı il qurultayı sistemli türkoloji elmin bünövrəsini qoymuş, eyni zamanda, milli kimlik məsələlərinin elmi kontekstdə müzakirəsinə şərait yaratmışdır. Son illərdə həmin sənədlərin transliterasiya və təhlili istiqamətində mühüm işlər görülür. Gənc tədqiqatçılar bu materiallardan istifadə edərək türk dillərinin müqayisəli tədqiqinə yeni yanaşmalar formalaşdırırlar.

Qurultay bu gün yalnız elmi hadisə kimi deyil, Türk dünyasının mənəvi həmrəyliyinin simvolu kimi dəyərləndirilməlidir. Onun ideyaları – ortaq dil, mədəniyyət, elmi əməkdaşlıq bu gün Türk Dövlətləri Təşkilatının fəaliyyətində konkret şəkildə öz əksini tapır. Məsələn, ortaq tarix dərsliyinin hazırlanması, vahid terminoloji baza yaradılması, elmi mübadilə proqramlarının təşkili kimi təşəbbüslər 1926-cı il Qurultayının ideyalarının müasir dövrdə yenidən dirçəlməsi deməkdir. Türk dünyasının gücü məhz dil, mədəniyyət və elmi birlikdən qaynaqlanır. Bunu unudan xalqlar tarixi bağlarını da itirirlər.

***– Bəs Qurultayın 100 illiyinin qeyd olunması Türk dünyasına hansı məfkurə impulsları verir?***

– 100 illik yubiley təkcə tarixi xatırlamaq deyil, həm də gələcəyə baxış üçün fürsətdir. Bu hadisə bizə göstərir ki, türk xalqlarının birliyi keçici siyasi amil deyil, ortaq tarixi yaddaşın məhsuludur. 2025-ci ilin 21 oktyabrında Prezident İlham Əliyevin imzaladığı Sərəncamla Birinci Türkoloji Qurultayın 100 illiyinin qeyd olunması qərara alındı. Bu sənəd təkcə yubiley xarakteri daşımır, həm də Azərbaycanın türk birliyinin elmi-mədəni mərkəzi statusunu təsdiqləyir.

Bu Sərəncam həm də onu da göstərir ki, Bakı 1926-cı ildə olduğu kimi, bu gün də türk dünyasının intellektual paytaxtıdır. Azərbaycan keçmişin mirasını qorumaqla yanaşı, həm də Türk Dövlətləri Təşkilatında elmi, mədəni və siyasi inteqrasiyanın lideridir. Bakı bu mənada yenə də türk dünyasının paytaxtı rolunu oynayır. Əgər 1926-cı ildə burada ideya səviyyəsində bir birlik formalaşdısa, bu gün həmin birlik siyasi və elmi reallığa çevrilməkdədir.

***– Bugünkü türkoloqlar üçün qurultayın ən mühüm dərsi nədir?***

– Mən deyərdim ki, qurultaydan çıxan ən böyük dərs elmin millətə xidmət anlayışıdır. O dövrün alimləri dilin, ədəbiyyatın və mədəniyyətin sadəcə tədqiqat obyekti deyil, həm də milli kimliyin əsas dayağı olduğunu dərk etmişdilər. Bəkir Çobanzadə, Hənəfi Zeynallı, Əhməd Baytursun və Fuad Köprülü kimi şəxsiyyətlər XX əsrin əvvəllərində türk dünyasının mədəni, elmi və ideoloji yüksəlişində aparıcı rol oynamış ziyalılardır. Onlar yalnız öz ölkələrinin deyil, bütün türk xalqlarının elmi və mənəvi inkişafını ortaq dil, ədəbiyyat və mədəniyyət platforması yaratmaqda görürdülər.

Görkəmli alimlər və maarifçilər üçün elm milli şüurun oyanışı və Türk dünyasının gələcəyini formalaşdıran strateji güc idi. Çobanzadə türkologiyanın nəzəri əsaslarını qoymaqla türklüyün elmi sistemini qurmağa çalışdı. Hənəfi Zeynallı Azərbaycan dilinin və ədəbiyyatının tədqiqi vasitəsilə milli kimlik şüurunun möhkəmlənməsinə töhfə verdi. Əhməd Baytursun türk xalqları üçün yeni əlifba və tədris modeli təklif etməklə ümumtürk mədəni inteqrasiyasına yönəldi. Fuad Köprülü isə türk mədəniyyətini tarixi və bəşəri miqyasda təqdim edərək türkologiyanın elmi istiqamətlərini dünya elminə inteqrasiya etdi.

Bu şəxsiyyətlərin ortaq cəhəti ondadır ki, onlar hər biri elm və fikir sahəsində sərhədləri aşaraq Türk dünyasının gələcəyini düşünən, onu bir ortaq ideya ətrafında birləşdirməyə çalışan mütəfəkkirlər idilər. Bu gün müasir türkologiyanın elmi konsepsiyaları, metodoloji prinsipləri və intellektual istiqamətləri məhz onların qoyduğu təməllər üzərində formalaşır.

Birinci Türkoloji Qurultayın ideyaları təkcə tarixi irs deyil, həm də türk xalqlarının gələcək elmi və mədəni birliyini istiqamətləndirən düşüncə mənbəyidir. O məfkurə mücahidləri öz elmi fəaliyyətlərini türk dünyasının gələcəyi naminə səfərbər etdilər. Onların ideyaları bu gün müasir türkologiyanın intellektual xəritəsini formalaşdırır.

***– Muxtar müəllim, I Türkoloji Qurultayın 100 illiyi ərəfəsində türk xalqları zamanın hansı çağırışlarına köklənməlidir?***

– Məncə, bu gün bütün türk xalqlarının ziyalıları üzərinə düşən ən böyük vəzifə elmi və mənəvi birliyi qorumaqdır. Texnologiyanın, qloballaşmanın və informasiya müharibələrinin gücləndiyi bir dövrdə ortaq dil, tarix və elm əsasında formalaşan mənəvi birliyin önəmi daha da artır.

Qurultay bizə bunu öyrətdi: "Birliyi olmayan xalqın elmi də, mədəniyyəti də parçalanır". Bu gün biz o ideyanı yenidən bərpa etməliyik. 1926-cı ilin Bakı ruhu — yəni türk xalqlarının bir masa arxasında oturub elmi və mədəni gələcəklərini müzakirə etməsi bizim üçün ən böyük mənəvi mirasdır.

***– Müsahibə üçün çox sağ olun.***

*Söhbəti hazırladı:*
***Namiq ƏHMƏDOV,***
***BDU jurnalistika fakültəsinin müəllimi, fəlsəfə doktoru***



# Azərbaycan elmi milli və bəşəri yüksəlişin xidmətində

**(əvvəli 1-ci səhifədə)**

Bu günlərdə 80 illik yubileyini qeyd etməyə hazırlaşan Azərbaycan çoxəsrlik mədəni-zehni dəyərlər üzərində qazandığı tarixi nailiyyətlərlə dünya elminin ön mövqelərində şərəfli və öyünclü mövqe qazanıb. Bu qürurlu tarixin son qərinəsini müstəqil dövlətçilik şəraitində yaşayıb-yaradan alimlərimiz ölkənin sürətli inkişafı ilə yanaşı, beynəlxalq miqyasda da elmə layiqli töhfələr, məşhur elmi mərkəzlərə dərin zəkalı və yenilikləri böyük səmərə gətirən elmi kadrlar verib.

Azərbaycan Prezidenti İlham Əliyev son illər ölkəmizdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması və modernləşdirilməsi, elm və təhsil sahəsində yüksəkixtisaslı kadrların hazırlanması, onlara daim qayğı göstəril-



məsi, cəmiyyətdə alimlərin, elm və təhsil işçilərinin nüfuzunun artırılması sahəsində bir sıra mühüm qərarlar qəbul edib. Bütün bunlar əvvəlki mərhələdə qazanılmış elmi uğurları qoruyub saxlamağa və artırmağa xidmət edir.

Elmin inkişafına dövlət səviyyəsində qayğı, dövlətçiliyin möhkəmləndirilməsi və xalqın milli-mədəni tərəqqisinə və rifah halının yüksəldilməsinə xidmət edən siyasətin tərkib hissəsidir. Qloballaşma prosesinin dünyanı əhatə etdiyi və elmi-texniki tərəqqinin kifayət qədər yüksək sürətlə aparıldığı müasir dövrdə müstəqil Azərbaycan dövlətinin inkişafı elmi durumun səviyyəsindən və qazanılan nailiyyətlərin tətbiqindən əhəmiyyətli dərəcədə asılıdır. Azərbaycanda elmin inkişafı, əhalinin maddi rifahının yaxşılaşması və gələcək inkişafında Azərbaycan Milli Elmlər Akademiyası ötən 80 ildə müstəsna rol oynayıb.

Görkəmli dövlət xadimi, müstəqil dövlətimizin banisi, ümummilli lider Heydər Əliyevin 23 sentyabr 1993-cü ildə respublika ziyalıları ilə tarixi görüşündə Azərbaycan Elmlər Akademiyasının əhəmiyyəti, xidmətləri haqqında söylədiyi fikirlər cəmiyyətin inkişafında elmin roluna dair obyektiv qənaətləri ifadə edirdi: “Elmlər Akademiyası Azərbaycan xalqının tarixi nailiyyətidir. 1945-ci ildə bu akademiyanı yaradan adamlar, Azərbaycanın alimləri çox böyük şücaət göstərmişlər. Ötən dövrlərdə bu akademiyanın çərçivəsində Azərbaycan elmi çox inkişaf etmişdir. Akademiyanın fəaliyyətini tənqid etmək də olar, ancaq, ümumən götürdükdə, şübhəsiz ki, elminin keçdiyi inkişaf yoluna yüksək qiymət verməli, onu əldə saxlamalı, itirməməliyik. Dağıtmaq çox asandır, qurmaq, yaratmaq çətindir.

1945-ci ildə Elmlər Akademiyasını yaratmaq, sonra isə onu inkişaf etdirmək, yeni-yeni institutlar təşkil etmək asan iş idimi? Əlbəttə, yox! Tarix, insanlar isə həmişə quranları, yaradanları qiymətləndirir. Əmin ola bilərsiniz ki, Elmlər Akademiyası da, institutlar da fəaliyyət göstərəcəklər. Azərbaycan elmi inkişaf etməlidir... Biz bu sahəyə hər cür kömək edəcəyik və mədəniyyətimiz, elmimiz, təhsilimiz, o cümlədən də ali təhsilimiz inkişaf edəcəkdir”.

Doğrudan da, AMEA milli elmin baş qərargahı, bu sahədə strateji idarəetmə məktəbi və mərkəzidir. Bu məktəbin məzunları olan alimlər, müəllimlər, mühəndislər ölkənin gələcəyini qururlar. Bu mərkəzdə çalışanlar Azərbaycanın intellektual potensialını, aparıcı ziyalı zümrəsini təşkil edirlər.

SSRİ Xalq Komissarları Sovetinin 1945-ci il 23 yanvar tarixli qərarı ilə ümumittifaq akademiyasının 1935-ci ildə yaradılmış yerli filialı Azərbaycan SSR-in müstəqil Elmlər Akademiyasına çevrildi. Bununla Tusinin, Bəhmənyarın, Urməvinin, Bakıxanovun, Zərdabinin vətənində çoxəsrlik elmi düşüncə ənənəsinin, müasir tədqiqat sisteminin təşkilinin yeni mərhələsi başlanıb.

Azərbaycan Milli Elmlər Akademiyası ilk təşəkkülü dövründə onun 4 bölməsi, 16 elmi-tədqiqat institutu, 3 muzeyi, mərkəzi elmi kitabxanası, Naxçıvan, Gəncə, Xankəndi və Qubada elmi bazaları var idi. Həmin il Azərbaycan EA-ya 15 həqiqi üzv seçilb. Keçən dövr ərzində AMEA respublikada aparılan fundamental tədqiqatların əsas mərkəzinə çevrilib. Azərbaycan Milli Elmlər Akademiyasının tərkibində müxtəlif elmi istiqamətlər üzrə elmi bölmələr fəaliyyət göstərib: fizika-riyaziyyat və texniki elmlər; kimya elmləri; humanitar və ictimai elmlər; Naxçıvan və Gəncə elm bölmələri.

Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi keçən əsrin 70-ci illərində onlarla azərbaycanlı aspirant və doktorantlar keçmiş SSRİ-nin ən qabaqcıl alimlərinin fəaliyyət göstərdikləri elmi mərkəzlərə göndərilib, akademiyada müasir tələblərə cavab verən yüksəkixtisaslı kadrların yetişdirilməsi üçün əlverişli şərait yaradılıb.

Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi birinci dövr elmin sürətlə inkişaf etdiyi illər hesab edilir. O illərdə ölkəmizdə böyük elmi məktəblər yaranıb, görkəmli elm adamları yetişib. Respublika rəhbəri Heydər Əliyevin təşəbbüsü ilə 1975-ci ildə ölkəmizdə Elmlər Akademiyasının 30 illik yubileyinin keçirilməsi və akademiyanın "Xalqlar dostluğu" ordeni ilə təltif olunması elm tariximizin parlaq hadisələrindən biri hesab olunur.

Ötən əsrin 70–80-ci illərində Azərbaycanda elmi-texniki tərəqqinin qarşısında duran önəmli vəzifələrdən biri ölkənin enerjiyə olan tələbatlarının ödənilməsi idi. Xüsusən, neft-qaz energetikasının inkişafına böyük diqqət verilirdi. Geofiziki kəşfiyyatın yeni metodlarının tətbiqi yeni neft və qaz yataqlarının kəşf edilməsinə kömək edirdi. Məhz bu dövr Azərbaycan ərazisində yeni neft yataqlarının kəşfi dövrü oldu.

SSRİ-də 90-cı illərin sonlarında başlayan iqtisadi-siyasi böhran və bu dövlətin tərkibinə daxil olan xalqların milli azadlıq hərəkatı SSRİ-nin dağılmasına və müstəqil Azərbaycan dövlətinin təşəkkülünə səbəb oldu. Müstəqil Azərbaycanın təşəkkülü ilə yeni müstəqil qurumların, o cümlədən müstəqil Milli Elmlər Akademiyasının formalaşması dövrü oldu. Beləliklə, Azərbaycan elminin inkişafında yeni bir dövr başlandı.

1992-ci ildə Azərbaycan Birləşmiş Millətlər Təşkilatının üzvlüyünə qəbul edildi. Azərbaycanın ərazi bütövlüyü dünya dövlətlərinin əksəriyyəti tərəfindən tanındı. Azərbaycanda elmin yeni inkişafı sahəsində tamamilə yeni dövr başlandı. Bu dövrdə ölkəmizdə əldə olunan elmi nailiyyətlərin artıq SSRİ-nin deyil, müstəqil Azərbaycanın inkişafına yönəldilməsi, milli maraqlara uyğun olaraq elm sahələrini inkişaf etdirmək imkanı əldə etdi.

1993-cü ildə Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı ölkədə siyasi və iqtisadi böhranın aradan qalxmasına gətirib çıxardı. Azərbaycan dövləti bütün sahələrdə, o cümlədən elmin bütün istiqamətlərində sürətli inkişaf etməyə başladı.





Akademiyanın tərkibində gənc və istedadlı alimlərin sayı artırıldı. AMEA-nın 6 bölməsinin fəaliyyəti nizama salındı. Kimya elmləri, Yer elmləri, biologiya və tibb elmləri, humanitar elmlər, ictimai elmlər bölmələrində, 2 regional bölmədə və 2 regional elmi mərkəzdə uğurlu axtarışlar davam etdirildi. Azərbaycan Milli Elmlər Akademiyasında 10 minə yaxın əməkdaş, o cümlədən 4 min 939 nəfər elmi işçi, 664 elmlər doktoru, 2 min 26 nəfər fəlsəfə doktoru çalışır. Akademiyanın 72 həqiqi üzvü və 112 müxbir üzvü var.

Son dövrdə AMEA-da böyük elmi-təşkilati işlər görülüb, əsaslı islahatlar aparılıb. AMEA xarici ölkələrin elmi müəssisələri ilə müntəzəm əlaqə saxlayır, elmin müasir problemlərinə və elmin təşkilinə dair əcnəbi alimlərlə fikir mübadiləsi aparır. Akademiyanın alimləri beynəlxalq elmi qurultay, konfrans və simpoziumlarda elm və texnikanın aktual problemlərinə dair məruzələrlə çıxış edirlər. AMEA bir çox nüfuzlu beynəlxalq elmi təşkilatların üzvüdür, onun əməkdaşları MDB ölkələri, ABŞ, Yaponiya, İsrail, İsveçrə, İngiltərə, Almaniya, Pakistan, Türkiyə, İran və başqa ölkələrin aparıcı elm və təhsil müəssisələri ilə birgə proqram çərçivəsində tədqiqatlar aparır, kadr və informasiya mübadilələrində iştirak edirlər.

Ümummilli lider Heydər Əliyevin AMEA-nın Azərbaycan elminin və bütövlükdə ölkənin ədəbi-ictimai həyatındakı rolu və xidmətlərini ifadə edən bu sözləri bu gün də aktualdır: “AMEA-nın keçdiyi şərəfli yol Azərbaycan xalqının tarixində böyük səhifədir. Çoxəsrlik tariximizdə böyük elmimiz olubdur. Ancaq Azərbaycan elmi heç vaxt bu qədər mütəşəkkil və bu qədər qüvvətli, güclü, çoxsahəli olmayıb. Müstəqil Azərbaycanın Elmlər Akademiyası bütün elmi potensialı özündə cəmləyərək xalqımızın yaradıcılıq sahəsində nəyə qadir olduğunu dünyaya göstəribdir”.

Bu gün çox böyük iftixar hissi ilə deyə bilərik ki, 80 illik fəaliyyət dövründə AMEA-nın uğurlu fəaliyyəti, elmin ən yeni və müasir istiqamətləri üzrə yüksək ixtisaslı, elmi dərəcələrə malik mütəxəssislərin hazırlanması Azərbaycanın ən böyük uğurlarındandır.

Hər il 27 martda Azərbaycanda Elm Günü təntənə ilə qeyd edilir. Bu gün Prezident İlham Əliyevin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsis edilib və ölkə elminin inkişafındakı rolunu vurğulamaq və şərəfləndirmək məqsədi daşıyır. Bu tarix respublikamız üçün əlamətdar bir vaxta –AMEA-nın təsis olunduğu günə təsadüf etdiyi üçün xüsusi əhəmiyyət daşıyır.

2011-ci il aprelin 26-da AMEA-nın illik ümumi yığıncağında iştirak edən Prezident İlham Əliyev vurğulayıb ki, müasir dövlətin qurulması, ölkənin tərəqqisi elmin inkişafı olmadan mümkün deyildir. Elmi tədqiqatların ölkədə aparılan iqtisadi siyasətlə bağlılığının diqqətdə saxlanılması vacib şərtdir. Ölkə rəhbəri son illərdə elmin inkişafına, bu sahədə problemlərin kompleks həllinə xidmət edən bir çox sərəncam və fərmanlar imzalayıb, məqsədli Dövlət proqramlarnı təsdiq edib. Prezident İlham Əliyevin 2009-cu il 4 may tarixli “Azərbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiya”nın və “Azərbaycan Respublikasında 2009–2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında”, 2009-cu il 22 may tarixli “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” sərəncamları bu baxımdan xüsusi vurğulanmalıdır.

Milli Strategiya Azərbaycanın elmi-texniki potensialının, innovasiya siyasətinin, kadr hazırlığının imkanlarına əsaslanır, ixtisaslaşdırılmış elmi-tədqiqat institutlarının, həm də ayrı-ayrı istiqamətlər üzrə dövlət siyasətinə cavabdeh olan rəsmi strukturların qarşısına təxirəsalınmaz tələblər qoyur. Son illərdə ölkəmizdə gənclər siyasətinə də xüsusi diqqət yetirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 iyul 2011-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət Proqramında dövlət gənclər siyasətinin formalaşdırılmasında gənc elmi kadrların hazırlanması da əksini tapıb.

Ölkədə elmin inkişafı istiqamətində görülən ən mühüm işlərdən biri də Prezident İlham Əliyevin 2009-cu il 21 oktyabr tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun yaradılmasıdır. Bu qurumun təşkilində məqsəd ölkədə elmi-texniki potensialın qorunması, iqtisadiyyatın inkişafında bu potensialdan səmərəli istifadə edilməsi, mühüm sosial problemlərin həllində elm və texnikanın rolunun yüksəldilməsi, cəmiyyət üçün əhəmiyyət kəsb edən fundamental, tətbiqi və axtarış-innovasiya xarakterli elmi-tədqiqatların, proqramların, layihələrin və digər elmi tədbirlərin maliyyələşdirilməsi, alimlərin elmi fəaliyyətinin stimullaşdırılması və onlara əlavə yaradıcılıq imkanının yaradılmasıdır.

Prezident İlham Əliyevin “Azərbaycan Milli Elmlər Akademiyasının gənc alimlərinin Avropanın elmi mərkəzlərində doktorantura təhsilinin maliyyələşdirilməsi haqqında” 2010-cu il 9 fevral tarixli sərəncamı respublikada elmi-tədqiqatların müasir standartlar səviyyəsində aparılmasını, ölkənin elmi kadr potensialının artırılmasını və Azərbaycanda elmin elm məkanına beynəlxalq inteqrasiyasının təmin olunmasını daha da sürətləndirmək məqsədi daşıyır. Sərəncamla Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan Azərbaycan Milli Elmlər Akademiyasına gənc alimlərin Avropanın elmi mərkəzlərinin doktoranturalarında təhsil almaları üçün 500 min manat məbləğində vəsait ayrılıb. Bu, sosial-iqtisadi inkişafın keyfiyyətcə yeni mərhələsində elmi-tədqiqatların Avropa səviyyəsinə çatdırılmasını, gənc alimlərin dünya elminə inteqrasiyasını nəzərdə tutur.

Azərbaycan Milli Elmlər Akademiyasının 2011-ci il 26 aprel tarixdə keçirilən illik ümumi yığıncağında Prezident İlham Əliyev giriş nitqində bildirib: “2009-cu ildə Elmin İnkişafı üzrə Milli Strategiya və Dövlət Proqramı qəbul edilmişdir, ondan sonra Elmin İnkişafı Fondu yaradılmışdır. Bu fondun xətti ilə nəinki müasir avadanlığın alınması öz həllini tapır, eyni zamanda, müxtəlif qrantlar verilir ki, biz Azərbaycanda elmi araşdırmaları stimullaşdıraq”.

Dövlət başçısının 2011-ci il 4 noyabr tarixli Sərəncamına əsasən, Elmin İnkişafı Fondunun dəstəklənməsi, ölkədə elmi-tədqiqatların müasir standartlar səviyyəsində aparılmasını və xalqımızın mədəni-tarixi irsinin daha dərindən araşdırılmasını təmin etmək məqsədilə Elmin İnkişafı Fonduna Azərbaycan Respublikasının 2011-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan 3 milyon manat məbləğində vəsait ayrılıb.

Prezident İlham Əliyev fondun uğurlu fəaliyyətini belə dəyərləndirib: “Qeyd etməliyəm ki, hazırda fəaliyyət göstərən Elmin İnkişafı Fondunun təcrübəsi də çox müsbətdir. Yəni bu fondun xətti ilə müxtəlif proqramların icrasında, o cümlədən gənclər, gənc alimlər də çox fəal iştirak edirlər. Gənclər Fondu da fəaliyyətini bu səpkidə, yəni bu istiqamətdə aparmalıdır”. Fond Azərbaycan xalqının, alimlərinin rifahına və ölkənin tərəqqisinə, dövlətin möhkəmləndirilməsinə, elmin yüksək xətlə inkişaf strategiyasının müəyyənləşdirilməsinə və təkmilləşdirilməsinə, Azərbaycan alimlərinin elmi-tədqiqat layihələrinin uğurla həyata keçirilməsinə və ölkədə elm sahəsində dünyamiqyaslı və rəqabət apara biləcək elmi nəticələrin alınmasının reallaşdırılmasına və bu nəticələrin tezliklə iqtisadiyyatda öz tətbiqini tapmasına xidmət etməkdir!

Ulu öndər Heydər Əliyevin müdrikliklə müəyyən etdiyi və həyata keçirdiyi elm siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müstəqillik illərində əldə edilən uğurlardan biri kimi Azərbaycanın Kosmos dövlətinə çevrilməsini xüsusi qeyd etmək lazımdır. Bu nailiyyət ölkə Prezidentinin İKT sahəsində məqsədyönlü və uzaqgörən siyasətinin həyata keçirilməsi, eləcə də respublikamızda ən yeni texnologiyaların tətbiqinin reallaşdırılması sayəsində əldə olunub.

Azərbaycanda elmi fəaliyyət əsasən Milli Elmlər Akademiyasını, ali təhsil müəssisələrini, dövlət qurumlarının tərkibindəki elmi təşkilatları, qismən də özəl sektoru əhatə edir. Prezident İlham Əliyevin rəhbərliyi ilə 22 ildən artıq dövrü əhatə edən bir müddətdə Azərbaycanda bütün sahələrdə olduğu kimi, AMEA da islahatlar və yenilənmə mərhələsini yaşayır. Dövlətin həyata keçirdiyi müasirləşmə və innovasiya siyasəti nəticəsində ölkəmizdə ənənəvi sahələrin inkişafı ilə yanaşı, IV Sənaye İnqilabının çağırışlarına uyğun genişmiqyaslı layihələrin reallaşdırılmasına şərait yaradır. Bu proses öz təsirini Akademiyanın elmi mühitində də aydın şəkildə göstərməkdədir.

80 illik şanlı yubileyini qeyd edən AMEA, bütövlükdə, Azərbaycan elmi, ölkəmizin və dünyanın ən aktual problemi olan ekoloji tarazlığın əldə edilməsi, ətraf mühitin qorunması, dayanıqlı inkişafın təmin edilməsində elmi-texniki potensialdan prioritet hesab olunan istiqamətlərdə istifadəni genişləndirmək və AMEA-nın 80 illik fəaliyyətini dünyanın yeni çağrışları ilə əlaqələndirilməsi olduqca vacibdir.

80 il əvvəl qoyulmuş təməl bu gün Milli İnnovasiya sisteminin mərkəzinə çevrilmişdir. Elm dövlətin gücünü, dövləti isə elmin inkişaflarını artırır, bu qüdrətli gücün elmi-təşkilati təcrübəsi gələcəyin texnoloji və intellektual inkişaf xəritəsini müəyyənləşdirir.

80 illik yubiley elmimizin müstəqil dövlətçiliklə birgə böyüməsinin bayramıdır. Bu həmdə düşüncənin, ağlın, zəkanın zəfəridir. Akademiyanın alimləri, ziyalıları yalnız elmi nailiyyətləri ilə deyil, həm də ictimai düşüncənin formalaşmasında, gənc nəslin milli dəyərlər ruhunda tərbiyəsində böyük rol oynayırlar. Alimlərin fəaliyyəti dövlətin intellektual dayaqlarının möhkəmlənməsinə xidmət edir.

Azərbaycan bu gün qlobal dünyada özünün intellektual, iqtisadi və siyasi çəkisini artıraraq müasir dövrün çağrışlarına cavab verən dinamik inşikaf edən bir ölkəyə çevrilib. Bugünkü uğurlarımız ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu möhkəm dövlətçilik təməlindən, onun siyasi irsindən və Prezident İlham Əliyevin müdrik siyasətindən irəli gəlir.

Yaxın günlərdə özünün şanlı 80 illik yubileyini qeyd edəcək Azərbaycan Milli Elmlər Akademiyasının bütün elm adamlarını Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi adından səmimi-qəlbdən təbrik edir, AMEA-da çalışan, ölkənin ali təhsilinə də önəmli dəstək verən həmkarlarımıza yeni yaradıcılıq uğurları arzu edirik. İnanırıq ki, AMEA-nın elmi axtarışları bundan sonra da müstəqil dövlətimizin hərtərəfli tərəqqisinə, zehni-mədəni yüksəlişə xidmət edəcək, milli elmimizin və alimlərimizin xoş sorağı dünyanın hər yerindən gələcək.

***Arif ŞƏKƏRƏLİYEV,***
***Azərbaycan Dövlət İqtisad Universitetinin professoru, iqtisad elmləri doktoru, Əməkdar elm xadimi***

*Sosial gündəm*

# Sağlıq durumu məhdud insanların sosial xidmətlərə çıxışı genişdir

**Azərbaycanın modern dövlət quruculuğu siyasətinin önəmli istiqamətlərindən biri də əlillərin sosial müdafiəsidir. Son illər ölkədə aparılan genişmiqyaslı sosial islahatlar əlillik təyinatlarının şəffaflaşdırılmasına, əlillik dərəcələrinin yalnız əlillik statusuna haqqı çatan şəxslərə təyin olunmasına xidmət edir. Əlilliyin qiymətləndirilməsi, eləcə də əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiya olunması Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin əsas fəaliyyət istiqamətləridir.**



Aparılan islahatlar nəticəsində bu sahədə nəzarət mexanizmləri gücləndirilmiş, xidmət keyfiyyəti artırılmış, proseslərdə ünvanlılıq və vətəndaş məmnunluğu ön plana çəkilmişdir. Əlilliyin qiymətləndirilməsi mexanizminin rəqəmsallaşdırılması isə bu sahədə köklü dönüş yaratmışdır. **Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İdarə Heyətinin sədri Ramin Rzayevlə** söhbətimiz əlilliyin qiymətləndirilməsi və reabilitasiya sahəsində görülən işlər barədədir.

***– Ramin müəllim, ölkəmizdə əlilliyi olan şəxslərin hüquqlarının qorunması və imkanlarının genişləndirilməsi, əlillik təyinatının şəffaflaşdırılması istiqamətində hansı işlər görülür?***

– Azərbaycan Respublikası Nazirlər Kabinetinin 16.01.2020-ci il tarixli 11 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin qiymətləndirilməsi Qaydası"na uyğun olaraq vətəndaşların əlillik vəziyyəti dövlət tibb müəssisələrinin göndərişləri əsasında qiymətləndirilir. Belə ki, qiymətləndirmə üçün vətəndaş, ilk növbədə qeydiyyatda olduğu yaşayış yeri üzrə tibb müəssisəsinə müraciət edir. Tibb müəssisəsi tərəfindən göndəriş (forma 88) tərtib edilərkən əlilliyi qiymətləndiriləcək şəxsin kimliyini birbaşa və ya dolayısı ilə müəyyən etməyə imkan verən bütün məlumatlar şifrələnərək adsızlaşdırılıb Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Əlillik" altsisteminə ötürülür.





Bu prosesdə həkim-ekspertlər vətəndaşın yalnız tibbi göstəricilərini – diaqnoz və xəstəlik barədə məlumatları görürlər. Beləliklə, qiymətləndirmə zamanı subyektiv amil aradan qalxır, qərar obyektiv meyarlara əsaslanır. Göndəriş altsistemə daxil edildikdən 10 iş günü ərzində (əlavə araşdırma tələb olduqda 15 iş günü) qiymətləndirmə aparılır. Əlilliyin təyin olunub-olunmaması ilə bağlı məlumat vətəndaşın mobil telefonuna SMS bildiriş vasitəsilə göndərilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 13 may tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları" 2022-ci il iyulun 1-dən etibarən qüvvəyə minmişdir. Yeni meyarlara əsasən, əlilliyin ənənəvi üç dərəcəsi əvəzinə, həyat fəaliyyətinin əsas kateqoriyalarının məhdudlaşması dərəcələrinə uyğun olaraq orqanizmin funksiyalarının pozulması faizinə əsaslanan qiymətləndirilmə mexanizmi tətbiq edilir.

I, II və III dərəcə üzrə müvafiq olaraq 81-100 faiz, 61-80 faiz və 31-60 faiz aralıqları müəyyən edilir. Köhnə meyarların sayı 128 idisə, yeni meyarlarda bu say 634-ə çatdırılmışdır. Bununla da əlilliyin əhatə dairəsinə daxil olan diaqnozların sayı genişləndirilmişdir.

***– Əlilliyin qiymətləndirilməsi ilə yanaşı, sosial sahədə aparılan köklü islahatların müsbət nəticələrindən biri də müasir və əlçatan reabilitasiya xidmətləri sisteminin yaradılmasıdır. Regionlarda əlilliyi olan şəxslərin bərabər xidmət imkanlarına çıxışı necə təmin edilir?***

– Hazırda Agentliyin tabeliyində 4-ü uşaq reabilitasiya mərkəzi olmaqla 15 reabilitasiya müəssisəsi, o cümlədən 1 Protez-Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi və Bərdə şəhərində fəaliyyət göstərən "RehaPoint" Reabilitasiya Məntəqəsi fəaliyyət göstərir. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq son illərdə reabilitasiya mərkəzlərinin maddi-texniki bazası yenilənmiş, Qəbələ və Şəmkirdə müasir tələblərə cavab verən uşaq reabilitasiya mərkəzləri istifadəyə verilmişdir.

Eyni zamanda, reabilitasiya müəssisəsi olmayan bölgələrdə yaşayan vətəndaşların xidmətlərə çıxışını asanlaşdırmaq məqsədilə səyyar reabilitasiya xidmətləri təşkil olunur. Bu xidmətlər hərəkət məhdudiyyəti olan şəxslərə ev şəraitində tibbi və sosial-psixoloji yardım göstərməyə imkan yaradır.

2021-ci ildən Reabilitasiya müəssisələrinə əlilliyi olan şəxslərin rahat və maneəsiz qəbulu üçün "Reabilitasiya" altsistemin "Rezervasiya modulu" tətbiq edilir. Altsistem tibbi-sosial ekspert komissiyaları (TSEK) və reabilitasiya müəssisələrinin qarşılıqlı elektron fəaliyyətinin təmin olunmasına, reabilitasiya xidmətləri sahəsində şəffaflığın və hesabatlılığın artırılmasına, nəzarət və monitorinq sisteminin gücləndirilməsinə xidmət edir.

Agentlik tərəfindən Bərdə şəhərində yerləşən Qarabağ Regional DOST Mərkəzindəki "RehaPoint" – Reabilitasiya Məntəqəsində bölgə sakinlərinə ambulator reabilitasiya xidmətləri göstərilir. 2023-cü il dekabrın 1-dən fəaliyyətə başlayan məntəqədə indiyədək 3038 şəxs reabilitasiya xidmətləri ilə təmin edilimişdir. Bölgədə yaşayan əlilliyi olan şəxslər burada ambulator formada müalicəvi bədən tərbiyəsi, əmək terapiyası, psixoloq və loqoped xidmətlərindən faydalanırlar. Məntəqədə əlilliyi olan 309 şəxsə isə ehtiyaclarına uyğun olaraq 1851 ədəd reabilitasiya vasitəsi verilmişdir.

2022-ci ildən Sumqayıt şəhəri və Abşeron rayonunda əlilliyi olan uşaqlar onları müşayiət edən yaxınları ilə birgə reabilitasiya avtobusu ("RehaBus" ) vasitəsilə Bakı şəhərindəki 2 saylı Uşaq Reabilitasiya Mərkəzinə çatdırılır. Ötən aydan etibarən ölkənin ikinci böyük şəhəri olan Gəncədə də "RehaBus" xidmətinə başlanılmışdır.

Gəncə şəhərində yaşayan və ambulator reabilitasiya xidmətlərinə cəlb edilən əlilliyi olan uşaqlar bu xidmət çərçivəsində reabilitasiya avtobusu ilə həftənin iki günü ödənişsiz şəkildə Agentliyin Şəmkirdəki Uşaq Reabilitasiya Mərkəzinə çatdırılırlar. Fəaliyyətə başladığı dövrdən indiyədək bu layihə çərçivəsində 2300-ə yaxın əlilliyi olan şəxsə reabilitasiya xidmətləri göstərilmişdir.

***– Agentliyin fəaliyyətində digər önəmli layihələr də varmı?***

– Qeyd edim ki, Agentlik tərəfindən Ukraynadakı müharibədən əziyyət çəkmiş uşaqların ölkəmizə gətirilərək reabilitasiya xidmətlərinə cəlb edilməsi işləri davam etdirilir. Agentliyin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində 10 günlük reabilitasiya proqramı çərçivəsində uşaqlara tibbi, eləcə də sosial-psixoloji reabilitasiya xidmətləri göstərilir, peşəkar psixoloqlar tərəfindən fərdi konsultasiyalar, qrup terapiyaları, eləcə də yoqa və rəqs terapiya məşğələləri təşkil olunur.

Məqsəd onların emosional vəziyyətlərinin stabilləşməsinə, cəmiyyətə inteqrasiyalarının təmin edilməsinə dəstək göstərməkdir. Bundan əvvəlki 8 qrupla birlikdə ümumilikdə 300-ə yaxın ukraynalı uşaq ölkəmizə gətirilərək sosial-psixoloji reabilitasiya xidmətləri ilə təmin edilmişdir.

Bəzi diaqnozlar - məsələn, ixtioz, bullyoz və onkoloji xəstəliklər – reablitasiya mərkəzlərində müalicəyə əks göstəriş hesab olunur. Lakin bu şəxslərin diqqətdən kənarda qalmaması üçün Agentlik tərəfindən sosial-psixoloji dəstək layihələri həyata keçirilir. Bununla yanaşı, "Müstəqil həyat tərzi" və "Həmyaşıd dəstəyi" proqramları vasitəsilə əlilliyi olan şəxslərin özünəxidmət və sosial bacarıqlarının artırılması, onların cəmiyyətə aktiv inteqrasiyası təşviq olunur.

Agentlik Azərbaycanda ilk dəfə olaraq eşitmə və nitq məhdudiyyətli şəxslər üçün görüntülü ünsiyyətə əsaslanan "Səsiniz olaq" adlı onlayn surdotərcümə xidməti istifadəyə verilib. Bu xidmət eşitmə və nitq məhdudiyyətli şəxslərin müraciətlərinin üçüncü tərəfə (dövlət qurumları, özəl sektor və s.) ötürülməsini təmin edərək, həmin şəxslərlə işarət dili bilməyən tərəflər arasında "virtual körpü" funksiyasını yerinə yetirir. Belə ki, vətəndaş videozəng və ya mesaj vasitəsilə operatorla əlaqə saxlayır. Operator tərcüməçi funksiyasını yerinə yetirərək, müraciətin istiqamətinə uyğun üçüncü tərəflə əlaqə yaradır və surdotərcümə vasitəsilə onlayn əlaqə yaradır. Xidmətdən yararlanmaq üçün 0552131997 əlaqə nömrəsinə "Whatsapp" və ya "Telegram" platforması vasitəsilə müraciət etmək olar.

Eşitmə və nitq məhdudiyyətli şəxslər üçün surdotərcümə xidməti, işarət dili təlimlərinin təşkili, loqopedik və psixoloji dəstək tədbirləri pasiyentlərin sosial mühitə adaptasiyasına mühüm töhfə verir.

***– Əlilliyi olan şəxslərin reabiltasiya vasitələri ilə təmin edilməsində vəziyyət necədir?***

– Əlilliyi olan şəxslərin reabiltasiya vasitələri ilə təmin edilməsi Agentliyin tibbi-sosial ekspert komissiyalarının qərarı əsasında Fərdi Reabilitasiya Proqramında müəyyənləşdirməklə (minik avtomobili istisna olmaqla) Agentliyin tabeliyindəki Protez Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzi tərəfindən səyyar, ambulator və stasionar formada həyata keçirilir.

Reabilitasiya vasitələrinə tibbi-göstərişin müəyyən edilməsi üçün, ilk növbədə, ərazi TSEK tərəfindən əlilliyi olan şəxsə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 18 dekabr 2020-ci il tarixli 501 nömrəli Qərarı ilə təsdiq edilmiş "Əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi Şərtləri və Qaydası"na müvafiq olaraq ehtiyac duyulan reabilitasiya vasitəsinə tibbi göstəriş müəyyən edilir. Bu barədə qərar "Əlillik" altsisteminə daxil edildikdən sonra əlilliyi müəyyən olunmuş şəxs və ya etibarnamə verilmiş nümayəndəsi Agentliyin tabeliyindəki Protez Ortopedik İstehsalat və Reabilitasiya Mərkəzinə müraciət edir.

Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) ilə əməkdaşlıq çərçivəsində əlilliyi olan şəxslərə dövlət hesabına verilən reabilitasiya vasitələrinin növlərinin ÜST-nin təsnifatına uyğun qruplaşdırılması, eləcə də reabilitasiya vasitələrinin siyahısının genişləndirilməsi məqsədilə yeni qanunvericiliyə əsasən reabilitasiya vasitələrinin sayı 57-dən 130-a çatdırılmışdır. Onlardan 81-i əsas reabilitasiya vasitələri, 49-u isə əlavələrdir. Hədəflərimiz xidmət keyfiyyətinin daha da yüksəldilməsi ilə yanaşı, bu xidmətlərin davamlılığının və əhatə dairəsinin genişləndirilməsi, əlilliyi olan şəxslərin reabilitasiya xidmətlərinə əlçatanlığının artırılması, effektivliyin və vətəndaş məmnuniyyətinin yüksəldilməsidir.

***Mustafa KAMAL***
***XQ***

# Azərbaycan sənətçisinin Daşkənd sərgisi



**Ölkəmizin Özbəkistandakı səfirliyinin nəzdindəki Heydər Əliyev adına Mədəniyyət Mərkəzində Azərbaycan Tarixi Muzeyinin təsviri materiallar fondunun müdiri, dekorativ sənət ustası Nardanə Yusifovanın fərdi sərgisi təşkil olunub.**

Açılış mərasimində mərkəzin direktoru Akif Maarifli bildirib ki, sərgidə müəllifin Azərbaycan–Özbəkistan memarlıq nümunələrinə və digər mövzulara aid 40-dan çox dekorativ tətbiqi sənət əsəri nümayiş etdirilir.

Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev qeyd edib ki, Nardanə Yusifova Azərbaycan–Özbəkistan memarlıq abidələri, onların ornamentlərini müqayisəli şəkildə öyrənən dekorativ sənət ustasıdır. Sənətçi Azərbaycan–Özbəkistan qarşılıqlı əlaqələrini, memarlığını, abidələrdəki ornamentləri geniş təsvir edib.

Nardanə Yusifova sərginin təşkili üçün minnətdarlığını bildirib və qardaş ölkələrin memarlığında, dekorativ tətbiqi sənətində oxşar və fərqli üslublardan, qarşılıqlı əlaqələrdən danışıb.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan müxbiri***

*Sağlamlıq*

# "Bədniyyətli qonağa" "yox!" deyək

**Süd vəzi xərçəngi ən çox yayılan bədxassəli şişlərdəndir. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) son hesabatına görə, hər il, təxminən, 2,3 milyon qadına bu diaqnoz qoyulur. Hər 8 qadından biri həyatının müəyyən mərhələsində bu bəla ilə üzləşir.**

Rəsmi məlumata əsasən, ölkəmizdə 18 mindən çox qadın süd vəzi xərçəngi diaqnozu ilə qeydiyyatdadır. Hər il 1 500-dən çox yeni xəstə aşkar edilir. Bu xəstəlik gənc qadınlarda da müşahidə edilir.

Problemin ciddiliyini nəzərə alaraq ölkədə maarifləndirmə tədbirləri davam etdirilir. TƏBİB və "Paşa Həyat Sığorta" ASC-nin təşkilatçılığı ilə Ümumdünya Süd Vəzi Xərçəngi ilə Mübarizə ayı çərçivəsində "Xərçəngdən güclüsən" adlı tədbir keçirildi. Əsas məqsəd qadınlarda erkən diaqnostikanın əhəmiyyətini vurğulamaq, xəstəliklə bağlı stereotipləri aradan qaldırmaq və cəmiyyətin diqqətini sağlamlıq yoxlamalarının vacibliyinə yönəltməkdir.

Mərasimdə həkim-mütəxəssislər, ictimai fəallar və könüllülər bir araya gələrək qadınlara öz sağlamlıqlarına biganə qalmamağın həyati önəmini çatdırdılar.

**TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov bildirdi ki, Bakıda tibbi xidmətlərə çıxış daha əlçatan olsa da, bölgələrdə də maarifləndirmə və müayinələrin təşkili çox önəmlidir:**




– Maarifləndirmə tədbirləri Qarabağda da həyata keçirilir. Çünki orada canlanan həyat sağlam təməl üzərində qurulmalıdır. Vaxtında həkimə müraciət etdikdə, müalicədən sonra 5 illik yaşama şansı 90 faiz təşkil edir. 40-69 yaş arası qadınlar hər iki ildən bir müayinədən keçməlidirlər. Bu müayinələr TƏBİB tərəfindən iki mobil mammoqrafiya vasitəsilə aparılır. Mammoqrafiya xərçəngin ilkin əlamətlərini vaxtında aşkar etməyə imkan verir. Tibbi xidmətlərin əlçatanlığının təmin olunması, eləcə də, elektronlaşdırılması istiqamətində işlər sürətlə davam etdirilir.

TƏBİB-in tabeliyindəki tibb müəssisələrində mərhələli şəkildə elektron növbə sistemi tətbiq olunur və bu, səhiyyə xidmətlərinin keyfiyyətli, şəffaf və effektiv təşkilinə kömək edir. Əsas məqsəd pasiyentlərin qəbul prosesini optimallaşdırmaq, canlı növbələri minimuma endirmək və vətəndaş məmnuniyyətini artırmaqdır. Artıq pasiyentlər onlayn və ya yerində növbə götürərək rahat şəkildə qəbul üçün qeydiyyatdan keçə bilirlər. Hazırda paytaxt və regionlarda yerləşən 40 tibb müəssisəsində növbə terminalları və monitorlar quraşdırılıb. İlin sonuna qədər poliklinikalarda da elektron növbə sisteminin tətbiqinə başlanılması nəzərdə tutulur.

**"Paşa Həyat Sığorta" ASC idarə heyətinin üzvü, baş maliyyə inzibatçısı Dilarə Babayevanın sözlərinə görə, qadınları maarifləndirmək və sağlamlıqlarına dəstək vermək məqsədilə 3 il öncə "Güclüsən" cəmiyyəti yaradılıb:**



– Cəmiyyət vasitəsilə erkən diaqnostikanın nə qədər vacib olduğunu vurğulamağa çalışırıq. Layihə çərçivəsində müxtəlif təşkilatlarla əməkdaşlıq etmişik və bu əməkdaşlıq yalnız paytaxtda deyil, Qarabağ, Gəncə, Sumqayıt, Zaqatala kimi bölgələrdə də maarifləndirici təlim və seminarların təşkilini təmin edib. TƏBİB və Milli Onkologiya Mərkəzinin təşkilatçılığı, Regional İnkişaf İctimai Birliyinin dəstəyi ilə payız və yaz aylarında 500 Füzuli sakininin müalicəsi tam təmin edilib.

Sosial mediada aktiv şəkildə məlumatlandırma işləri apararaq minlərlə insana kömək etmişik. Tanınmış blogerlər və ictimai fəallar ilə əməkdaşlıq edərək mesajlarımızı daha geniş kütləyə yönəltmişik.

"Güclüsən" bizim üçün həyat tərzidir. Qarşıda bizi daha böyük planlar gözləyir və əminəm ki, davamlı əməkdaşlıq və dəstək sayəsində heç bir qadın bu mübarizədə tək qalmayacaq.

**TƏBİB-in Strateji inkişaf departamentinin korporativ əməkdaşlıq şöbəsinin müdiri Nigar Rüstəmli isə qeyd etdi ki, tibbi baxımdan bu xəstəlikdə genetik amillər mühüm rol oynayır:**



– Genlərdə yaranan mutasiyalar, nəsildə oxşar halların olması riski xeyli artırır. Lakin təkcə genetika deyil, həyat tərzi, stres, siqaret, alkoqol istifadəsi, qeyri-sabit qidalanma və hərəkətsiz həyat da bu zəncirin halqalarıdır. Qısası, xərçəng bəzən miras qalır, bəzən isə biz özümüz onu gündəlik vərdişlərimizlə "yetişdiririk".

Hazırda 22 rayonda 2 439 qadın paralel 2 istiqamət üzrə mammoqrafiya müayinəsindən keçib. 11 rayon üzrə nəticələrin təhlili aparılıb. 1.219 nəfərdən 386-da BI-RADS 3 (Təxminən 98 faiz xoşxassəlidir, 3–6 ay sonra yenidən yoxlanılmalıdır), 51 nəfərdə isə BI-RADS 4 aşkarlanıb.

TƏBİB Azərbaycan Respublikasının 2022–2026-cı illər üçün sosial-iqtisadi inkişaf strategiyası və 2025–2027-ci illəri əhatə edən strateji hədəflər çərçivəsində qeyri-infeksion xəstəliklərin profilaktikasını prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirib, artıq müvafiq layihələrin hazırlanmasına və icrasına başlanılıb.

**Azərbaycanda kişilərdə də süd vəzi xərçənginin aşkarlanmasında artım müşahidə olunur. Əvvəllər nadir hallarda rast gəlinən bu xəstəlik son illərdə statistik göstəricilərə görə, müəyyən dərəcədə artıb. Həkim-onkoloq Nərmin Axundova bildirdi ki, ölkədə kişilər də süd vəzi xərçəngi riskini görə müayinələrə cəlb edilirlər:**



– Kişilərdə süd vəzi xərçəngi əsasən genetik meyillik, hormonal disbalans, qaraciyər xəstəlikləri, piylənmə və bəzi endokrin problemlərlə əlaqəlidir. Əvvəllər onlar süd vəzi xərçəngi üçün müayinələrə gəlməkdən utanır və daha gecikmiş mərhələlərdə müraciət edirdilər. Süd vəzi xərçənginin çox ağır simptomları yoxdur. Ona görə də kişilər müayinəyə yalnız toxunduqda ağrı hiss etdikdə gəlirdilər. İndi isə daha erkən müayinə olunurlar.

Düzdür, hər səkkiz qadından birində süd vəzi xərçəngi aşkarlanırsa, bu göstərici kişilərdə daha azdır və adətən 60 yaşdan sonra aşkarlanır. Diaqnoz üçün mammoqrafiya, ultrasəs müayinə və lazım gəldikdə biopsiya tətbiq olunur. Biopsiya nəticəsində şişin xassəsi və riski müəyyənləşdirilir, bu da müalicənin seçilməsində həlledici rol oynayır.

Erkən diaqnostika, düzgün müayinə və sağlam həyat tərzinin təşviqi hər bir fərdin xilasolma şansını artırır. Azərbaycanda həm qadınlar, həm də kişilər üçün belə tədbirlərin genişləndirilməsi, sağlamlıq xidmətlərinə əlçatanlığın təmin olunması vacibdir. Bu yolda davamlı əməkdaşlıq və sosial məsuliyyət cəmiyyətin sağlam gələcəyinə töhfə verir.

***Fidan ƏLİYEVA***
***XQ***

*İnanc dünyası*

# Dini dəyərlərin azad ölkəsi

**Müasir Azərbaycan fərqli dinlərin nümayəndələrinin yanaşı və mehriban yaşadıqları nadir ölkələrdəndir. Burada məscidlər, sinaqoqlar və kilsələr birgə fəaliyyət göstərir. Şəhərin mərkəzində, qədim memarlıq üslubu ilə seçilən Müqəddəs Məryəm katolik kilsəsi belə tolerant mühitin əyani sübutudur.**

**Xristian icmasının həyatına, onların dini ayinlərinə və məbədin tarixçəsinə yaxından bələd olmaq üçün bu müqəddəs məkana yollandıq. İlk müsahibimiz Katolik Kilsəsinin mətbuat katibi Toral Ağayev oldu.**



*Toral Ağayev*

***– Ölkəmiz dünyada dini tolerantlıq məkanı kimi tanınır. Sizin məbəddə inanc və ibadət sərbəstliyi necə gerçəkləşir?***



*Mehriban Əliyevanın hədiyyəsi*



*3 əsrlik İsa heykəli*



*Keşiş Konstantin Pominov*

– Katolik kilsəsi ölkəmizdə 2000-ci ildə yenidən fəaliyyətə başlamış, 2011-ci ildə Apostol Prefekturası statusu almışdır. Lakin Azərbaycan torpaqlarında katolikliyin tarixi bundan xeyli əvvələ, XIV–XVIII əsrlərə gedib çıxır. Vatikanla Azərbaycan arasında imzalanmış razılaşmalardan sonra Vatikanın Apostol Kitabxanasında Azərbaycanla bağlı çoxsaylı tarixi sənədlər və mənbələr üzə çıxarılıb. Bu sənədlər orta əsrlərdə Azərbaycanla Müqəddəs Taxt-Tac arasında dini, mədəni və siyasi dialoqun mövcud olduğunu göstərir.

Tarixi faktlara görə, o dövrlərdə Azərbaycanda katolik monastırları olub. Burada fransiskan, avqustinian və dominikan rahin ordenlərinə mənsub ruhani icmalar fəaliyyət göstərib. XX əsrin əvvəllərində Bakıda fəal katolik icması mövcud idi. Həmin dövrdə paytaxtda inşa edilmiş Müqəddəs Məryəm Kilsəsi o illərin dini və memarlıq baxımından ən möhtəşəm tikililərindən biri sayılırdı. Lakin Sovet hakimiyyəti illərində dinə qarşı genişmiqyaslı repressiyalar nəticəsində Bakıda fəaliyyət göstərən pravoslav kilsələri, məscidlər və katolik məbədləri dağıdıldı, din xadimləri isə təqibə məruz qaldıar.

Sovet ideologiyası dinə düşmən münasibətdə idi və din dövlətin əsas rəqiblərindən biri kimi qəbul olunurdu. Xüsusilə, Katolik Kilsəsi ideoloji baxımdan təhlükə sayılırdı, çünki onun mərkəzi Vatikan "dəmir pərdə"nin o tayında yerləşirdi və Sovet ideologiyasının təsir dairəsindən kənarda idi. Bu səbəbdən uzun illər boyu Azərbaycanda katolik icmasının fəaliyyəti tamamilə qadağan olunmuşdu. Müstəqilliyin bərpasından sonra bütün dini icmaların fəaliyyəti yenidən canlandı. 2005-ci ildə Müqəddəs Məryəm katolik kilsəsinin inşasına başlanıldı. Layihənin memarı italyan əsilli Paolo Ruceyro idi. Kilsənin yerləşdiyi ərazi Prezident Heydər Əliyevin təşəbbüsü ilə 2002-ci ildə Roma Papası II İohann Pavelin (John Paul II) Azərbaycana səfəri zamanı katolik icmasına hədiyyə edildi və bu addım dini tolerantlığın və qarşılıqlı hörmətin çox gözəl təzahürü kimi qiymətləndirildi.

***– Kilsədə xidmət edən ruhanilər necə seçilir? Burada Azərbaycandan olan din xadimləri də fəaliyyət göstərirlərmi?***

– Azərbaycandakı Katolik Kilsəsinin ruhani və inzibati idarəçiliyi Salezian rahiblər ordeninə həvalə olundu. Həmin dövrdə ölkədə rusdilli və ingilis dilli katolik icması üstünlük təşkil etdiyindən, Azərbaycana rus və ingilis dilini bilən keşişlərin gətirilməsi vacib idi. Bu məqsədlə Vatikan slovakiyalı Salezian rahiblərini Azərbaycana göndərdi. Slovakların həm dini təcrübəsi, həm də dil bilikləri uyğun hesab edildi, çünki onların çoxu sovet dövründə rus dilini öyrənmişdi.

Məhz slovak rahiblərinin sayəsində Azərbaycandakı katolik icması yenidən dirçəldi. Kilsənin yepiskopu Vladimir Feketə Roma Papasının birbaşa təyin etdiyi dini liderdir. Ümumiyyətlə, katolik dünyasında yepiskopların təyin edilməsi yalnız Papaya məxsus səlahiyyətdir və bu, onun müstəsna hüququ hesab olunur.

***– Kilsədəki altarlar hansı dövrə aiddir? Qədim rəsmlər, mədəni nümunələr nəyi ifadə edir, necə qorunur?***

– Burada həm əsas, həm də yan altar mövcuddur və Müqəddəs Messa dini ayini bu altarların üzərində keçirilir. Bu altarlar müqəddəs sayılır və Allaha həsr olunmuşdur. Taxta altar qədim olmasa da, bizim üçün xüsusi əhəmiyyət daşıyır, çünki Azərbaycanda Roma papası II İohann Pavel tərəfindən 2002-ci ildə keçirilən ayin zamanı bu altarlar istifadə olunub. II İohann Pavel müqəddəs elan olunub və onun toxunduğu bütün dini atributlar xüsusi mənaya malikdir.

Altarın yanında duran xaçın da tarixi önəmi var, xaçın formasında bir zamanlar qazıntılar zamanı tapılan Alban dövrünə aid elementlər təkrar olunub. Bu, xristianlığın Azərbaycanda qədim və ənənəvi dinlərdən biri olduğunu vurğulayır. Qədim ikonalar, rəsmlər və digər əşyalar yoxdur, çünki katolik icması sovet zamanı demək olar ki, tam məhv olunmuşdu. Qədim olan yeganə element isə İsa Məsihin heykəlidir. 2009-cu ildə Dövlət Gömrük Komitəsi tərəfindən kilsəyə hədiyyə edilmiş bu heykəl XIX əsrə aiddir.

Təsvirlər yerli rəssamların işləridir. Lakin biri Polşa səfirliyi tərəfindən bağışlanmışdır və "Çenstoxovskaya Madonna" adlanır, bu təsvir Məryəm Ananı İsa ilə birlikdə göstərir. Orijinalı Polşada saxlanılır və katolik dünyasında, xüsusilə Polşada, çox böyük dini önəmə malikdir. Kilsənin girişində böyük vitraj təsviri yerləşir. Bu təsvir Müqəddəs Ruhun həvarilərə və Məryəm Ana üzərində enişini əks etdirir. Vitraj kilsəyə Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən bağışlanmış, kilsənin açılışından sonra əlavə edilmişdir.



*İsa Məsihin 12 həvarisindən birinə məxsus müqəddəs qalıq – barmaq sümüyü*



**Pravoslav Kilsəsinin içərisi**

***– Katolik Kilsəsi Azərbaycan dövlətinin dini siyasətini necə dəyərləndirir?***

– Müasir dünyada çoxlu münaqişələr mövcuddur, lakin Azərbaycan bu baxımdan tam fərqli bir nümunə təqdim edir. Bu yalnız nəzəriyyə deyil, gündəlik həyatımızın praktikasıdır, bəzi ölkələrdə multikulturalizm siyasəti uğursuz sayılır, dinlər və dini icmalar bir-birinə qarşı çıxır, islamofobiya, xristianofobiya və antisemitizm kimi hallar müşahidə olunur, ön yarğılar, düşmənçilik və nifrət görünür. Azərbaycan isə tam başqa bir mənzərə yaradır: dini fərqlər, konfessional və etnik müxtəliflik qarşılıqlı dialoqa imkan yaradır. Bu əməkdaşlıq üçün gözəl fürsətlər təqdim edir və Azərbaycan bunu dünyaya nümunə olaraq göstərir.

Müsəlman, yəhudi, pravoslav və digər dini icmalar kimi, Azərbaycanın katolik kilsəsi də daim dövlətdən dəstək alır, dövlətin multikulturalizm və tolerantlıq siyasətinin xoş bəhərlərindən yararlanır. Digər dini icmalar, xüsusilə Qafqaz Müsəlmanları İdarəsi, yəhudi icmaları, Bakı Pravoslav yeparxiyası, protestant icmaları ilə münasibətlərimiz səmimi dostluq və fəal əməkdaşlıq üzərində qurulub. Biz bir-birimizin bayramlarını qeyd edir, qonağı oluruq və mühüm hadisələr zamanı birlikdə çıxış edirik.

Kilsənin rəsmi açılışında **Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva** iştirak etmişdilər. Prezidentimiz çıxışında bir ifadə işlətdi ki, Katolik kilsəsinin bərpası, ədalətin bərpasıdır. Bu, yalnız Katolik kilsəsi üçün deyil, bütün Azərbaycan üçün də ədalətin təzahürü idi, çünki böyük bir ədalətsizlik nəticəsində, sovet dövründə insanların iman haqları əllərindən alınmışdı. Müstəqilliyin bərpasından sonra ölkədə quruculuq işləri aparıldı, çox zaman ölkələrdə yenidənqurma işləri aparılan zaman mənəvi məsələlər adətən ikinci və üçüncü plana keçir. Azərbaycanda isə çox nadir bir hal yaşandı, mənəvi və mədəni məsələlər də ön plana çıxarıldı, iqtisadiyyat və siyasətlə bərabər diqqət göstərildi, bunun gözəl nəticələrini də biz bu gün görürük.

Xüsusi olaraq qeyd etmək istəyirəm ki, kilsəyə tələbələr də gəlir, çünki bir çox məktəblərdə və ali təhsil ocaqlarında multikulturalizm fənni tədris olunur. Bu tədris çərçivəsində uşaqlar və gənclər kilsəyə gəlir. Biz bir neçə dəfə onlarla görüş keçirmişik və çox sevindirici, həm də yaxşı mənada təəccübləndirici haldır ki, uşaqların və tələbələrin dinlər barədə, ölkənin dini müxtəlifliyi barədə bilikləri çox genişdir.

Tolerantlıq sözünü çox eşidirik, amma Azərbaycanda söhbət yalnız dözümlülükdən getmir. Biz ünsiyyətdən zövq alır, fərqliliklərimizdən faydalanır və bir-birimizi zənginləşdiririk. Çox ölkələrdə müxtəlif siyasi, demoqrafik səbəblərdən sonradan yaranmış müxtəlifliklə barışmaq üçün multikulturalizm və tolerantlıq siyasəti aparılır. Azərbaycanda isə bu siyasət xalqın əsrlər ərzində formalaşdığı tolerantlıq ənənələrini, cəmiyyətimizin dini və etnik müxtəlifliyini qorumaq, inkişaf etdirmək və yad təsirlərdən müdafiə etmək məqsədi daşıyır. Biz öz müxtəlifliyimizi qoruyur və onu inkişaf etdiririk. Azərbaycanda Katolik Kilsəsi ölkədə və ölkə xaricində dövlətin, dini icmaların, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin irəli sürdüyü təşəbbüslərin və təşkil etdiyi tədbirlərin fəal iştirakçısıdır.

**XIX əsrin ikinci yarısında imperator III Aleksandrın göstərişi ilə təməli qoyulan, Bakı yeparxiyasının mərkəzi Müqəddəs Mürdaşıyan Zənənlər Kafedralında (Rus-Provoslav) həmsöhbətim keşiş Konstantin Pominov oldu. O, kilsənin tarixi əhəmiyyəti, buradakı maddi-mədəni nümunələr və maraqlı faktlardan bəhs etdi.**

– Kilsənin yerləşdiyi ərazidə bir vaxtlar çar ordusunun generalı Salyanovun kazarması yerləşib. O dövrdə burada taxtadan inşa olunmuş hərbi kilsə fəaliyyət göstərib və Aleksandr Nevskiyə həsr edilib. 1903-cü ildə taxta tikili sökülərək, azərbaycanlı xeyriyyəçi və milyonçu Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi ilə yerində daşdan yeni, daha möhkəm bir kilsənin tikintisinə başlanılıb. 1907-ci ildə tikinti başa çatıb.

Sovet dövründə həyata keçirilən ateist siyasət digər ibadət yerləri kimi bu kilsədən də yan keçməyib. 1934-cü ilə qədər xristianların istifadəsində olan məbəd həmin ildən buğda anbarına çevrilib. 1953–1964-cü illərdə Nikita Xruşşovun hakimiyyəti dövründə kilsə hərbçilərin idman zalı kimi istifadə olunub. Ən təəssüf doğuran məqamlardan biri isə onun ən müqəddəs hissəsi – Altarın yerində ayaqyolu və duşxananın yerləşdirilməsi olub. Bu vəziyyət 1990-cı ilə qədər davam edib. Həmin il Azərbaycan Müdafiə Nazirliyi binanı yenidən dindarlara qaytarıb.

Kilsəyə ən ağır zərbə isə 1990-cı ilin 20 Yanvar faciəsi zamanı dəyib. "Salyanski" kazarmaya yaxın yerləşdiyi üçün kilsənin damına tank mərmisi düşüb. Həmin vaxt binanın əsas zalında hərbçilər məşq edirmiş, damda isə kilsəyə məxsus xalçalar saxlanılırmış. Mərminin partlaması nəticəsində güclü yanğın baş verib və binaya ciddi ziyan dəyib.

Zaman keçdikcə icma üzvləri öz imkanları hesabına kilsənin bərpasına çalışsalar da, bu işləri tamamlamaq çətin idi. İlk kilsədən geriyə sadəcə divarlar qalmışdı, yalnız 2002-ci ildə xeyriyyəçi Aydın Qurbanovun maddi dəstəyi ilə kilsənin damı əsaslı təmir edilib, bütün daxili bəzəklər, ikonalar, daş oymaları və altar hissəsi bərpa olunub.

Bu gün məbədin interyeri heyrət doğurur. Kilsənin ən diqqətçəkən hissəsi olan ikonastas (yəni ikonalarla bəzədilmiş altar səddi) bütün Rus Pravoslav kilsələri içərisində daşdan hazırlanmış yeganə ikonastdır. Adətən ikonastlar taxtadan olur, lakin Bakıdakı bu məbədin ikonastı tamamilə daşdan yonulub. Onun üzərindəki oymalar unikal sənət nümunəsidir. Heç bir naxış bir-birini təkrarlamır. Oymalarda üzüm və çörək təsvirləri diqqət çəkir.

**Kilsəni gəzdikcə içərisindəki rəsmlərə, tarixi ikonalara baxdıqca, insan valeh olur, qızılı bir sandıq diqqəti xüsusi cəlb edir. Keşiş deyir:**

– Kilsənin tavanındakı rəsmləri Stroqanov Rəssamlıq Məktəbinin professorları işləyib. Bu rəsmlər klassik pravoslav simvolikasını Azərbaycan memarlıq ruhu ilə birləşdirir. İkonastasın üzərindəki ikonalar isə ikonapis Aleksandr Sokolov tərəfindən hazırlanıb. Digər ikonalar isə müxtəlif xeyriyyəçilər tərəfindən məbədə bağışlanıb. Ən dəyərli hədiyyələrdən biri isə Rum patriarxı Varfolomeydən gəlib, o, kilsəyə İsa Məsihin 12 həvarisindən birinə məxsus müqəddəs qalıq – barmaq sümüyünü bağışlayıb.

Eramızın ilk əsrlərində, Qafqaz Albaniyası dövründə Həzrəti İsanın bir şagirdi Şəki, Qəbələ, Oğuz və Bakıdan keçərək burada xristianlığı təbliğ edib. Lakin onun fəaliyyəti dövrün dini fundamentalistlərinin qəzəbinə səbəb olub və edam etdirilib. Onun cəsədinin qalıqları sonradan İtaliyaya aparılıb və orada qorunur. Varfolomey isə həmin müqəddəs missionerin barmaq sümüyünü Bakıya bağışlayaraq, bu kilsəni bütün pravoslav dünyası üçün müqəddəs ziyarət yerinə çevirib. Qalıq indi kilsədə, qızıl sandıqda saxlanılır. Kilsənin mərkəzində "kafedra" adlanan bir yer var, buradan Bakı arxiyepiskopu bütün ibadətləri idarə edir. Kafedranın altında sərilmiş xalça isə xüsusi məna daşıyır: onun üzərində Qafqaz dağları, Qız qalası və Azərbaycanı və xristianları qoruyan qartal təsvir olunub. Bu xalça, əslində, Azərbaycanın çoxmədəniyyətliliyinin parlaq rəmzidir.

***Ləman TƏHMƏZ***
***XQ***

# Dahi Cavid Naxçıvanda yad edilib



**Naxçıvanda Hüseyn Cavidin anadan olmasının 143-cü ildönümü qeyd edilib. Muxtar Respublika Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə keçirilən anım mərasiminin iştirakçıları əvvəlcə böyük dramaturq, filosof şairin məqbərəsini ziyarət edib, məzarı üstünə tər gül dəstələri qoyublar.**

Mərasimdə nazirliyin şöbə müdiri Pərvin Həsənov Hüseyn Cavidin Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, teatrının inkişafındakı xidmətlərindən danışıb, yaradıcılığı və şəxsiyyəti ilə özündən sonrakı ədəbi nəsillərə nümunə olduğunu bildirib. Qeyd olunub ki, görkəmli dramaturqun yaradıcılığına və şəxsiyyətinə ən layiqli qiyməti ümummilli lider Heydər Əliyev verib. Ulu Öndərin göstərişi ilə Hüseyn Cavidin 100 illik yubileyinin keçirilməsi və cənazəsinin uzaq Sibirdən Azərbaycana gətirilməsi haqqında qərar qəbul edilib.

Muxtar Respublika Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Asim Əliyev Hüseyn Cavidin həyat və yaradıcılığından danışıb. Anım məclisi AMEA Naxçıvan Bölməsinin əməkdaşı Ramiz Quliyev və Hüseyn Cavidin ev-muzeyinin və Xatirə Kompleksinin direktoru Tünzalə Dilanova, Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi Bəhruz Axundovun çıxışları ilə davam edib. Yazıçı Muxtar Qasımzadə Hüseyn Cavidin portretini muzeyə hədiyyə edib.

Bədii hissədə Hüseyn Cavidin xatirəsinə həsr edilmiş şeirlər səsləndirilib.

***Səbuhi HƏSƏNOV***
***XQ***

*Sumqayıt Musiqi Kolleci – 60*

# Gənclik şəhərinin musiqi beşiyi

**Bir vaxtlar gənclik şəhərinin 4-cü mikrorayonundakı bu möhtəşəm binanın yerində idman meydançası vardı. Uşaqlığımızın səs-küylü çağları orada keçib, hər gün futbol oynamış, "Qol!" deyib qışqırmışıq. Üstündən onilliklər keçib və indi burada ucaldılmış binadan könül oxşayan musiqi sədaları gəlir. 60 illik yubileyini qeyd edən Sumqayıt Musiqi Kolleci bir müddətdir ki, bu məkanda qərar tutub.**

Pəncərələrin birindən "Qəhrəmani" aşıq havasının melodiyaları eşidilir. Digərindən "Mirzə Hüseyn segahı" ucalır. Musiqinin 7 notu üstündə gözəlləşən dünyanın çal-çağırı, sevinci, fərəhi ruhumu qanadlandırır. Məni kollecin direktor müavini Kamran Süleymanov qarşılayır. Birlikdə səs gələn sinif otaqlarına baş çəkirik. Ruslan Əliyevin rəhbəri olduğu "Xalq çalğı alətləri" şöbəsinin imtahana hazırlıq kollokviumu keçirilir. 1-ci kurs tələbələri Zəhra Məmmədovanı və Murad Rzalının sazla ifalarını dinləyən müəllimlər hər incəliyə fikir verir, gənclərdən tövsiyələrini əsirgəmirlər.

Famil Kərimovun müdir olduğu "Xanəndəlik" şöbəsində də ruh oxşayan çal- çağırdır. Tələbə Anar Abdurəhmanov "Bayatı-kürd", ardınca isə Aylin İbrahimova "Segah" muğamlarını oxuyurlar. Onları tarda Əli Quliyev, kamançada Azər Hacıbalayev ustalıqla müşayiət edirlər. Arada Famil müəllim də əlini qulağına tərəf aparıb zil səsi ilə gənclərin ifalarına "təkan" verir. Ecazla dolu dəqiqələrin bağışladığı xoş ovqatın məni bütün gün ərzində tərk etməyəcəyinə tam əmin oluram...



Bu kollec bir neçə il Asəf Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinin filialı kimi fəaliyyət göstərib, 1965–ci ildən müstəqil təhsil müəssisəsi statusu alıb. 2000–ci ildən Sumqayıt Musiqi Texnikumu, 2010-cu ildən isə Sumqayıt Musiqi Kolleci adlandırılıb. Artıq 5 ildir ki, Azərbaycan Milli Konservatoriyasının nəzdinə verilib.

Kollec musiqi təhsili ocağı kimi fəaliyyətə başladığı vaxtdan etibarən ayrı-ayrı ünvanlarda yaşayış binalarının 1-ci mərtəbəsində 2 korpus olaraq, acınacaqlı vəziyyətdə fəaliyyət göstərmişdir. Bu il isə Sumqayıt şəhər rəhbərliyinin səyi ilə yeni, yaraşıqlı binaya köçürülüb. Söhbət etdiyimiz hər kəs bundan hədsiz razılığını bildirdi.

Vaxtilə Əməkdar artist, skripka ifaçısı Bayandur Mehdiyev, sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Əvəz Rəhmətov, Xalq artisti, kamança ifaçısı Ədalət Vəzirov, Əməkdar müəllimlər - professor Malik Quliyev, dosent Rasim Quliyev bu təhsil ocağının direktorları olublar. Xalq artistləri Arif Babayev, Canəli Əkbərov, Zabit Nəbizadə, professor Elmira Əliyeva, məşhur və peşəkar nəfəs alətləri ifaçısı Ələkbər Əsgərov burada işləyiblər. Siyahıya Əməkdar artistlər Elza Seyidcahan, Babək Niftəliyev, Ehtiram Hüseynov, Əməkdar mədəniyyət işçisi Aşıq Ulduz Quliyeva, Əməkdar müəllim, tarzən Abdul Haşımov, dosent Rasim Quliyev, bəstəkarlar - Əməkdar incəsənət xadimi Ceyhun Allahverdiyev, sənətşünaslıq doktoru Abbasqulu Nəcəfzadə, fəlsəfə doktoru Telman Qəniyev və Afaq Qəniyeva da aiddir.

Hazırda kollecə sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent, "Tərəqqi" medallı Səbinə Mehdiyeva rəhbərlik edir. Burada 161 müəllim, 33 nəfərlik texniki heyət çalışır. 3 ixtisas öyrədilir: sahələr üzrə instrumental ifaçılıq, vokal sənəti, eləcə də populyar musiqi və caz ifaçılığı. Ümumilikdə 332 subbakalavr dərəcəli tələbə təhsil alır. Kollecdə 10 fənn birləşmə komissiyası fəaliyyət göstərir.

**Direktor Səbinə Mehdiyeva:**

– Ötən 60 ildə kolleci 6230 nəfər bitirib. Məzunlardan bir çoxu Xalq artisti, Əməkdar artist, Əməkdar müəllim, tanınmış bəstəkar, sənətşünas-alimdir. Onların əksəri ali təhsil ocaqlarında, musiqi və incəsənət məktəblərində, mədəniyyət və məktəbəqədər tərbiyə müəssisələrində, yaradıcılıq mərkəzlərində fəaliyyətlərini uğurla davam etdirir. Tədrisin yüksək keyfiyyət göstəricilərinə günün tələbləri səviyyəsində nail olmaq üçün tədrisin yeni, müasir forma və metodlarından istifadə edirik. Beynəlxalq təhsil sisteminə inteqrasiya, müasir tələblərə cavab verən dərs vəsaitlərinin hazırlanması, tələbələrin beynəlxalq miqyaslı müsabiqə və festivallarda uğurlu çıxışları kollektivin əldə etdiyi nailiyyətlərdir.

Təhsillə yanaşı, kollecdə konsert-ifaçılıq fəaliyyətinə də ciddi diqqət verilir. Buranın musiqi kollektivləri - "Dügah" xalq çalğı alətləri ansamblı, xalq çalğı alətləri orkestri, "Vio Cello" kamera orkestri müntəzəm olaraq şəhər tədbirlərində, bayram və əlamətdar günlərdə Sumqayıtın və regionun ictimai, mədəni-kütləvi tədbirlərinə rəng qatırlar.

Ünlü musiqiçilər və alimlər Malik Mansurov, Elşən Mansurov, Abbasqulu Nəcəfzadə, Elza Seyidcahan, Nüşabə Ələsgərli, Mənzurə Mansurova, Ceyhun İsmayılov, Xədicə Zeynalova və başqaları bu kollecin məzunları olublar. Fuad Əlizadə bir sıra beynəlxalq elmi-ifaçılıq müsabiqəsi və festivallarında qalib gəlib. Onun adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitab"ına yazılıb. Şəhriyar Musayev "Muğam aləmi" III Beynəlxalq Festivalında instrumental muğam ifaçılığı" nominasiyası üzrə 3-cü mükafatı, Rza Xosrovzadə Macarıstan və İtaliyada festivallarda "Qran-pri" alıb. Natəvan Səlimova, Əzət Məmmədli, Flora Umudova, Xasay Gülməmmədov, Nəriman Məsimov, Rəşad Ağayev, Murad Sultanlı, Vəliş Mirzəyev, Fidan Zamanzadə, Tural və Turan Bağmanov qardaşları da kolleci layiqincə təmsil ediblər.

Bizimlə söhbətində Səbinə Mehdiyeva müavinləri Kamran Süleymanov və Mübariz Quliyev və Mahir Əlizadənin, şöbə müdirləri Kamran Teymurov və Aytən Cəfərovanın, Əməkdar müəllim Firəngiz Xəlilovanın fədakar əməyini qeyd etməyi unutmadı. Bu da qeyd olundu ki, peşəkar ifaçılar - gənc aşıqlar Kəmalə Mehdiyeva (Qubadlı), Elçin Rzayev, xanəndələr - Əməkdar artist Səbinə Ərəbli, Opera və Balet Teatrının solisti Gülzar Fərəcova, Famil Kərimov, Sədəf Budaqova, Vəliş Mirzəyev, tarzən Ayaz İmranov 2025/2026-cı tədris ilində Qarabağ Universitetinə dəvət alıblar. Ümumilikdə 4 məzunumuz Qarabağ universitetində ixtisaslar üzrə təhsilini davam etdirir.

Kollecdə olarkən ölkə üzrə yalnız burada yaradılıb fəaliyyət göstərən "Populyar musiqi və caz" ixtisası üzrə dərsdə də iştirak etdim. Beynəlxalq dərəcəli müəllim Solmaz Qasımova tələbə Əfruzə Sadıqovanın oxusunu yoxlayırdı. Emin Sabitoğlunun "Əlvida"sı həzin bir ortam yaratdı. Pərviz Məmmədovun (klaviş) müşayiətində caz və milli musiqi sintezi hər kəsi yetərincə duyğulandırdı.

Yubilyar musiqi təhsili ocağından dolğun təəssüratla ayrıldım. Gördüklərim, eşitdiklərim bu ocağın daim gur yanacağına, 7 səsli möcüzələrinin hələ çox mötəbər mədəni məclislərə rövnəq verəcəyinə, çox salonları "titrədəcəyinə" inamımı daha da artırdı.

***Ə.NƏCƏFXANLI***
***XQ***

*Təqvim yada salır*

# Yeraltı savaşın qəhrəmanı

*Milli Qəhrəman Çingiz Babayev Bakı Metropolitenində qəza zamanı yüzlərlə insanı xilas etmişdi*



**Unudulmayan faciəli təqvim günlərindən biri də 1995-ci il oktyabrın 28-də Bakı Metropolitenində baş vermiş və çoxsaylı insan tələfatı ilə nəticələnmiş hadisədir.**

Həmin faciə nəticəsində, rəsmi məlumatlara görə, 286 nəfər həlak olmuş, 269 nəfər yaralanmışdı. Metronun "Ulduz" və "Nəriman Nərimanov" stansiyaları arasında baş vermiş faciədən 400 nəfərdən çox insan xilas edilmişdi. Faciənin miqyası o qədər böyük olmuşdu ki, respublikanın ovaxtkı Prezidenti Heydər Əliyev xüsusi fərmanlar imzalayaraq ölkədə 2 günlük milli matəm elan etmiş, televiziya və radio ilə xalqa müraciət etmiş və günahsız insanları xilas edərkən həlak olmuş 4 nəfər Azərbaycanın yüksək fəxri adları və medalları ilə təltif etmişdi.

Onların dördü də Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin hərbi qulluqçuları olmuşdu. Çingiz Adil oğlu Babayev məktəbin baş leytenant rütbəli zabiti, digər üç nəfər isə müdavimlər (kursantlar) idi. Ulu öndər onların qəhrəmanlığını yüksək qiymətləndirmiş, xüsusən Çingiz Babayevin şücaətini Azərbaycanın Milli Qəhrəmanı adına layiq görmüşdü. Digər üç nəfər İsayev Ruslan Məhəmməd oğlu, Məmmədov Samir Nadir oğlu, Səfərov Nicat Mürvət oğlu isə ölümündən sonra "İgidliyə görə" medalı ilə təltif edilmişdilər.

Bu il oktyabrın 28-də həmin insanlıq əleyhinə mənfur cinayətdən 30 il ötür. Amma bu hadisə nəinki ictimaiyyətimizin yadından çıxmayıb, hətta uzun illər bundan sonra da unudulmayacaq, xalqımızı igidliyə və qəhrəmanlığa, torpaqlarımızı, insanlarımızı göz bəbəyi kimi qorumağa səsləyəcək. Bu günlərdə mərhum zabitin bacısı Aida Babayeva da redaksiyamıza göndərdiyi məktubda qeyd edir ki, qardaşının hünəri gənc nəsillərimiz üçün əsl mərdlik, qəhrəmanlıq və vətənpərvərlik örnəyidir. Onun yazdığına görə, Bakı metrosunda baş vermiş bu terror aktı miqyasının böyüklüyünə və qurbanlarının sayına görə "tarixin ən ağır metro faciəsi" kimi Ginnesin "Rekordlar kitabı"na da düşüb.

...1995-ci il oktyabrın 28-i, axşamüstü saat 16-17 arası. Metro qatarı "Ulduz" stansiyasından uzaqlaşıb "Nəriman Nərimanov" istiqamətində hərəkətdə ikən qəfildən baş verən qəza zamanı yanğın başlayır, vaqonu tüstü, alov və zəhərli qazlar bürüyür. İnsanlar haray qoparıb xilas olmağa çalışırlar. Elə bu zaman qonşu vaqonda olan Çingiz Babayev və Naxçıvanski adına Hərbi Məktəbin hərbi geyimli tələbələri yanan vaqonun qapı və pəncərələrinin şüşələrini sındıraraq insanların köməyinə tələsirlər.

Çingizin həmin gün göstərdiyi şücaətə həsr olunmuş "Əfsanəvi qəhrəman" kitabında bu barədə qeyd edilir: "Bu vaxt digər vaqondan əynində qara hərbi forma olan ucaboylu, qədd-qamətli, yaraşıqlı gənc zabit çıxır, yanında da üç müdavimi. Bu Çingizdir. O ... dərhal tunelə enir, yanan vaqondan insanları qurtarmağa tələsir... Adamlar bir-birini tapdalayıb çıxmaq istəyirdilər. Çoxusu huşsuz halda yerdə inildəyirdi. Qışqıran kim, qorxudan, həyəcandan ürəyi gedən kim"...

Çingiz dostları ilə birgə əlacsız insanları bir-bir qucağına qaldırıb xilas edərkən qəfildən bir qadının səsini eşidir: "Qardaş, qadan alım, balamı xilas elə. Mən ölsəm də olar". Çingiz əvvəl 5-6 aylıq körpəni, sonra isə anasını xilas edir. Bu minvalla Çingiz təxminən 300 insanı həyata qaytarır. Ancaq yanmaqda olan vaqondan çıxan zəhərli tüstü də öz işini görürdü. Çingiz cəld hərəkət etməklə daha çox adamı xilas etmək istəyirdi. O, adamları bir-birinin ardınca perrona qoyub qayıdır, boğulmaqda olan insanların hamısını bəladan qurtarmağa çalışırdı.

Amma amansız zəhərin qanına işlədiyinin fərqində deyildi. Bircə şey haqqında düşünürdü: mümkün qədər çox insanı xilas etmək! Beləliklə, gücü çatdığı qədər insanlara kömək edir və növbəti dəfə köməyə tələsərkən özü də huşunu itirərək yıxılır. Həkimlər onun həyatını xilas edə bilmirlər. Çingiz Babayev qəhrəmancasına həlak olur. Onunla bərabər üç müdavim – Ruslan İsayev, Samir Məmmədov və Nicat Səfərov da həlak olurlar...

Bu, əsl fədakarlıq, əsl vətənpərvərlik nümunəsi idi. Bu, Çingizin evdə-ailədə, məktəbdə aldığı tərbiyədən, özünün həyatda qazandığı mənəvi keyfiyyətlərdən irəli gəlirdi. Bir də atası Adil müəllimin dediyinə görə, Çingiz İrəvan xanı Rəşid xan Makinski nəslinin davamçılarından biri idi. Adil müəllimin anası Rəşid xanın qızı olub. Onun Birinci Dünya müharibəsində həlak olmuş dayısı Çingiz Makinski də zabit olub. Balaca Çingizə də dayısının adı verilib. Çingizin digər dayısı Əsəd Cəfərov da zabit olub, polkovnik-leytenant rütbəsi daşıyıb. Təbii ki, bütün bunlar uşaq yaşlarından Çingizin mənəvi dünyasının formalaşmasında mühüm rol oynayıb.

1964-cü il oktyabrın 2-də Bakıda ziyalı ailəsində dünyaya göz açmış Çingiz Babayev Yasamal rayonundakı 20 nömrəli orta məktəbi bitirdikdən sonra Azərbaycan Texniki Universitetində ali təhsil alsa da, həyatını hərb işinə bağlayır. Beləcə, 1992-ci ilin avqustunda torpaqlarımızın müdafiəsinə qalxır. Bir müddət ön cəbhədə Ermənistan silahlı qüvvələrinə qarşı vuruşur. 1994-cü ildə Müdafiə Nazirliyinin sərəncamı ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə göndərilir. Əvvəlcə taqım komandiri, sonra bölük komandirinin siyasi işlər üzrə müavini vəzifəsinə təyin olunur. 1995-ci il oktyabrın 28-də isə ... məlum metro faciəsi...

Bu gün metronun "Ulduz" stansiyasının qarşısında, eləcə də xidmət etdiyi C.Naxçıvanski adına Hərbi Liseydə Milli Qəhrəman Çingiz Babayevin büstü ucalır. Təhsil aldığı məktəbə və yaşadığı binanın önünə də xatirə lövhəsi vurulub. Hər gün minlərlə insan bu yerlərdən keçərkən Çingizlə qarşılaşır, onun unudulmaz və nəsillərə örnək olan qəhrəmanlığını xatırlayır. Heç şübhəsiz ki, İkinci Qarabağ müharibəsi zamanı böyük vətənpərvərlik və qəhrəmanlıqlar göstərib torpaqlarımızı azad edən igidlər də Çingiz kimi Milli Qəhrəmanlarımızın hünərindən ilham almışdılar. Azərbaycan xalqı da özünün bu cür qəhrəman oğulları ilə fəxr edir. Qəhrəmanlar isə heç zaman ölmürlər...

***P.ƏMİRCANOV***
***XQ***

*Xuntaçıların məhkəməsi*

# Erməni hərbçilər əsirləri öldürür, girovlara işgəncə verirdilər

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə, müharibə və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası oktyabrın 27-də davam etdirilib.**



Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında "Azəravtoyol" Açıq Səhmdar Cəmiyyətinin 1 saylı yol-nəqliyyat idarəsinin sürücüsü Seyidov Nadir Bədir oğlu ifadəsində göstərib ki, idarə etdiyi ekskavator 2021-ci il noyabrın 19-da Zəngilan rayonu ərazisində düşmənin basdırdığı minaya düşüb. Partlayış nəticəsində o və yanında olan Renad Ağababayev xəsarət alıblar.

Zeynalov Bəykişi Musa oğlunun elan olunan ifadəsinə əsasən, 2020-ci il sentyabrın 27-də Ağdamın Qaradağlı kəndində yaşadığı evə Ermənistan silahlı qüvvələrinin atdığı mərminin düşməsi nəticəsində müxtəlif bədən xəsarətləri alıb, evi əşyalarla birlikdə yararsız hala düşüb. Elan edilən digər ifadələrə əsasən, Həsənov Mehman Fikrət oğlu 2023-cü il sentyabrın 19-da Ağdam rayonunun Mollalar kəndi ərazisində düşmənin atdığı mərminin, zərərçəkmiş şəxs Quliyev Hüseyn Mahir oğlu eyni tarixdə Ağdərə rayonunun Canyataq kəndi ərazisinə atılan mərminin partlaması, Həsənli İmran Elman oğlu isə həmin il sentyabrın 20-də Ağdərə rayonu istiqamətinə açılmış atəşlər nəticəsində bədən xəsarətləri alıblar.

Fərzəliyev Samir Vaqif oğlunun hüquqi varisi Fərzəliyeva Siyafər Əli qızı övladının 2020-ci il sentyabrın 27-də, zərərçəkmiş şəxs İsmayılov Mirrəhim Mirmehdi oğlunun hüquqi varisi İsmayılov Mirmehdi İsmayıl oğlu isə övladının həmin il oktyabrın 2-də Tərtər rayonunun Suqovuşan kəndi istiqamətində həlak olduqlarını bildiriblər.

Tevon Tağıyevin ifadəsində qeyd edilib ki, Ermənistan silahlı qüvvələrinin 1992-ci il fevralın 16-da yaşadığı Xocavənd rayonunun Qaradağlı kəndinə hücumu zamanı onu, digər kənd sakinlərini və hərbçiləri girov və əsir götürüblər. Ermənistan hərbçiləri onları Xankəndi istiqamətində aparıblar. O, Kamonu, Samveli və Abonu tanıyıb. Ermənistan hərbçiləri yolda Şahmurad Hüseynovu, Həbib Hüseynovu və Zahid Xəlilovu öldürüblər. Xocavənddə olduqları müddətdə Ermənistan hərbçiləri onlara işgəncələr veriblər. Oğlu Telman Tağıyev Qaradağlı kəndində Ermənistan hərbçiləri tərəfindən öldürülüb, meyitini götürə bilməyib.

İlyasov Babək Həsən oğlu1993-cü il martın 31-də Kəlbəcər rayonunda "Tunel" adlanan ərazidə Ermənistan ordusunun hərbçiləri tərəfindən girov götürülərkən sağ gözündən yaralansa da, ona heç bir tibbi yardım göstərilməyib. Nəticədə bir gözünün görmə qabiliyyəti tamamilə itib. Həmin vaxt babası Aslan Mirzəyev və anası Afət Mirzəyeva vəhşicəsinə qətlə yetiriliblər.

Zərərçəkmiş Bayramov Faik Səlim oğlu göstərib ki, 1993-cü il iyunun 16-da Ağdam rayonunun Yetim Cinli kəndinin yaxınlığında yerləşən gölün kənarında Ermənistan hərbçiləri tərəfindən 12 nəfərlə birlikdə əsir götürülüb. Bir həftə Ağdam rayonunda, sonra Şuşa şəhərində yerləşən həbsxanada saxlanılıblar və ağır işgəncələrə məruz qalıblar. İsmayılov Asif Sakit oğlu isə qeyd edib ki, 1994-cü il aprelin 19-da Ağdamın İlxıçılar kəndi istiqamətində əsir götürülüb. Onu və digər əsirləri Şuşa həbsxanasına aparıb 1994-cü ilin sonlarından 1995-ci ilin əvvəllərinədək soyuq, qaranlıq kameralarda saxlayıblar. Orada erməni nəzarətçilər onu və digər əsirləri vəhşicəsinə döyüb, işgəncələr veriblər. Həmin nəzarətçilərdən Arturun, Manvelin, Samvelin, Vanyanın və Jirikin adlarını xatırlayır.



Əliyev Şövqi Xəqani oğlu bildirib ki, Ermənistan silahlı qüvvələrinin hərbçilərinin Ağdam rayonuna hücumu zamanı qardaşı Nicat Əliyev və ana babası Oktay Əliyev öldürülüb, özü, atası Xəqani Əliyev, anası Könül Əliyeva və nənəsi Zənifə Əliyeva yaralı vəziyyətdə girov götürülüblər. Xankəndi Şəhər Uşaq Xəstəxanasında bazu sümüyü əzələ qatı ilə birlikdə transplantasiya məqsədilə çıxarılıb, nəticədə ömürlük şikəst olub. Hacıyev Elman Qəhrəman oğlu ifadəsində diqqətə çatdırıb ki, 1993-cü il sentyabrın 25-də Murov dağı yaxınlığında Ermənistan silahlı qüvvələrinin hərbçiləri tərəfindən əsir götürülüb, vəhşicəsinə döyülüb, ağır işgəncələrə məruz qalıb.

Kərimov Təbriz Əjdər oğlu, Səfərli Vüsal Mirzəli oğlu və digərləri isə ifadələrində 2020-ci ilin iyulunda baş verən, Azərbaycanın Milli qəhrəmanları - general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyevin də həlak olduqları Tovuz döyüşlərində xəsarət aldıqlarını bildiriblər.

Sonra məhkəmədə müdafiə tərəfinin təqdim etdiyi sübutlar tədqiq olunub. Arayik Harutyunyanın pasportunun surəti ilə bağlı təqsirləndirilən şəxs öz müdafiəçisinin sualını cavablandırarkən deyib ki, qondarma rejimin "ərazisi"ndə yaşayanlara Ermənistan pasportları "070" kodu ilə verilirdi. Bu pasportların Ermənistan Respublikasının vətəndaşlarına verilən pasportlardan fərqi onda idi ki, qeyd olunan pasport koduna malik şəxslər Ermənistanda keçirilən seçkilərdə iştirak edə, o cümlədən səs verə bilməzdilər. Buna baxmayaraq, pasport kodu "070" olan hər kəsin Ermənistan vətəndaşı kimi xarici ölkələrdə turizm, təhsil, səhiyyə və digər məqsədlərlə səyahət etmək hüququ var idi.

Dövlət ittihamçısı Vüsal Abdullayevin təqsirləndirilən şəxsin doğum haqqında şəhadətnaməsində anadan olduğu yerin Azərbaycan SSR-in Xankəndi şəhəri, pasportunda isə Ermənistan SSR qeyd olunması ilə bağlı "Bu, Ermənistanın Qarabağı öz ərazisi kimi sayması demək deyilmi" sualına təqsirləndirilən şəxs cavab verməkdən yayınaraq deyib ki, bu məsələni heç vaxt Ermənistanın aidiyyəti orqanları ilə müzakirə etməyib, bu məsələ heç vaxt müzakirə mövzusu olmayıb.

Dövlət ittihamçısı təqsirləndirilən Arayik Harutyunyanın sıravi şəxs olmadığını xatırladaraq, suala mahiyyəti üzrə konkret cavab vermədiyini bildirib və əlavə edib: "Cavab vermək istəmirsinizsə, bu, sizin hüququnuzdur".

Məhkəmə prosesi oktyabrın 30-da davam etdiriləcək.

***XQ***

## "Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyəti

*"Salesforce" lisenziyaların satın alınması üçün*

## AÇIQ TENDER ELAN EDİR

"Azərbaycan Hava Yolları" Qapalı Səhmdar Cəmiyyətinin "Salesforce" lisenziyaların satın alınması üçün açıq tenderində iştirakçılar arzu.qasimli@azal.az elektron poçt ünvanına yazılı müraciət etməklə prosedurun şərtlər toplusunu əldə edə bilərlər.

Təkliflərin təqdim olunması üçün son tarix 2025-ci il 13 noyabr saat 11:00-dır.

**Prosedur üzrə əlaqələndirici şəxs: Arzu Qasımlı, mütəxəssis, arzu.qasimli@azal.az, iş: (+99412) 4972600, daxili 6989.**

## "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin 2024-cü il dekabrın 31-nə mühasibat balansı

**manatla**

| Aktivlər | 31 dekabr 2024-cü il | 31 dekabr 2023-cü il (yenidən bəyan olunmuş) |
|---|---|---|
| Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlər | 129,079,082 | 130,979,715 |
| **Cəmi uzunmüddətli aktivlər** | **129,079,082** | **130,979,715** |
| **Qısa müddətli aktivlər** | | |
| Mal-material ehtiyatları | 5,054,653 | 4,017,324 |
| Ticarət və digər debitor borcları | 3,206,586 | 3,027,704 |
| Digər aktivlər | 4,477,234 | 4,611,314 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7,547,008 | 4,201,785 |
| **Cəmi qısamüddətli aktivlər** | **20,285,481** | **15,858,127** |
| **Cəmi aktivlər** | **149,364,563** | **146,837,842** |
| **Öhdəliklər və kapital** | | |
| **Öhdəliklər** | | |
| **Uzunmüddətli öhdəliklər** | | |
| Borc öhdəlikləri | 15,510,420 | 19,995,630 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | **15,510,420** | **19,995,630** |
| **Qısamüddətli öhdəliklər** | | |
| Borc öhdəlikləri | 28,238,930 | 23,554,250 |
| Ticarət və digər kreditor borcları | 40,428,593 | 34,634,301 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **68,667,523** | **58,188,551** |
| **Cəmi öhdəliklər** | **84,177,943** | **78,184,181** |
| **Kapital** | | |
| Nizamnamə kapitalı | 136,684,980 | 136,684,980 |
| Dövlət tərəfindən kapital qoyuluşu | 61,536,054 | 58,218,329 |
| Yığılmış zərər | (133,034,414) | (126,249,648) |
| **Cəmi kapital** | **65,186,620** | **68,653,661** |
| **Cəmi öhdəliklər və kapital** | **149,364,563** | **146,837,842** |

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**

"Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin rəhbərliyinə:

Şərti müsbət rəy

Biz, "Azəristiliktəchizat" ASC-nin (bundan sonra "cəmiyyət" adlandırılacaq) 2024-cü il dekabrın 31-nə təqdim edilən konsolidə olunmuş maliyyə vəziyyəti haqqında hesabat, həmin tarixdə başa çatmış il üzrə konsolidə olunmuş mənfəət, zərər və digər məcmu gəlir haqqında hesabat, konsolidə olunmuş kapitalda dəyişikliklər və konsolidə edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət konsolidə olunmuş maliyyə hesabatlarının auditini aparmışıq.

Bizim rəyimizə əsasən, şərti müsbət rəy üçün əsas paraqrafda təsvir olunmuş məsələ istisna olmaqla əlavə edilmiş maliyyə hesabatları "cəmiyyət"in 2024-cü il dekabrın 31-nə konsolidə olunmuş maliyyə vəziyyətini, habelə göstərilən tarixdə başa çatmış il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə olunmuş pul vəsaitlərinin hərəkətini maliyyə hesabatlarının beynəlxalq standartlarına ("MHBS"na) uyğun surətdə bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.

***"SR Audit Solutions" MMC-nin direktoru,***
***Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü,***
***Auditor - Vəlizadə Səftər Vəli oğlu***

## "İstilikenerjitikintiquraşdırma" ASC səhmdarlarının nəzərinə!

4 dekabr 2025-ci il saat 10:00-da Bakı şəhəri, Nizami rayonu, 8-ci km qəsəbəsi, Babək prospekti 33 nömrəli ünvanda yerləşən inzibati binada ("İstilikenerjitikintiquraşdırma" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağının hüquqi ünvanı: Bakı şəhəri, Nizami rayonu, Ş.Mirzəyev küçəsi 32 ) keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

1. "İstilikenerjitikintiquraşdırma" ASC-nin 2024-cü ilin yekunu üzrə maliyyə hesabatının müzakirəsi və təsdiq edilməsi
2. Bir qrup səhmdarların "İstilikenerjitikintiquraşdırma" ASC-dən ayrılması, yenidən təşkil edilməsi və yeni hüquqi şəxslərin yaradılması
3. "İstilikenerjitikintiquraşdırma" ASC-nin nizamnamə kapitalının azaldılması və yeni nizamnamənin təsdiq edilməsi
4. Hüquqi şəxslərin nizamnamələrinin, bölünmə balanslarının və təhvil aktlarının təsdiq edilməsi
5. Dəyişiklər ilə əlaqədar sənədlərin hazırlanması, imzalanması və bütün bu işlərlə bağlı səlahiyyətli şəxslərin təyin edilməsi.

"İstilikenerjitikintiquraşdırma" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağının gündəliyinin materialları ilə tanış olmaq və əldə etmək məqsədilə Bakı şəhəri, Nizami rayonu, 8-ci km qəsəbəsi, Babək prospekti 33 nömrəli ünvana, 070-396-25-28 nömrəli telefonla müraciət etmək olar.

***"İstilikenerjitikintiquraşdırma" ASC-nin idarə heyətinin sədri***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 230 (30924) 28 oktyabr 2025-ci il, çərşənbə axşamı

İDMAN

## Misli Premyer Liqasının IX turu

**Misli Premyer Liqasının IX turunda “Neftçi” “Qəbələ” üzərində qələbə qazanıb.**



Qəbələ şəhər stadionunda baş tutan görüş paytaxt təmsilçisinin 2:0 hesablı qələbəsi ilə başa çatıb.

“Neftçi”nin heyətində İfeanyi Metyu (71) və yeni transfer, dünyaca məşhur kamerunlu hücumçu Vensan Abubakar (81) fərqləniblər.

“Qarabağ” isə evdə “Şamaxı” ilə qarşılaşıb. Tərəflərin səylərinə baxmayaraq, oyunda hesab açılmayıb–0:0.

Qeyd edək ki, daha əvvəl “Turan Tovuz” “Karvan-Yevlax”ı (2:1), “İmişli” “Kəpəz”i (3:0), “Zirə” isə “Sumqayıt”ı (1:0) məğlub edib. “Araz-Naxçıvan” – “Sabah” matçı heç-heçə bitib – 2:2.

Beləliklə, 9 oyundan 18 xal toplayan “Turan Tovuz” 1-ci pilləyə yüksəlib. “Qarabağ” 8 oyundan 17 xalla 2-ci, “Zirə” 9 oyundan 16 xalla 3-cü yerdədir. “Qəbələ” və “Karvan-Yevlax” 5 xalla müvafiq olaraq 10 və 11-ci yerləri bölüşürlər. Gəncənin “Kəpəz” futbolçuları 3 xalla sonuncu – 12-ci yerdə qərarlaşıb.

## Dünya Kubokunda 8 medal

**Azərbaycan karateçiləri Polşanın Bedzin şəhərində keçirilən 32-ci “SKDUN Shotokan Karate” üzrə dünya çempionatı və 17-ci Dünya Kubokunda 8 medal qazanıblar.**



Azərbaycan Karate Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, müxtəlif yaş və çəki dərəcələrində mübarizə aparan təmsilçilərimiz 2 qızıl, 2 gümüş və 4 bürünc mükafat əldə ediblər.

Dünya çempionatında Cəlal Şükürov (10–11 yaş, 40 kq) və Mehdi Abdullayev (10–11 yaş, +40 kq) 1-ci, Alişan Əzizov (18–20 yaş, 70 kq), Ələddin Əzizov (55–59 yaş, Veteran Open) 2-ci, Zəki Cəfərzadə (18–20 yaş, +80 kq), Heydər Feyziyev (12–13 yaş, 58 kq) üçüncü yeri tutub. Dünya Kubokunda isə Zaman Musayev (7–9 yaş, 30 kq) və Murad Bayramov (7–9 yaş, 30 kq) bürünc medal qazanıblar.

## VI İslam Həmrəyliyi Oyunlarının futzal təqvimi

**Azərbaycan futzal millisinin Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyadda təşkil olunacaq VI İslam Həmrəyliyi Oyunlarında keçirəcəyi matçların təqvimi müəyyənləşib.**




Azərbaycan Futzal Federasiyasının mətbuat xidmətindən verilən məlumata görə, A qrupunda yer alan komanda noyabrın 4-də Liviya, 6-da Özbəkistan, 8-də isə Səudiyyə Ərəbistanı yığmaları ilə qarşılaşacaq.

Qeyd edək ki, qrupda ilk 2 yeri tutacaq komanda yarımfinala vəsiqə qazanacaq. Bu mərhələnin görüşləri noyabrın 9-da baş tutacaq. Qalib və bürünc medalçının adına isə noyabrın 11-də aydınlıq gətiriləcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Futbol tariximizdən*

# Manafov Lobanovskiyə qarşı...

## *65 yaşlı foto nələri xatırladır?*



**Tarixi fotodur. “Neftçi”–70. Unudulmayan keçmiş. 1937–2007” kitabında (müəllifləri–Səbuhi Səfiyarlı və Elçin Rüstəmov) dərc olunub. 1960-cı il iyunun 2-də onda hələ Stalinin adını daşıyan Respublika Stadionunda keçirilmiş 22-ci SSRİ çempionatının “Neftçi”–“Dinamo” (Kiyev) görüşündən bir anı əks etdirir. Təəssüf ki, fotonun müəllifi göstərilməyib. Amma ağlıma ilk gələnlər sonralar Azərbaycan idman fotojurnalistikasında dərin iz buraxmış mərhumlar Faiq Rəcəbli və Leonid Bedoşvilidir.**

Fotoda top uğrunda mübarizə aparan rəqiblər kiyevlilərin sol kənar hücumçusu Valeri Lobanovski və bakılıların müdafiəçisi Akif Manafovdur. “Neftçi” futbolçusu var gücü ilə “Dinamo”nun hücumçusunun qarşısını almağa çalışır. Onların “top davası”nın necə qurtardığını demək çətindir, hərçənd hücumçu üstün vəziyyətdə görünür.

Əvəzində görüşün nəticəsi haqqında ətraflı danışa bilərik. Bu oyunda kiyevlilər 3:0 hesabı ilə qalib gəliblər və qollardan birinin müəllifi Lobanovski olub. Hesabdan da göründüyü kimi, A.Manafov, onun müdafiəçi yoldaşları Adil Babayev, Vyaçeslav Semiqlazov, Robert Çançaleyşvili, qapıçı Çingiz İsmayılov və komandanın digər oyunçuları həmin illərdə ölkənin ən güclü kollektivlərindən biri kimi tanınan Kiyev “Dinamo”suna o qədər də ciddi müqavimət göstərə bilməyiblər.

Sonralar Ukrayna paytaxtının klubu daha da məşhurlaşdı, Valeri Vasilyeviç Lobanovski isə əvvəlcə futbolçu, sonra da doğma kollektivinin və SSRİ yığma komandasının baş məşqçisi kimi dünya futbolunun ən görkəmli nümayəndələrindən birinə çevrildi.

Bakılı müdafiəçi Manafova gəldikdə, statistika Akifin “Neftçi”də qısa müddətdə, 2 il ərzində (1960–1961) çıxış etdiyini və 14 oyunun iştirakçısı olduğunu “yadda saxlayıb”. Amma, hər halda, o da ötən əsrin 60-cı illərindən “Neftçi”nin tarixində özünə yer edib.

Həmin 22-ci çempionatda qeydə alınmış bizim üçün çox fərəhli bir nəticə də yada düşür. Çempionatda Bakı komandası ən gurultulu qələbələrindən birini kiyevlilərlə qarşılaşmadan 24 gün sonra, iyunun 26-da Moskvada “Spartak”la oyunda qazanıb. Kiyev klubu kimi bu komanda da ölkə çempionatlarında daim qızıl medallara iddialı olub. Bu səbəbdən də 65 il əvvəl “Neftçi”nin səfər matçında, moskvalı azarkeşlərin gözü qarşısında Yuri Kuznetsov və Anatoli Qryazevin vurduqları 2 qolla “Spartak”ı 2:1 hesabı ilə məğlubiyyətə uğratması bir qədər gözlənilməz olmuşdu. Oyunda baş hakim funksiyasını isə kuybışevli (indi Samara) Ümumittifaq dərəcəli hakim N.Krılov yerinə yetirmişdi.

Onu da xatırlamaq yerinə düşər ki, “Spartak”la görüşdə komandamızı sevindirən qollardan birinin müəllifi Y.Kuznetsov xatirələrdə Azərbaycan futbol məktəbinin ən məşhur yetirmələrindən biri kimi yaşayır. XX əsrin 50-60-cı illərində yüksək texnikası ilə fərqlənmiş bu mərkəz hücumçusu həmyerlisi Ələkbər Məmmədovla birlikdə Moskva “Dinamo”sunda da oynamış, bu komandanın heyətində iki dəfə SSRİ çempionluğunu bayram etmiş, Əməkdar idman ustası adına layiq görülmüş, bir neçə görüşdə Sovet İttifaqı yığma komandasının da şərəfini qorumuşdu. “Neftçi”də də, “Dinamo”da da onunla yaxşı tandem təşkil etmiş Ələkbər Məmmədov isə həyatı dördqat SSRİ çempionu kimi tərk etmişdir.

**Sonda o uzaq illərin ölkə çempionatlarındakı “Neftçi”dən indiki UEFA Çempionlar Liqasının əsas mərhələsində Azərbaycanı şərəflə, ləyaqətlə təmsil edən Ağdamın “Qarabağ” komandasına keçib, ikicə cümlədə böyük qürur və dərin minnətdarlıq hissi ilə qeyd edək ki, noyabrın 5-də dünyanın ən böyük klublarından biri “Çelsi” (İngiltərə) ilə oyunumuza cəmi bir həftə qalır.**

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## Tələbələrin “Zəfər” şahmat turniri



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) dəstəyi, Elm və Təhsil İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsi (ETİHİRK), Azərbaycan Həmkarlar İttifaqları İdman Təşkilatları Assosiasiyası və Gənclik Könüllü Tələbə İdman Cəmiyyətinin birgə təşkilatçılığı ilə ali təhsil müəssisələri arasında “Zəfər” şahmat turniri keçirilib.**

Bakı İdman Sarayında keçirilən tədbirin açılış mərasimində AHİK-in sədr müavini Musa Mirzəyev, Elm və Təhsil Nazirliyinin şöbə müdiri Elnur Əliyev, Gənclər və İdman Nazirliyinin sektor müdiri Aydın Məmmədov və digər çıxış edənlər ölkəmizdə idmanın inkişafına göstərilən dövlət qayğısından, gənclər siyasətinin uğurlu icrasından bəhs edib, bu cür tədbirlərin gənclərin intellektual inkişafına, komanda bacarıqlarının formalaşmasına önəmli töhfə verdiyini vurğulayaraq iştirakçılara uğurlar arzulayıblar.

Sonra beynəlxalq dərəcəli hakim Fikrət Sideifzadə iştirakçıları turnirin qaydaları ilə tanış edib və yarışa start verilib. Yarışda 14 ali təhsil müəssisəsindən kişi və qadınlar ayrı olmaqla ümumilikdə 28 komanda iştirak edib.

Yarışın nəticələrinə əsasən, qadınlar arasında I yeri Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, II yeri Azərbaycan Dillər Universiteti, III yeri isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin komandaları tutub. Kişilər arasında isə I yeri Azərbaycan Memarlıq və İnşaat Universiteti, II yeri Bakı Ali Neft Məktəbi, III yeri Bakı Dövlət Universitetinin komandaları qazanıb.

Qalib komandalar kubok, medal, fəxri fərmanla təltif olunub, hədiyyələr verilib.

*XQ*

## Boksçularımız Avropadan 8 medalla qayıdıblar

**Monteneqronun Budva şəhərində boks üzrə keçirilən U-15 Avropa çempionatına yekun vurulub. Azərbaycan millisi 32 ölkədən 369 idmançının qatıldığı yarışı 2 qızıl, 3 gümüş və 3 bürünc medalla başa vurub.**

Komandamızın heyətində Xumar Cəfərli (75 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. O, finalda Yağmur Eryurtu (Türkiyə) 5:0 (30:27, 30:27, 30:27, 30:27, 30:27) hesabı ilə məğlub etməklə Budvada Azərbaycan himnini səsləndirib. Bu qızıl medal ölkəmiz üçün əlamətdar olub. Boks tariximizdə ilk dəfə qız idmançımız U-15 Avropa çempionatının qalibi adına yiyələnib.




Xumarın uğurunu Mehran Rəsulov (80 kq) da təkrarlayıb. Finalda Serqiy Kotovskini (Ukrayna) 5:0 (30:27, 29:28, 29:28, 30:27, 30:27) hesabı ilə məğlub edən boksçumuz qızıl medala layiq görülüb. Bu, Rəsulovun karyerasında Avropa birinciliklərinin 3-cü mükafatı olub. O, bunadək 2 dəfə bürünc medal əldə edib.

Digər boksçularımızdan Nəsrin Abdullazadə (40 kq), Nurlan Müseyibli (66 kq), Yusif Ağakişiyev (75 kq) gümüş, Onur Qurbanov (42 kq), Elcan Musazadə (50 kq) və Ərdəm Təkin (90 kq) bürünc medal qazanıblar.

Qeyd edək ki, Azərbaycan millisi komanda hesabında 6-cı yeri tutub.

*Q.YUSİFOĞLU*
*XQ*

*HAVA*

## İlıq bir payız günü...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Mülayim cənub-qərb küləyi gündüz arabir güclənəcək.**

Havanın temperaturu gecə 14-17, gündüz 21-26 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunundan 758 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-85, gündüz 60-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın, əsasən yağmursuz keçəcəyi, bəzi yerlərdə arabir duman olacağı gözlənilir. Mülayim



qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 10-15, gündüz 22-27, dağlarda gecə 4-9, gündüz 13-18 dərəcə isti olacağı bildirilir.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Əlibala Məhərrəmzadə Turab və Xəndan Əhmədovlara əzizləri

**RAUF MÜƏLLİMİN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Gəncə şəhərindən Zabit Xəlilov və Gəncə Şəhər Ağsaqqallar Şurası idarə heyətinin üzvləri şuranın sədri professor Nurəddin Məmmədova həyat yoldaşı

**GÜLÜŞ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3508
SİFARİŞ 2167
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
İmran BƏDİRXANLI
Çapa imzalanmışdır 00:00